# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİ

# B Ü L L E T E N

№ 2 (38)

Naxçıvan – 2024



*Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.*

*Heydər Əliyev*

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

*Bülleten 2006-cı ildən etibarən ildə iki dəfə dərc edilir.*

*Rəsmi sayt: www.nsupremecourt.gov.az*

**Buraxılış üçün məsul şəxs:**
*S.İ.Bəktaşi*

**Redaktor:**
*Ə.K.Allahverdiyev*

**Redaksiya heyəti:**
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*S.Ş.Bəylərli*
*V.K.Quliyev*
*C.G.Bayramova*
*Y.F.Xəlilov*
*A.N.İmanova*

**Məsul katib:**
*G.Ə.Qurbanova*

**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 550-96-76*
*Faks: 544-61-80*

# M Ü N D Ə R İ C A T

## Yeni sənədlər, normativ aktlar

*Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*..........................................**6**

*“Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı*............................**9**

*Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*.......................**11**

*Z.X.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı*......**13**

*Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)*..............................................**13**

*Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*..........................................**14**

*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*....................**14**

*Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*....................**16**

*"Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* .......................**18**

*"Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*........................................................................................**24**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 sentyabr 2024-cü il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair Azərbaycan Respublikası adından Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Qərarı*.............................................**26**

## Məhkəmə fəaliyyəti

**Mülki kollegiyadan**

*Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin birinci yarımilinin yekunları üzrə statistik məlumatların təhlili* ................................................... **32**

**Kommersiya kollegiyasından**

*Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin birinci yarımilinin yekunları üzrə statistik məlumatların təhlili* ....................................................**40**

**İnzibati kollegiyadan**

*Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin birinci yarımilinin yekunları üzrə statistik məlumatların təhlili* ....................................................**42**

**Cinayət kollegiyasından**

*Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin birinci yarımilinin yekunları üzrə statistik məlumatların təhlili* ....................................................**44**

## İnsan hüquqları və məhkəmə təcrübəsi

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı*..........................................................................................**55**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Cinayət nəticəsində vurulmuş zərərin ödənilməsi “sosial ədalətin bərpası” prinsipi müstəvisində*..........................................................**70**

## Azad tribuna

*Ədalət mühakiməsinin həyata keçirilməsi müstəvisində süni intellektin tətbiqi: dünya təcrübəsində qarşılaşılan mövcud problemlər və gələcək perspektivlər*......................................................................................**80**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2024-cü ilin iyul-dekabr aylarında keçirilən tədbirlərin xülasəsi*.......**92**

*“Azərbaycanın dövlət və hüquq tarixində Naxçıvan” mövzusunda elmi-praktiki konfrans keçirilib*......................................................**110**

## Hakim studiyası

*“Hakim studiyası” televiziya verilişinin icmalı*................................**114**



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 14-cü və 17-ci bəndlərini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli və 21 may tarixli 1154-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 10.2-ci və 27.2-ci maddələr ləğv edilsin;

1.2. aşağıdakı məzmunda 12.0.2-1-ci və 12.0.2-2-ci maddələr əlavə edilsin:

“12.0.2-1. qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları;

12.0.2-2. bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlu;”;

1.3. 26.1.1-ci maddədən “və nikah yaşına çatana qədər nikaha daxil olmaq üçün bu Məcəllənin 10.2-ci maddəsində nəzərdə tutulmuş icazə olmadıqda” sözləri çıxarılsın;

1.4. 56.2-ci maddədən “yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda,” sözləri çıxarılsın;

1.5. 57.2-ci maddənin birinci cümləsində “valideynlər nikaha daxil olmamışlarsa, onların” sözləri “valideynlərin” sözü ilə əvəz edilsin.

Maddə 2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab),

maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 176-1-ci maddə üzrə:

2.1.1. adında "Qadını nikaha" sözləri "Nikaha və ya erkən evliliyə" sözləri ilə əvəz edilsin;

2.1.2. 176-1.1-ci maddənin dispozisiyasında "Qadını nikaha" sözləri "Nikaha" sözü ilə əvəz edilsin;

2.1.3. 176-1.2-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"176-1.2. Nikah yaşına çatmayan şəxsi erkən evliliyə daxil olmağa məcbur etmə –";

2.1.4. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Məcəllənin 176-1 və 176-2-ci maddələrində "erkən evlilik" dedikdə yetkinlik yaşına çatmayan şəxslə nikah bağlamadan ailə qurmaq məqsədilə yaradılan ittifaq başa düşülür.";

2.2. aşağıdakı məzmunda 176-2-ci maddə əlavə edilsin:

"Maddə 176-2. On altı yaşına çatmayan şəxsin erkən evliliyinin təşkili

On altı yaşına çatmayan şəxsin erkən evliliyinin həmin şəxsin və ya erkən evliliyə daxil olan digər şəxsin valideynləri və ya onları tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya erkən evliliyə daxil olan yetkinlik yaşına çatmış şəxs tərəfindən təşkil edilməsi –

iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə nəzərdə tutulmuş cinayətə görə məsuliyyət erkən evliliyə daxil olan yetkinlik yaşına çatmış şəxsə münasibətdə həmin şəxslə zərərçəkmiş şəxsin yaş fərqi beş ildən çox olduqda yaranır.".

Maddə 3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362; Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1116-VIQD nömrəli, 5 aprel tarixli 1127-VIQD nömrəli, 19 aprel tarixli 1134-VIQD nömrəli və 7 may tarixli 1148-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 43.1-ci maddəyə "157–188," rəqəmlərindən sonra "189-1, 189-3.2," rəqəmləri əlavə edilsin;

3.2. 21-ci fəslin adında "Siyasi, sosial və əmək hüquqları" sözləri "İnsan və vətəndaşın hüquq və azadlıqları" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 189-1 – 189-3-cü maddələr əlavə edilsin:

“Maddə 189-1. On altı yaşına çatmayan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olma

On altı yaşına çatmayan şəxs barəsində onun və ya evliliyə daxil olmaq niyyətində olan digər şəxsin valideynləri və ya onları tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya evliliyə daxil olmaq niyyətində olan yetkinlik yaşına çatmış şəxs tərəfindən nişanlanmaya və ya evliliyə dair digər sövdələşməyə daxil olmağa görə –

min manatdan iki min manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

Qeyd: Bu maddədə nəzərdə tutulmuş əmələ görə inzibati məsuliyyət həmin əməli törətmiş evliliyə daxil olmaq niyyətində olan yetkinlik yaşına çatmış şəxsə münasibətdə bu şəxslə zərərçəkmiş şəxsin yaş fərqi beş ildən çox olduqda yaranır.

Maddə 189-2. Yetkinlik yaşına çatmayan şəxslərin erkən evliliyi ilə bağlı mərasimlərin keçirilməsi

189-2.1. İctimai iaşə obyektlərini idarə edən şəxslər tərəfindən yetkinlik yaşına çatmayan şəxslərin erkən evliliyi ilə bağlı mərasimlərin (nişan, toy və digər mərasimlər) keçirilməsinə görə-

fiziki şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan doqquz min manatadək məbləğdə cərimə edilir.

189-2.2. Bu Məcəllənin 189-2.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

fiziki şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər beş min manatdan altı min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on üç min manatadək məbləğdə cərimə edilir.

Qeyd: Bu maddədə “erkən evlilik” dedikdə yetkinlik yaşına çatmayan şəxslə nikah bağlamadan ailə qurmaq məqsədilə yaradılan ittifaq başa düşülür.

Maddə 189-3. Yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbinkəsmə

189-3.1. Yetkinlik yaşına çatmayan şəxs barəsində dini kəbinkəsməyə görə –

fiziki şəxslər min manat məbləğində cərimə edilir.

189-3.2. Bu Məcəllənin 189-3.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

fiziki şəxslər iki min manat məbləğdə cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.”.

Maddə 4. Bu Qanun 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 28 iyun 2024-cü il

§

**“Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12.0.2-1-ci və 12.0.2-2-ci maddələrində nəzərdə tutulmuş qohumluq əlaqələri barədə məlumatların nikahın qeydə alınması barədə müraciət edildikdə nikahın bağlanmasının dövlət qeydiyyatını aparan orqanlar tərəfindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsini təmin etmək üçün zəruri tədbirlər görsünlər.

3. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 89 nömrəli Fərmanı) 2.8-ci bəndi ləğv edilsin.

4. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157) aşağıdakı məzmunda 5.1-1-ci və 5.1-2-ci bəndlər əlavə edilsin:

"5.1-1. həmin Məcəllənin 189-2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi baxır;

5.1-2. həmin Məcəllənin 189-3.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi baxır;".

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa

səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2.1-ci və 2.5-ci bəndlərinə "212.5" rəqəmlərindən əvvəl "189-2, 189-3.1," rəqəmləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 7-ci hissədə "181.0.3-cü maddəsində" sözləri "181.0.3 və 189-1-ci maddələrində" sözləri ilə əvəz edilsin;

6.2. 54-1-ci hissəyə "Məcəllənin" sözündən sonra "189-3.2 və" sözləri əlavə edilsin.

7. Bu Fərmanın 3−6-cı hissələri 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 23 iyul 2024-cü il

§

## Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün

bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq qərara alıram:

1. Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 19 sentyabr 2024-cü il

## Z.X.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Zamiq Xudaverdi oğlu Əliyev vəzifəsi dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Sahibə Qafarova**
*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
Bakı şəhəri, 8 oktyabr 2024-cü il

§

## Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

apellyasiya instansiyası məhkəmələri üzrə:

…

1.3. İlqar Məhərrəm oğlu Mirzəyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

…

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 14 oktyabr 2024-cü il

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikası Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250; № 7, maddə 772) aşağıdakı dəyişikliklər edilsin:

1. 99-4.5-ci maddəyə "Məcəllənin" sözündən sonra "104-1," rəqəmləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 104-1-ci maddə əlavə edilsin:

"Maddə 104-1. Ekosid

Bitki və ya heyvanlar aləminin kütləvi məhv edilməsi, atmosferin, torpaq və ya su ehtiyatlarının zəhərlənməsi, yaxud ekologiyaya ziyan vuran digər hərəkətlərin qəsdən törədilməsi, bu əməllər ekoloji fəlakətə səbəb olduqda və ya ekoloji fəlakətin baş verməsi üçün real təhlükə yaratdıqda –

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 22 oktyabr 2024-cü il

§

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637) aşağıdakı dəyişikliklər edilsin:

67-1.5-ci maddənin birinci cümləsinə, 159.1-ci və 493.1-ci maddələrə "təxirə salınmadan" sözlərindən sonra ", lakin sonrakı iş günündən gec olmayaraq" sözləri əlavə edilsin.

161.3-cü maddənin birinci cümləsinə “məsələsi” sözündən sonra “bu barədə ərizə məhkəməyə daxil olduğu vaxtdan 10 gün müddətində” sözləri əlavə edilsin.

162.2-ci maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Müvəqqəti təminat tədbirinin ləğv olunması barədə ərizəyə məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində baxılır və həll edilir.”.

184.4-cü maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

“Vəsatətə onun təqdim edildiyi və ya növbəti məhkəmə iclasından gec olmayaraq baxılır. Vəsatətdə göstərilən məsələ təxirəsalınmaz qaydada həll edilməli olduqda, vəsatətə baxılması ilə bağlı işdə iştirak edən şəxslərə məlumat verilməklə məhkəmə iclası təyin edilə bilər.”.

228.2-ci maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Qətnamədə və ya qərardadda buraxılmış yanlışlıqların və açıq hesab səhvlərinin düzəldilməsi barədə ərizəyə məhkəməyə daxil olduğu vaxtdan 10 gün müddətində baxılır və həll edilir.”.

229.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“229.2. Əlavə qətnamənin və ya əlavə qərardadın çıxarılması barədə məsələyə o zaman baxıla bilər ki, bu Məcəllənin 229.1-ci maddəsində nəzərdə tutulmuş hallar qətnamə və ya qərardad qanuni qüvvəyə minənədək aşkar olunsun. Əlavə qətnamənin və ya əlavə qərardadın çıxarılması barədə ərizə qətnamə və ya qərardad qanuni qüvvəyə minənədək məhkəməyə təqdim edilir. Əlavə qətnamə və ya əlavə qərardad məsələnin məhkəmə iclasında müzakirəsindən sonra məhkəmə tərəfindən çıxarılır. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməməsi işə baxmağa mane olmur. Əlavə qətnamə və ya əlavə qərardad ərizə məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində qəbul olunur. Əlavə qətnamə və ya əlavə qərardadın çıxarılması qətnamə və ya qərardadın qanuni qüvvəyə minməsini təxirə salmır.”.

230.4-cü maddənin birinci cümləsinə “məsələsi” sözündən sonra “bu barədə ərizə məhkəməyə daxil olduğu vaxtdan 20 gün müddətində” sözləri əlavə edilsin.

355-1.1-ci maddədən “ilə bağlı hərəkətləri” sözləri çıxarılsın.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 7 noyabr 2024-cü il

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddəyə "211.1," rəqəmlərindən sonra "212.4-1," rəqəmləri, "264.0.5," rəqəmlərindən sonra "266.3-1," rəqəmləri əlavə edilsin.

2. 212-ci maddə üzrə:

2.1. 212.4-cü maddənin sanksiyasında "əlli" sözü "üç yüz" sözləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 212.4-1-ci maddə əlavə edilsin:

"212.4-1. Bu Məcəllənin 212.4-cü maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

yeddi yüz manat məbləğində cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, altmış saatdan yüz saatadək ictimai işlər tətbiq olunur.".

3. 266-cı maddə üzrə:

3.1. 266.3-cü maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər dörd min manat məbləğində cərimə edilir.";

3.2. aşağıdakı məzmunda 266.3-1-ci və 266.4-1-ci maddələr əlavə edilsin:

"266.3-1. Bu Məcəllənin 266.3-cü maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

fiziki şəxslər min manat məbləğində, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, altmış saatdan yüz saatadək ictimai işlər tətbiq olunur, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.";

“266.4-1. Məişət tullantılarının buna cavabdeh şəxslər tərəfindən vaxtında xüsusi ayrılmış ərazilərə daşınmamasına görə –

vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər iki min manat məbləğində cərimə edilir.”.

4. 301.2-ci maddənin dispozisiyasında “zibil” sözü “tullantı” sözü ilə, sanksiyasında isə “otuz” sözü “beş yüz” sözləri ilə əvəz edilsin.

5. 306-cı maddə üzrə:

5.1. 306.1-ci maddənin dispozisiyasında “vestibüllərini, keçidlərini və platformalarını, habelə eskalatoru və vaqonların salonunu zibilləməyə” sözləri “vestibüllərinə, keçidlərinə və platformalarına, habelə eskalatora və vaqonların salonuna tullantı atmağa” sözləri ilə, sanksiyasında isə “on beş” sözləri “iki yüz” sözləri ilə əvəz edilsin;

5.2. 306.3-cü maddənin sanksiyasında “otuz” sözü “iki yüz” sözləri ilə əvəz edilsin.

6. 308.2-ci maddənin dispozisiyasında “zibil” sözü “tullantı” sözü ilə, sanksiyasında isə “otuz” sözü “üç yüz” sözləri ilə əvəz edilsin.

7. 327.1-ci maddənin dispozisiyasından “, nəqliyyat vasitələrindən bayıra hər hansı əşyanın atılmasına” sözləri çıxarılsın.

8. 338.3-cü maddənin dispozisiyasından “, nəqliyyat vasitəsindən bayıra hər hansı əşya atılmasına” sözləri çıxarılsın.

9. 352-ci maddə üzrə:

9.1. 352.0, 352.0.1 – 352.0.12-ci maddələr müvafiq olaraq 352.1, 352.1.1 – 352.1.12-ci maddələr hesab edilsin və 352.1.2-ci maddənin dispozisiyasından “zibillənməsinə, yaxud” və “zibil və” sözləri çıxarılsın;

9.2. 352.1.3-cü maddəyə “aparılmasına” sözündən sonra “, yaxud məişət tullantılarının daşınması zamanı belə tullantıların və ya tullantıdan ayrılan mayenin ətrafa tökülməsinə” sözləri əlavə edilsin;

9.3. aşağıdakı məzmunda 352.2-ci maddə əlavə edilsin:

“352.2. Yollara və ya yol qurğularına tullantı və ya nəqliyyat vasitələrindən bayıra hər hansı əşya atılmasına görə –

fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər dörd min manat məbləğində cərimə edilir.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 22 oktyabr 2024-cü il

## “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413 (Cild I); 2024, № 5 (I kitab), maddə 486) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 86-cı maddənin birinci hissəsindən “müvafiq normativ-hüquqi aktlarla təchiz olunmasını,” sözləri çıxarılsın;

1.2. 93-3-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“Hakim vəzifəsinə namizədlər test imtahanı, yazılı imtahan və müsahibə əsasında seçilirlər. İmtahanlar və müsahibə Hakimlərin Seçki Komitəsi tərəfindən təşkil edilir.

İmtahanların və müsahibənin nəticələri Hakimlərin Seçki Komitəsi tərəfindən qiymətləndirilir. Hakimlərin Seçki Komitəsi bu işə özünün formalaşdırdığı ad hoc komissiyanı cəlb edə bilər.

Hakimlərin Seçki Komitəsi imtahanlardan və müsahibədən müvəffəqiyyətlə keçmiş namizədləri topladıqları ballara uyğun sıralayır.

Namizədlərin qiymətləndirilməsinin nəticələri Məhkəmə-Hüquq Şurasına təqdim olunur. Məhkəmə-Hüquq Şurası namizədlərin vakant hakim vəzifələrinin sayına müvafiq olaraq hakim vəzifəsinə təyin edilmələri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdimat verir.

Bu Qanunun 96-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış şəxslər 5 il müddətində hakim vəzifəsinə namizədlərin seçilməsi üçün imtahanlarda və müsahibədə iştirak edə bilməzlər.

Vakant hakim vəzifələrinə namizədlərin seçilməsi qaydaları Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilir.”;

1.3. 93-4-cü maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

“Hakim vəzifəsindən öz arzusu ilə azad olunaraq ədliyyə orqanlarında inzibati vəzifəyə və ya prokurorluq işçisi kimi prokurorluğa qulluğa qəbul edilmiş şəxslər Məhkəmə-Hüquq Şurasında müsahibədən keçirilməklə, bu

Qanunun 94-cü maddəsi ilə müəyyən edilmiş qaydada yenidən hakim vəzifəsinə təyin edilə bilərlər.”;

1.4. 96-cı maddənin birinci hissəsinin ikinci və üçüncü cümlələri aşağıdakı redaksiyada verilsin:

“Təyin olunduqdan dərhal sonra onlar peşə hazırlığı məqsədilə müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilmiş qaydada təlimə cəlb edilirlər. 3 illik müddətin sonunda hakimlərin fəaliyyəti qiymətləndirilir.”;

1.5. aşağıdakı məzmunda 96-1-ci maddə əlavə edilsin:

“Maddə 96-1. **Hakimlərin Qiymətləndirilməsi Komitəsi**

Hakimlərin Qiymətləndirilməsi Komitəsi Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və onların peşə hazırlığının artırılması üzrə ehtiyacların müəyyən edilməsi işinin aparılması məqsədilə formalaşdırılan orqandır.

Hakimlərin Qiymətləndirilməsi Komitəsinin fəaliyyəti bu Qanunla, “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanunu ilə, habelə Məhkəmə-Hüquq Şurasının qəbul etdiyi Hakimlərin Qiymətləndirilməsi Komitəsi haqqında Əsasnamə və hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin qaydaları və metodologiyası ilə tənzimlənir.”;

1.6. 112-ci maddənin onuncu hissəsi ləğv edilsin.

**Maddə 2.** “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 11-ci maddə üzrə:

2.1.1. 11.0.6-cı maddə ləğv edilsin;

2.1.2. aşağıdakı məzmunda 11.0.10-2-ci maddə əlavə edilsin:

“11.0.10-2. Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurası haqqında Əsasnaməni təsdiq edir;”;

2.2. 12-ci maddə üzrə:

2.2.1. 12.0.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“12.0.1. vakant hakim vəzifələrinə namizədlərin seçilməsi qaydalarını müəyyən etmək;”;

2.2.2. aşağıdakı məzmunda 12.0.2-1-ci maddə əlavə edilsin:

“12.0.2-1. Hakimlərin Qiymətləndirilməsi Komitəsi haqqında Əsasnaməni təsdiq etmək və Hakimlərin Qiymətləndirilməsi Komitəsini formalaşdırmaq;”;

2.2.3. 12.0.21-ci maddə aşağıdakı redaksiyada verilsin:

"12.0.21. ilk dəfə 3 il müddətinə təyin olunan hakimlərin müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində təlimə cəlb edilməsi qaydalarını müəyyən etmək;";

2.2.4. aşağıdakı məzmunda 12.0.26-2-ci maddə əlavə edilsin:

"12.0.26-2. məhkəmə hakimiyyəti orqanlarının və Məhkəmə-Hüquq Şurasının aparatlarında dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlərə baxılması üçün Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurasını yaratmaq;";

2.3. 13-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 13. **Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi**

13.1. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi ədalət mühakiməsinin keyfiyyətinin artırılması, məhkəmə sistemində idarəçiliyin təkmilləşdirilməsi, hakimlərin vəzifədə irəli çəkilməsində şəffaflığın təmin olunması, onların fəaliyyətinin stimullaşdırılması, tədris ehtiyaclarının müəyyənləşdirilməsi və fəaliyyətini davam etdirməyə uyğunluğunun müəyyən edilməsi məqsədilə aparılır.

13.2. Məhkəmə-Hüquq Şurası ilk dəfə 3 il müddətinə təyin edilmiş hakimlərin fəaliyyətini həmin müddətin sonunda, digər hakimlərin fəaliyyətini 5 ildə bir dəfədən az olmayaraq, məhkəmə sədrlərinin, sədr müavinlərinin və kollegiya sədrlərinin inzibati səlahiyyətlərin icrası üzrə fəaliyyətini isə həmçinin bu vəzifələr üzrə fəaliyyət müddətinin sonunda qiymətləndirir.

13.3. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyası Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən edilir.

13.4. Hakimlərin fəaliyyəti Hakimlərin Qiymətləndirilməsi Komitəsi tərəfindən toplanılan materiallar əsasında onların peşəkarlıq səviyyəsini müəyyən etməyə imkan verən kəmiyyət (məhkəmə fəaliyyəti üzrə iş yükü və onun öhdəsindən gəlmək bacarığı) və keyfiyyət (məhkəmə aktlarının və məhkəmə proseslərinin idarə edilməsi keyfiyyəti, kommunikasiya bacarıqları, hakim etikası və intizamlılıq) göstəriciləri üzrə qiymətləndirilir.

13.5. Məhkəmə sədrləri, sədr müavinləri və kollegiya sədrlərinin inzibati səlahiyyətlərin icrası üzrə fəaliyyəti Hakimlərin Qiymətləndirilməsi Komitəsi tərəfindən toplanılan materiallar əsasında onların idarəçilik bacarıqlarını müəyyən etməyə imkan verən meyarlar (müvafiq məhkəmədə əmək və icra intizamına riayət edilməsi və işin təşkili vəziyyəti (məhkəmə statistikasının və arxiv işinin aparılması, kargüzarlıq qaydalarına əməl olunması, məhkəmə aparatına rəhbərliyin təşkili, məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi vəziyyəti, vətəndaşların qəbulu,

müraciətlərə baxılması sahəsində məhkəmədə işin təşkili) üzrə qiymətləndirilir.

13.6. Hakimlərin fəaliyyəti məhkəmələrin fəaliyyətinin monitorinqinin nəticələri, Məhkəmə-Hüquq Şurası Aparatının, fəaliyyəti qiymətləndirilən hakimin, həmçinin Azərbaycan Respublikasının Ali Məhkəməsi, apellyasiya instansiyası və birinci instansiya məhkəmələri sədrlərinin məlumatları və "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mediasiyaya yönəldilən işlərin sayı nəzərə alınmaqla qiymətləndirilir. Hakimlərin fəaliyyəti qiymətləndirilərkən Məhkəmə-Hüquq Şurası üzvlərinin malik olduqları məlumatlardan istifadə oluna bilər.

13.7. Hakimlərin Qiymətləndirilməsi Komitəsi hakimin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə dair yekun rəy tərtib etməklə Məhkəmə-Hüquq Şurasına təqdim edir.

13.8. Hakimlərin Qiymətləndirilməsi Komitəsinin hakimin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə dair yekun rəyi Məhkəmə-Hüquq Şurasının üzvlərinə qiymətləndirmə ilə bağlı Məhkəmə Hüquq Şurasının iclasına ən geci 10 gün qalmış təqdim edilir.

13.9. Məhkəmə-Hüquq Şurası Hakimlərin Qiymətləndirilməsi Komitəsindən daxil olmuş yekun rəyi iclasında müzakirə edir və hakimin fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinin təsdiqinə dair qərar qəbul edir.

13.10. Hakimlərin Qiymətləndirilməsi Komitəsinin yekun rəyi hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyasında müəyyən edilmiş forma və məzmuna uyğun olmadıqda, habelə ziddiyyətli olduqda Məhkəmə-Hüquq Şurası əsaslandırılmış qərarı ilə yekun rəyi ona əlavə edilmiş materiallarla birlikdə geri qaytarır. Bu zaman Hakimlərin Qiymətləndirilməsi Komitəsi Məhkəmə-Hüquq Şurasının qərarını nəzərə almaqla, yekun rəydəki çatışmazlıqları aradan qaldırır və yenidən Məhkəmə-Hüquq Şurasına təqdim edir.

13.11. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsinə dair qərar qəbul edilərkən səsvermədə Məhkəmə-Hüquq Şurasının yalnız hakim üzvləri iştirak edirlər. Qiymətləndirmə ilə bağlı Məhkəmə Hüquq Şurasının iclası Şuranın səsvermədə iştirak etmək hüququ olan hakim üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Qərar Məhkəmə-Hüquq Şurasının səsvermədə iştirak edən hakim üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda Məhkəmə-Hüquq Şurasının iclasına sədrlik edənin səsi həlledici hesab olunur.

13.12. Hakimin fəaliyyətinin qiymətləndirilməsinin yekununda aşağıdakı nəticələrdən biri müəyyən olunur:

13.12.1. hakimin fəaliyyəti yüksək qiymətləndirilir;

13.12.2. hakimin fəaliyyəti qənaətbəxş qiymətləndirilir;

13.12.3. hakimin fəaliyyətində peşəkar çatışmazlıqlar var.

13.13. Bu Qanunun 13.12.1-ci maddəsində nəzərdə tutulmuş halda Məhkəmə-Hüquq Şurası tərəfindən hakimin vəzifədə irəli çəkilməsi imkanı nəzərdən keçirilir.

13.14. Bu Qanunun 13.12.2-ci maddəsində nəzərdə tutulmuş halda Məhkəmə-Hüquq Şurası tərəfindən hakimin tutduğu vəzifəyə uyğunluğu barədə qərar qəbul edilir.

13.15. Bu Qanunun 13.12.3-cü maddəsində nəzərdə tutulmuş halda, o cümlədən məhkəmələrin fəaliyyətinin monitorinqi nəticəsində maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlar aşkar edildikdə, hakimin (ilk dəfə hakim təyin edilmiş şəxslər istisna olmaqla) fəaliyyəti Məhkəmə-Hüquq Şurası tərəfindən müəyyən olunmuş vaxtda təkrar, lakin bir ildən tez və iki ildən gec olmamaqla qiymətləndirilir. Təkrar qiymətləndirmə zamanı hakimin fəaliyyətində yenidən peşəkar çatışmazlıqlar aşkar edildikdə, onun səlahiyyətlərinə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada vaxtından əvvəl xitam verilir.

13.16. Məhkəmə sədrləri, sədr müavinləri və kollegiya sədrlərinin inzibati səlahiyyətlərinin icrası üzrə fəaliyyətinin qiymətləndirilməsinin yekununda aşağıdakı nəticələrdən biri müəyyən olunur:

13.16.1. fəaliyyəti qənaətbəxş qiymətləndirilir;

13.16.2. fəaliyyətində peşəkar çatışmazlıqlar var.

13.17. Bu Qanunun 13.16.1-ci maddəsində nəzərdə tutulmuş halda Məhkəmə-Hüquq Şurası tərəfindən məhkəmə sədrinin, sədr müavininin və ya kollegiya sədrinin inzibati vəzifəyə təyinatı ilə bağlı təklifin verilməsi barədə qərar qəbul edilir.

13.18. Bu Qanunun 13.16.2-ci maddəsində nəzərdə tutulmuş halda Məhkəmə-Hüquq Şurası tərəfindən məhkəmə sədrinin, sədr müavininin və ya kollegiya sədrinin tutduğu vəzifədə işləməyə uyğun olmaması barədə qərar qəbul edilir.";

2.4. aşağıdakı məzmunda 13-1-ci maddə əlavə edilsin:

"Maddə 13-1. **Hakimlərin Qiymətləndirilməsi Komitəsi**

13-1.1. Məhkəmə-Hüquq Şurası hakimlərin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə 9 üzvdən ibarət aşağıdakı tərkibdə Hakimlərin Qiymətləndirilməsi Komitəsini formalaşdırır:

13-1.1.1. Azərbaycan Respublikası Ali Məhkəməsinin üç hakimi;

13-1.1.2. apellyasiya instansiyası məhkəmələrinin üç hakimi;

13-1.1.3. birinci instansiya məhkəmələrinin üç hakimi.

13-1.2. Məhkəmə-Hüquq Şurasının və ya Hakimlərin Seçki Komitəsinin üzvü eyni zamanda Hakimlərin Qiymətləndirilməsi Komitəsinin üzvü ola bilməz.

13-1.3. Hakimlərin Qiymətləndirilməsi Komitəsi üzvlərinin səlahiyyət müddəti beş ildir.

13-1.4. Hakimlərin Qiymətləndirilməsi Komitəsinin fəaliyyəti dövlət büdcəsindən Məhkəmə-Hüquq Şurasına ayrılmış vəsait hesabına Şura tərəfindən maliyyələşdirilir. Məhkəmə-Hüquq Şurasının üzvləri üçün bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş təminatlar Hakimlərin Qiymətləndirilməsi Komitəsinin üzvlərinə də şamil olunur.";

2.5. 14-cü maddə üzrə:

2.5.1. 14.1-ci maddənin birinci abzasında "nəfərlik tərkibdə aşağıdakı şəxslərdən" sözləri "üzvdən ibarət aşağıdakı tərkibdə" sözləri ilə əvəz edilsin;

2.5.2. aşağıdakı məzmunda 14.1-1-ci maddə əlavə edilsin:

"14.1-1. Hakimlərin Seçki Komitəsi üzvlərinin səlahiyyət müddəti beş ildir.";

2.5.3. 14.2-ci maddəyə "Şurasının" sözündən sonra "və ya Hakimlərin Qiymətləndirilməsi Komitəsinin" sözləri əlavə edilsin;

2.5.4. 14.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"14.3. Hakimlərin Seçki Komitəsi vakant hakim vəzifəsinə namizədlərin sənədlərini toplayır, bu şəxslər üçün şəffaf surətdə test imtahanı, yazılı imtahan və müsahibə təşkil edir.";

2.5.5. 14.4-cü maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Hakimlərin Seçki Komitəsinin fəaliyyəti dövlət büdcəsindən Məhkəmə-Hüquq Şurasına ayrılmış vəsait hesabına Şura tərəfindən maliyyələşdirilir.";

2.6. 15-ci maddə üzrə:

2.6.1. 15.1-ci maddənin birinci abzasının birinci cümləsində "ilkin uzunmüddətli tədris kurslarını müvəffəqiyyətlə bitirmiş və yekun müsahibədən" sözləri "test imtahanı, yazılı imtahan və müsahibədən müvəffəqiyyətlə" sözləri ilə əvəz edilsin;

2.6.2. 15.1.3-cü maddə aşağıdakı redaksiyada verilsin:
“15.1.3. test imtahanı, yazılı imtahan və müsahibənin nəticələri;”;
2.7. 16.0.3-cü maddə aşağıdakı redaksiyada verilsin:
“16.0.3. test imtahanı, yazılı imtahan və müsahibənin nəticələri;”;
2.8. 17.2-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:
“Səslər bərabər olduqda Məhkəmə-Hüquq Şurasının iclasına sədrlik edənin səsi həlledici hesab olunur.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 7 noyabr 2024-cü il

§

**“Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:
1.1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 93-3-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;
1.2. həmin Qanunun 93-3-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;
1.3. həmin Qanunun 96-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində “müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi”

dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur;

1.4. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 12.0.21-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744 (Cild I); 2024, № 5 (I kitab), maddə 519) 7 ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7.1-ci bənddə birinci halda "altıncı" sözü "dördüncü" sözü ilə əvəz edilsin və həmin bənddən "onuncu hissəsinin ikinci–dördüncü, altıncı və yeddinci abzaslarında," sözləri çıxarılsın;

3.2. aşağıdakı məzmunda 7.1-1-ci bənd əlavə edilsin:

"7.1-1. həmin Qanunun 93-3-cü maddəsinin dördüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

3.3. 7.9-cu bəndə "birinci cümləsində" sözlərindən sonra "və 96-cı maddəsinin birinci hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin.

4. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 17 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.5-ci bənddə "və Hakimlərin Seçki" sözləri ", Hakimlərin Seçki Komitəsinin və Hakimlərin Qiymətləndirilməsi" sözləri ilə əvəz edilsin;

4.2. 2-ci hissə üzrə:

4.2.1. 2.2-ci bənddən “, 13.3-cü” sözləri çıxarılsın;

4.2.2. aşağıdakı məzmunda 2.3 1 ci bənd əlavə edilsin:

“2.3-1. həmin Qanunun 12.0.21-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi” dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur;”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 16 dekabr 2024-cü il

§

**Azərbaycan Respublikası adından**
**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin**
**Q Ə R A R I**

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 sentyabr 2024-cü il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair**

20 sentyabr 2024-cü il Naxçıvan şəhəri

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi - Səadət Bəktaşi (sədr), Əsgər Novruzov, Əli Allahverdiyev (məruzəçi-hakim), Yusifəli Qurbanov, İlqar Mirzəyev, Müşfiq Həsənov, Fərman Abbasov, Vera Kuimova, Vüqar Quliyev, Sənan Qarayev və Səxavət Novruzovdan ibarət tərkibdə,

məhkəmə iclas katibi Vüsal Muradovun,

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əkrəm Hüseynzadə, sədr müavini Xatirə İbrahimli, üzvləri Şamxal Məmmədov və Şəhla Şirəliyevanın,

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mütəxəssisləri Həbib Rzayev, Rəhim Əsgərov, Nuraləm Qasımov, İsmayıl İsmayılovun iştirakları ilə,

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə uyğun olaraq konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2024-cü il sentyabrın 1-də keçirilmiş seçkilərin nəticələrinin yoxlanılmasına dair işə baxaraq hakim Əli Allahverdiyevin məruzəsini, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əkrəm Hüseynzadənin

çıxışını və Naxçıvan Muxtar Respublikası Statistika Komitəsinin mütəxəssisləri tərəfindən təqdim olunan rəyi dinləyib müzakirə edərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi

M Ü Ə Y Y Ə N E T D İ:

"Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 iyun tarixli 176 nömrəli Sərəncamına, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 1-ci bəndinə əsasən "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 iyun 2024-cü il tarixli Sərəncamı ilə 1 sentyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər təyin edilmiş və həmin gün seçkilər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə görə, seçkilərin nəticələrinin düzgünlüyü qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən yoxlanılır və təsdiq edilir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.2-ci maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyası səsvermə günündən ən geci 10 gün keçənədək dairə seçki komissiyalarının protokollarını (bu Qanuna uyğun olaraq onlara əlavə edilən sənədlərlə birlikdə) yoxlayıb, seçkilərin yekunlarının müəyyənləşdirilməsinə dair öz qərarını və Mərkəzi Seçki Komissiyasının protokolunu Ali Məhkəməyə təqdim edir.

Həmin Qanununun 93.3-cü maddəsinə əsasən, Ali Məhkəmə göstərilən sənədləri aldıqdan sonra 10 gün müddətində müvafiq mütəxəssisləri cəlb etməklə həmin sənədlərin bu Qanuna uyğunluğunu yoxlayır.

Qanunvericiliyin yuxarıda göstərilən tələblərinə müvafiq olaraq, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası 2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərin yekunlarının yoxlanılması və təsdiq edilməsi məsələsinə baxılması üçün səsvermənin ümumi yekunları haqqında 10 sentyabr 2024-cü il tarixli qərarı və protokolu, dairə seçki komissiyalarının protokollarını onlara əlavə edilmiş sənədlərlə birlikdə 11 sentyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə təqdim etmişdir.

2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərin ümumi yekunlarına dair Mərkəzi Seçki Komissiyasının protokoluna əsasən:

1. Seçki siyahılarına daxil edilmiş seçicilərin ümumi sayı – 288358 (iki yüz səksən səkkiz min üç yüz əlli səkkiz) ;
2. Səsvermədə iştirak edən seçicilərin sayı –111834 (bir yüz on bir min səkkiz yüz otuz dörd) ;
3. Dairə seçki komissiyalarının sayı – 45 (qırx beş);
4. Dairə seçki komissiyaları tərəfindən təqdim edilmiş protokolların sayı- 45 (qırx beş);
5. Mərkəzi Seçki Komissiyası protokolunun tərtib edilməsi üçün əsas götürülmüş dairə seçki komissiyaları protokollarının sayı -45 (qırx beş);
6. Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki dairələrinin sayı - 0 (sıfır);
7. Səsvermənin baş tutmadığı seçki məntəqələrinin sayı - 0 (sıfır);
8. Səsvermənin nəticələri etibarsız hesab edilmiş seçki məntəqələrinin sayı 0 (sıfır) olmuşdur.

Mərkəzi Seçki Komissiyasının səsvermənin ümumi yekunlarına dair 2024-cü il 10 sentyabr tarixli protokoluna əsasən 45 seçki dairəsi üzrə səsvermənin nəticələri etibarlı hesab edilmiş və həmin seçki dairələri üzrə deputat seçilmiş namizədlər müəyyən olunmuşdur.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.11-ci maddəsinə əsasən, protokollar seçki komissiyasının üzvləri tərəfindən tərtib edilir və seçki komissiyasının üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır.

Həmin Qanunun 23.3-cü maddəsinə görə Mərkəzi Seçki Komissiyasının qərarları açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyasının iclasında komissiya üzvlərinin 2/3 səs çoxluğu ilə qəbul edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə təqdim edilmiş səsvermənin ümumi yekunlarına dair Mərkəzi Seçki Komissiyasının 2024-cü il 10 sentyabr tarixli protokolundan göründüyü kimi, bu sənədi Mərkəzi Seçki Komissiyasının həlledici səs hüquqlu üzvlərindən 5-i imzalamışdır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.3-cü maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim edilmiş sənədlərin həmin Qanuna uyğunluğunun yoxlanılması üçün mütəxəssislər cəlb edilmiş, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyindən və Naxçıvan Muxtar Respublikası Prokurorluğundan seçki hüquqlarının müdafiəsi və

seçki qanunvericiliyinin pozulması ilə əlaqədar baxılmış şikayət və ərizələr haqqında məlumatlar tələb edilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mütəxəssisləri Həbib Rzayev, Rəhim Əsgərov, Nuraləm Qasımov, İsmayıl İsmayılovun rəyinə əsasən, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının yekun protokoluna əlavə edilmiş 45 dairə seçki komissiyasının protokolları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.2-ci və 90.3-cü maddələrinin tələblərinə tam cavab verir. Həmin protokollar Qanunun 90.2-ci maddəsinə müvafiq olaraq məntəqə seçki komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında tərtib edilmişdir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının yekun protokolu "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 91.2-ci maddəsinin tələblərinə uyğun tərtib edilmişdir.

Dairə seçki komissiyaları protokolların, Mərkəzi Seçki Komissiyası isə yekun protokolun hesablanmasını düzgün aparmışlar. Həmin sənədlərdə nöqsanlar, səhvlər, yolverilməz düzəlişlər və uyğunsuzluqlar aşkar edilməmişdir.

Mütəxəssislərin rəyinə əsasən 2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərə dair Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş 45 dairə seçki komissiyasının protokolları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.2, 87.11, 90.2, 90.3 və 91.2-ci maddələrinin tələblərinə tam uyğun tərtib edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun 12 sentyabr 2024-cü il tarixli 3-4-090/2-007402/2024 saylı və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 12 sentyabr 2024-cü il tarixli 3-13-43/2-13702/2024 saylı məktublarından aydın olur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə 2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərlə bağlı seçki hüquqlarının müdafiəsi və seçki qanunvericiliyinin pozulması ilə əlaqədar hər hansı müraciət daxil olmamışdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin icraatına seçki hüquqlarının müdafiəsi və seçki qanunvericiliyinin pozulması ilə əlaqədar hər hansı müraciət və ya şikayət daxil olmamışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi belə nəticəyə gəlir ki, 2024-cü il sentyabrın 1-də keçirilmiş Ali Məclisə seçkilərin ümumi yekunlarına dair Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 10 sentyabr tarixli protokolu və ona əlavə edilmiş sənədlər "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.2, 87.11, 90.2, 90.3 və 91.2-ci maddələrinin tələblərinə uyğun hesab edilməli və seçkilərin nəticələri təsdiq edilməlidir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsini və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci və 93.4-cü maddələrini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi

**Q Ə R A R A  A L D I:**

**1**. 2024-cü il sentyabrın-1-də keçirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin nəticələrinə dair Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 10 sentyabr tarixli protokolu və ona əlavə edilmiş sənədlər "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 87.2, 87.11, 90.2, 90.3 və 91.2-ci maddələrinin tələblərinə uyğun hesab edilsin.

**2.** Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 2024-cü il sentyabrın 1-də keçirilmiş

1 saylı Sədərək,
2 saylı Dəmirçi,
3 saylı Maxta,
4 saylı Yengicə,
5 saylı Çomaxtur,
6 saylı Çərçiboğan,
7 saylı Xanlıqlar,
8 saylı Düdəngə,
9 saylı Mahmudkənd,
10 saylı Şərur şəhər,
11 saylı Aşağı Yaycı,
12 saylı İbadulla,
13 saylı Püsyan,
14 saylı Qarabağlar,
15 saylı Qıvraq,

16 saylı Xok,
17 saylı Nehrəm,
18 saylı Nehrəm,
19 saylı Babək şəhər,
20 saylı Zeynəddin,
21 saylı Sirab,
22 saylı Şıxmahmud,
23 saylı Cəhri,
24 saylı Naxçıvan şəhər,
25 saylı Naxçıvan şəhər,
26 saylı Naxçıvan şəhər,
27 saylı Naxçıvan şəhər,
28 saylı Naxçıvan şəhər,
29 saylı Naxçıvan şəhər,
30 saylı Naxçıvan şəhər,
31 saylı Naxçıvan şəhər,
32 saylı Naxçıvan şəhər,
33 saylı Naxçıvan şəhər,
34 saylı Şahbuz şəhər,
35 saylı Kolanı,
36 saylı Badamlı qəsəbə,
37 saylı Culfa şəhər,
38 saylı Yaycı,
39 saylı Bənəniyar,
40 saylı Saltaq,
41 saylı Ordubad şəhər,
42 saylı Aşağı Əndəmic,
43 saylı Vənənd,
44 saylı Dəstə,
45 saylı Sabirkənd - seçki dairələri üzrə seçkilərin nəticələri bütövlükdə təsdiq edilsin.

**3**. Qərar elan olunduğu andan qüvvəyə minir.

**4**. Qərar “Şərq qapısı” qəzetində dərc edilsin.

**5**. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr** **Səadət Bəktaşi**



# MƏHKƏMƏ FƏALİYYƏTİ

***MÜLKİ KOLLEGİYADAN***

## Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2024-cü ilin birinci yarımilinin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2024-cü ilin birinci yarısında 1982 mülki işə baxılmaqla nəticə verilmişdir. 2023-cü ilin birinci yarısında isə həmin məhkəmələr tərəfindən 1856 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin birinci yarısında 6,79% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 93 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı 93 mülki işdən 82 işə apellyasiya qaydasında baxılaraq 42 qətnamə və 10 qərardad dəyişdirilmədən saxlanılmış, 6 qətnamə dəyişdirilmiş, 20 qətnamə və 4 qərardad isə ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 11 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 37 iş
- mənzil mübahisələri – 4 iş
- torpaq mübahisələri üzrə – 3 iş
- əmək mübahisələri üzrə – 3 iş
- mülkiyyət hüquqi ilə əlaqədar mübahisələr– 2 iş
- müqavilənin bağlanması, dəyişdirilməsi və ləğv edilməsi, etibarsız hesab edilməsi, məcburi bağlanması üzrə mübahisələr – 3 iş

- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 11 iş
- mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr – 1 iş
- vərəsəlik hüququ üzrə mübahisələr – 7 iş
- sair mülki işlər – 11 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2024-cü ilin birinci yarısında baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin birinci yarısında apellyasiya şikayətlərinin sayı 47,62% artmışdır. Belə ki, 2023-cü ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 63 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin birinci yarısında aşağı olmuşdur. Belə ki, 2024-cü ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 1982 qətnamə və qərardaddan 1,51%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2023-cü ilin birinci yarısında məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 1856 qətnamə və qərardaddan 0,86%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2023-cü ilin birinci yarısında 99,14% 2024-cü ilin birinci yarısında isə 98,49% təşkil etmişdir.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2024-cü ilin birinci yarısında apellyasiya qaydasında baxılan qərarların 36,59%-nin ləğv edilməsinə və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2023 və 2024-cü illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2023-cü ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Qətnamələr | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılma–mış saxlanılmış. | İşin icraatına xit. verilmişdir | | |
| Naxçıvan | 31 | 2 | 18 | 1 | 2 | 1 | | 1 | 6 |
| Babək | 6 | 1 | 1 | 1 | 1 | | | | 2 |
| Şərur | 13 | | 8 | 2 | 2 | | | 1 | |
| Şahbuz | 3 | | 1 | | | | 1 | | 1 |
| Kəngərli | 3 | | 1 | | | | | 1 | 1 |
| Culfa | 2 | | 2 | | | | | | |
| Ordubad | 4 | | 2 | | 1 | | | 1 | |
| Sədərək | 1 | | 1 | | | | | | |
| YEKUN | 63 | 3 | 34 | 4 | 6 | 1 | 1 | 4 | 10 |

2024-cü ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Qətnamələr | | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılma–mış saxlanılmış. | İş aidiyyəti üzrə göndərilmişdir | İşin icraatına xit. verilmişdir | | |
| Naxçıvan | 41 | 4 | 16 | 4 | 4 | 3 | | 2 | 1 | 7 |
| Babək | 2 | | 1 | | | | | | | 1 |
| Şərur | 24 | 3 | 13 | 2 | 2 | 1 | | 1 | 2 | |
| Şahbuz | 4 | | 2 | | 2 | | | | | |
| Kəngərli | 6 | | 3 | | | | 1 | 1 | | 1 |
| Culfa | 10 | 4 | 5 | | 1 | | | | | |
| Ordubad | 6 | | 2 | | 2 | | | | 1 | 1 |
| YEKUN | 93 | 11 | 42 | 6 | 11 | 4 | 1 | 4 | 4 | 10 |

Apellyasiya qaydasında 2024-cü ilin birinci yarısında ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Naxçıvan Şəhər Məhkəməsi, ən yüksək göstəriciyə isə Babək və Sədərək Rayon Məhkəmələri malikdir. Belə ki, 2024-cü ilin birinci yarısında *Naxçıvan Şəhər Məhkəməsində* çıxarılan 602 qərardan 14 qətnamə və 3 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,33%-i dəyişdirildiyinə və ya ləğv edildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 97,67% olduğu halda, *Babək və Sədərək Rayon Məhkəmələrinin* qətnamə və qərardadlarının sabitliyi üzrə göstərici 100% təşkil etmişdir. Çünki həmin dövrdə *Babək Rayon Məhkəməsi* tərəfindən çıxarılmış 318 qətnamə və qərardaddan ləğv ediləni və ya dəyişdiriləni olmamış, *Sədərək Rayon Məhkəməsi* tərəfindən çıxarılmış 61 qətnamə və qərardaddan isə apellyasiya şikayəti verilməmişdir.

*Culfa Rayon Məhkəməsi* tərəfindən 2024-cü ilin birinci yarısında çıxarılan 149 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,67%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,33% təşkil etmişdir.

*Kəngərli Rayon Məhkəməsi* tərəfindən 2024-cü ilin birinci yarısında çıxarılan 138 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,45%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,55% təşkil etmişdir.

*Şərur Rayon Məhkəməsi* tərəfindən 2024-cü ilin birinci yarısında çıxarılan 468 qətnamə və qərardaddan 6 qətnamə və 2 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,71%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,29% təşkil etmişdir.

*Şahbuz Rayon Məhkəməsi* tərəfindən 2024-cü ilin birinci yarısında çıxarılan 104 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,92%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,08% təşkil etmişdir.

*Ordubad Rayon Məhkəməsi* tərəfindən 2024-cü ilin birinci yarısında çıxarılan 142 qətnamə və qərardaddan 2 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,11%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,89% təşkil etmişdir.

2023-ci ilin birinci yarısında isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- *Culfa Rayon Məhkəməsi* – 100% (159 qətnamə və qərardaddan ləğv edilən və ya dəyişdirilən olmamışdır);
- *Sədərək Rayon Məhkəməsi* – 100% (53 qətnamə və qərardaddan ləğv edilən və ya dəyişdirilən olmamışdır);
- *Babək Rayon Məhkəməsi* – 99,26% (269 qətnamə və qərardaddan 2 qətnamə, yəni 0,74%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Kəngərli Rayon Məhkəməsi*– 99,26% (136 qətnamə və qərardaddan 1 qərardad, yəni 0,74%-i ləğv edilmişdir);
- *Şahbuz Rayon Məhkəməsi* – 99,19% (124 qətnamə və qərardaddan 1 qətnamə, yəni 0,81%-i ləğv edilmişdir);
- *Naxçıvan Şəhər Məhkəməsi* – 99,05% (524 qətnamə və qərardaddan 4 qətnamə və 1 qərardad, yəni 0,95%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Şərur Rayon Məhkəməsi* – 98,97% (487 qətnamə və qərardaddan 4 qətnamə və 1 qərardad, yəni 1,03%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Ordubad Rayon Məhkəməsi* – 98,08% (104 qətnamə və qərardaddan 1 qətnamə və 1 qərardad, yəni 1,92%-i ləğv edilmişdir)

Qətnamə və qərardadların sabitliyi üzrə 2023 və 2024-cü illərin birinci yarımilinə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Naxçıvan şəhər, Kəngərli, Şərur, Culfa, Şahbuz və Ordubad rayon məhkəmələrinin sabitlik göstəricisi 2023-cü ilin birinci yarısı ilə müqayisədə aşağı düşmüş, Babək Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitlik göstəricisi yüksəlmiş, Sədərək Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə dəyişməmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmələrin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, 2023-cü ilin birinci yarısında olduğu kimi 2024-cü ilin birinci yarısında da ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2023-cü ilin birinci yarısında 524 mülki işə, 2024-cü ilin birinci yarısında isə 602 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- *Şərur Rayon Məhkəməsi* – 468 iş (2023-cü ilin birinci yarısında 487 işə baxılmışdır);
- *Babək Rayon Məhkəməsi* – 318 iş (2023-cü ilin birinci yarısında 269 işə baxılmışdır);

- *Culfa Rayon Məhkəməsi* – 149 iş (2023-cü ilin birinci yarısında 159 işə baxılmışdır);
- *Ordubad Rayon Məhkəməsi* – 142 iş (2023-cü ilin birinci yarısında 104 işə baxılmışdır);
- *Kəngərli Rayon Məhkəməsi* – 138 iş (2023-cü ilin birinci yarısında 136 işə baxılmışdır);
- *Şahbuz Rayon Məhkəməsi* – 104 iş (2023-cü ilin birinci yarısında 124 işə baxılmışdır);
- *Sədərək Rayon Məhkəməsi* – 61 iş (2023-cü ilin birinci yarısında 53 işə baxılmışdır);

Göründüyü kimi 2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin birinci yarısında muxtar respublika məhkəmələrində mülki mühakimə icraatı üzrə iş yükü artmışdır.

*Məhkəmələr üzrə "nikahın ləğvi" tələbinə dair işlər üzrə isə statistik göstəricilər aşağıdakı kimi olmuşdur:*

**Naxçıvan Şəhər Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 63 iş qalıq qalmış, 2024-cü ilin birinci yarısında 114 mülki iş, ümumilikdə 177 mülki iş icraata daxil olmuşdur. 76 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 10 qərardad çıxarılmaqla 3 iş üzrə iddia baxılmamış saxlanılmış, 7 iş üzrə icraata xitam verilmişdir. 24 mülki iş üzrə ərizə geri qaytarılmış, 67 iş 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Şərur Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 67 iş qalıq qalmış, 2024-cü ilin birinci yarısında 93 mülki iş, ümumilikdə 160 mülki iş icraata daxil olmuşdur. 76 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 19 qərardad çıxarılmaqla 5 iş üzrə iddia baxılmamış saxlanılmış, 14 iş üzrə icraata xitam verilmişdir. 7 mülki iş üzrə ərizə geri qaytarılmış, 58 iş 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Babək Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 31 iş qalıq qalmış, 2024-cü ilin birinci yarısında 54 mülki iş, ümumilikdə 85 mülki iş icraata daxil olmuşdur. 42 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 4 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 3 iş üzrə icraata xitam verilmişdir. 5 mülki iş üzrə ərizə geri qaytarılmış, 34 iş 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Culfa Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 18 iş qalıq qalmış, 2024-cü ilin birinci yarısında 30 mülki iş, ümumilikdə 48 mülki iş icraata daxil olmuşdur. 17 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin

edilmişdir. Həmin kateqoriya işlər üzrə 6 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 5 iş üzrə icraata xitam verilmişdir. 25 iş 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Kəngərli Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 19 iş qalıq qalmış, 2024-cü ilin birinci yarısında 20 mülki iş, ümumilikdə 39 mülki iş icraata daxil olmuşdur. 24 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 1 qərardad çıxarılmaqla iş üzrə icraata xitam verilmişdir. 14 iş 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Ordubad Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 25 iş qalıq qalmış, 2024-cü ilin birinci yarısında 29 mülki iş, ümumilikdə 54 mülki iş icraata daxil olmuşdur. 34 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. 20 iş 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Şahbuz Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 15 iş qalıq qalmış, 2024-cü ilin birinci yarısında 20 mülki iş, ümumilikdə 35 mülki iş icraata daxil olmuşdur. 17 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 2 qərardad çıxarılmaqla 2 iş üzrə icraata xitam verilmişdir. 1 mülki iş üzrə ərizə geri qaytarılmış, 15 iş 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

**Sədərək Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 19 iş qalıq qalmış, 2024-cü ilin birinci yarısında 10 mülki iş, ümumilikdə 29 mülki iş icraata daxil olmuşdur. 12 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 4 qərardad çıxarılmaqla 2 iş üzrə iddia baxılmamış saxlanılmış, 2 iş üzrə icraata xitam verilmişdir. 13 iş 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

2024-cü ilin birinci yarısında məhkəmələr tərəfindən “nikahın ləğvi” tələbinə dair 34 iş (10,97%) üzrə icraata tərəflərin barışması səbəbindən xitam verilmişdir. Xitam verilmiş işlər üzrə məhkəmələrin göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Culfa Rayon Məhkəməsi - 21,74% (23 işdən 5 işin icraatına xitam verilib);
- Şərur Rayon Məhkəməsi - 14,74% (95 işdən 14 işin icraatına xitam verilib).
- Sədərək Rayon Məhkəməsi – 12,50% (16 işdən 2 işin icraatına xitam verilib).
- Şahbuz Rayon Məhkəməsi – 10,53 % (19 işdən 2 işin icraatına xitam verilib);

- Naxçıvan Şəhər Məhkəməsi - 8,14% ( 86 işdən 7 işin icraatına xitam verilib);
- Babək Rayon Məhkəməsi - 6,52% (46 işdən 3 işin icraatına xitam verilib);
- Kəngərli Rayon Məhkəməsi - 4% (25 işdən 1 işin icraatına xitam verilib);

2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 20 kassasiya şikayəti verilmiş, onlardan 14 kassasiya şikayətinə baxılaraq 9 qətnamə və 3 qərardad dəyişdirilmədən saxlanılmış, 2 qətnamə ləğv edilmiş, 6 qətnamədən verilmiş kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2024-cü ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 97,56 % təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

***KOMMERSİYA KOLLEGİYASINDAN***

## Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin birinci yarımili üzrə statistik məlumatların təhlili

2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında ümumilikdə 405 kommersiya mübahisələrinə dair iş olmuş, onlardan 120 iş 2023-cü ildən cari ilə qalıq qalmış, 285 iş isə 2024-cü ilin birinci yarısında daxil olmuşdur.

Kommersiya mübahisələri üzrə işlərdən 281 işə mahiyyəti üzrə baxılmaqla 260 iş üzrə iddia təmin edilmiş, 4 iş üzrə iddia rədd edilmiş, 2 iş üzrə iddia baxılmamış saxlanılmış, 15 işin icraatına xitam verilmişdir. 11 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 113 kommersiya mübahisələri üzrə iş isə 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına daxil olan kommersiya mübahisələrinə dair işlərin sayı 3 dəfə artmışdır. Belə ki, 2023-cü ilin birinci yarısında həmin məhkəmənin icraatına kommersiya mübahisələrinə dair 106 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Kommersiya Məhkəməsinə 2024-cü ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini vergi ödəmələri barədə mübahisələr üzrə (216 iş - yəni 53,33%) və hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisələr üzrə (161 iş - yəni 39,75%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş məhkəmə aktlarından 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasına 12 apellyasiya şikayəti verilmiş, onlardan 10 apellyasiya şikayətinə baxılaraq 6 qətnamə dəyişdirilmədən saxlanılmış, 2 qətnamə dəyişdirilmiş, 2 qətnamə ləğv edilmiş, 1 qətnamədən verilən apellyasiya şikayəti qeyri-mümkün hesab edilmiş, 1 qətnamədən verilən apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Müqayisə üçün qeyd edək ki, kommersiya mübahisələrinə dair işlər üzrə çıxarılan məhkəmə aktlarından verilmiş apellyasiya şikayətləri üzrə 2023-cü ilin birinci yarısında kollegiyada 9 apellyasiya şikayətinə baxılmışdır.

2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasında baxılan kommersiya mübahisələri üzrə qəbul olunmuş qətnamələrdən Azərbaycan Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasına 6 kassasiya şikayəti verilmiş, onlardan 3 kassasiya şikayətinə baxılaraq 3 qətnamə dəyişdirilmədən saxlanılmış, 3 qətnamədən verilmiş kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

***İNZİBATİ KOLLEGİYADAN***

## Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin birinci yarımili üzrə statistik məlumatların təhlili

2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatında ümumilikdə 1170 inzibati mübahisələrə dair iş olmuş, onlardan 638 iş 2023-cü ildən cari ilə qalıq qalmış, 532 iş isə 2024-cü ilin birinci yarısında daxil olmuşdur.

İnzibati mübahisələrə dair işlərdən 504 işə mahiyyəti üzrə baxılmaqla 177 iş üzrə iddia tələbi təmin edilmiş, 15 iş üzrə iddia tələbi rədd edilmiş, 312 işin icraatına xitam verilmişdir. 77 iş üzrə iddia mümkünsüz hesab edilmiş, 589 iş isə 2024-cü ilin ikinci yarısına qalıq qalmışdır.

2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatına daxil olan inzibati mübahisələrə dair işlərin sayı 65,96% artmışdır. Belə ki, 2023-cü ilin birinci yarısında həmin məhkəmənin icraatına inzibati mübahisələrə dair 705 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, İnzibati Məhkəməyə 2024-cü ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini öhdəliyin icrası haqqında (1080 iş - yəni 92,31%) və mübahisələndirmə haqqında (67 iş - yəni 5,73%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına 61 apellyasiya şikayəti verilmiş, onlardan 57 apellyasiya şikayətinə baxılaraq 26 qərar və 22 qərardad dəyişdirilmədən saxlanılmış, 6 qərar və 3 qərardad ləğv edilmiş, 1 qərar və 3 qərardaddan verilən apellyasiya şikayəti isə mümkün sayılmayaraq şikayətin qəbulundan imtina edilmişdir.

Müqayisə üçün qeyd edək ki, inzibati mübahisələrə dair işlər üzrə çıxarılan qərar və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2023-cü ilin birinci yarısında kollegiyada 20 apellyasiya şikayətinə baxılmışdır.

2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasında baxılan işlər üzrə qəbul olunmuş

qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına 45 kassasiya şikayəti verilmiş, onlardan 11 kassasiya şikayətinə baxılaraq 4 qərar və 3 qərardad dəyişdirilmədən saxlanılmış, 3 qərar və 1 qərardad ləğv edilmiş, 13 qərar və 8 qərardaddan verilən kassasiya şikayəti mümkün sayılmamış, 12 qərar və 1 qərardaddan verilmiş kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasının sabitlik göstəricisi 93,44% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈

## *CİNAYƏT KOLLEGİYASINDAN*

### Cinayət kollegiyasının 2024-cü ilin birinci yarımili üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2024-cü ilin birinci yarısında 179 nəfərin barəsində 166 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2023-cü ilin birinci yarısında həmin məhkəmələr tərəfindən 91 nəfərin barəsində 80 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2024-cü ilin birinci yarısında baxılmış 143 cinayət işi üzrə 154 nəfərin barəsində ittiham hökmü çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qruplaşdırdıqda 2023 və 2024-cü illərin birinci yarısına dair göstəricilər aşağıdakı kimi olmuşdur:






Diaqramlardan göründüyü kimi 2023-cü ilin birinci yarısından fərqli olaraq 2024-cü ilin birinci yarısında, hərbi xidmət əleyhinə, həyat və sağlamlıq əleyhinə, insan və vətəndaşın konstitusiya hüququ və azadlıqları əleyhinə, ictimai təhlükəsizlik əleyhinə, ədalət mühakiməsi əleyhinə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı və iqtisadi fəaliyyət sahəsində olan cinayətlər artmış, mülkiyyət əleyhinə, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər azalmış, idarəetmə qaydası əleyhinə olan cinayətlər üzrə göstəricilər isə dəyişməmişdir. 2023-cü ilin birinci yarısından fərqli olaraq 2024-cü ilin birinci yarısında ictimai mənəviyyat əleyhinə olan cinayətlərə dair işlər daxil olmamış, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə, dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan və sair cinayətlərə dair işlər daxil olmuşdur.

2023 və 2024-cü illərin birinci yarısında məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:







Diaqramlardan göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2023-cü ilin birinci yarısında məhkum edilmiş şəxslərin 44,44%-ni, 2024-cü ilin birinci yarısında isə məhkum olunanların 49,35%-ni təşkil etmiş, yəni 2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin birinci yarısında cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 4,91% artmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların həcmi isə əksinə 4,91% azalmışdır (ümumilikdə götürüldükdə).

2023 və 2024-cü illərin birinci yarısında baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:


2023-cü ilin birinci yarısı üzrə
8
9
17
21
11
12
12
12
7
8
4
8
10
10
2
2
6
6
3
3
Naxçıvan MR Ağır…
Naxçıvan MR Hərbi…
Naxçıvan Şəhər Məhkəməsi
Culfa Rayon Məhkəməsi
Şərur Rayon Məhkəməsi
Babək Rayon Məhkəməsi
Kəngərli Rayon Məhkəməsi
Ordubad Rayon Məhkəməsi
Sədərək Rayon Məhkəməsi
Şahbuz Rayon Məhkəməsi
2023-cü ilin birinci yarısı üzrə cinayət işinin sayı
2023-cü ilin birinci yarısı üzrə məhkumun sayı


2024-cü ilin birinci yarısı üzrə
22
29
37
38
31
32
10
10
20
21
12
13
17
17
5
7
8
8
4
4
Naxçıvan MR Ağır Cinayətlər…
Naxçıvan MR Hərbi Məhkəməsi
Naxçıvan Şəhər Məhkəməsi
Culfa Rayon Məhkəməsi
Şərur Rayon Məhkəməsi
Babək Rayon Məhkəməsi
Kəngərli Rayon Məhkəməsi
Ordubad Rayon Məhkəməsi
Sədərək Rayon Məhkəməsi
Şahbuz Rayon Məhkəməsi
2024-cü ilin birinci yarısı üzrə cinayət işinin sayı
2024-cü ilin birinci yarısı üzrə məhkumun sayı

Diaqramlardan göründüyü kimi 2023-cü ilin birinci yarısından fərqli olaraq 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində, Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsində, Naxçıvan şəhər, Şərur, Babək, Kəngərli, Ordubad, Sədərək və Şahbuz rayon məhkəmələrində baxılmış cinayət işlərinin sayı artmış, Culfa Rayon Məhkəməsində baxılmış cinayət işlərinin sayı azalmışdır.

2024-cü ilin birinci yarısında birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 34 hökm dəyişdirilmədən saxlanılmış, 15 hökm isə dəyişdirilmişdir.

Dəyişdirilən hökmlər muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2024-cü ilin birinci yarısında çıxardıqları bütün hökmlərin 10,49%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 89,51% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2023-cü ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin sabitlik göstəricisi 93,67% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2024-cü ilin birinci yarısında 281 işə (materiala) baxılmışdır. 2023-cü ilin birinci yarısı ilə müqayisədə bu göstərici 39,11% artmışdır (həmin dövrdə 202 işə baxılmışdır).

2024-cü ilin birinci yarısında xüsusi icraat qaydasında həll edilən işlərdən 175 iş (62,28%) telefon danışıqlarına qulaq asma və digər texniki vasitələrlə ötürülən məlumatların ələ keçirilməsi, 43 iş (15,30%) həbs qətimkan tədbirinin seçilməsi, 11 iş (3,91%) həbsdə saxlama müddətinin uzadılması, 3 iş (1,07%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 2 iş (0,71%) texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatların çıxarılması, 7 iş (2,49%) ev dustaqlığı qətimkan tədbirinin seçilməsi, 3 iş (1,07%) təqsirləndirilən şəxsin tibb müəssisəsinə yerləşdirilməsi, 10 iş (3,56%) maliyyə əməliyyatları barədə məlumatların ələ keçirilməsi, 2 iş (0,71%) cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılması, 2 iş (0,71%) tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi, 4 iş (1,42%) cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəzləşdirilməsi, 9 iş (3,20%) hökmün və məhkəmənin digər yekun qərarının icrasına dair başqa məsələlərin həll edilməsi və 10 iş (3,56%) digər məsələlər barədə olmuşdur.

Muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2023 və 2024-cü illərin birinci yarımilinin göstəriciləri aşağıdakı diaqramlarda təsvir edildiyi kimi olmuşdur:






Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələrində 2024-cü ilin birinci yarısında 497 nəfərin barəsində 497 inzibati xəta haqqında işə baxılmışdır. Bunlardan 11 nəfərin barəsində 11 iş səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət olmuşdur.

2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin birinci yarısında baxılan inzibati xəta haqqında işlərin sayı 4,05%, inzibati xəta törətmiş şəxslərin sayı isə 4,42% azalmışdır (2023-cü ilin birinci yarısında 520 nəfərin barəsində 518 inzibati xəta haqqında işə baxılmışdır).

2024-cü ilin birinci yarısında barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 168 nəfərə (33,80%) inzibati həbs, 153 nəfərə (30,78%) inzibati cərimə, 9 nəfərə (1,81%) inzibati xəta törətməkdə alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, 13 nəfərə (2,62%) inzibati xəta törətmiş şəxsin ona verilmiş xüsusi hüququn məhdudlaşdırılması, 4 nəfərə (0,80%) ictimai işlər növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 139 nəfərin (27,97%) barəsində 139 inzibati xəta haqqında işin icraatına isə xitam verilmişdir.

Səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət üzrə 3 qərar ləğv edilərək icraata xitam verilmiş, 8 qərar isə dəyişdirilmədən saxlanılmışdır.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2023 və 2024-cü illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı diaqramlarda təsvir olunduğu kimi olmuşdur:


2023-cü ilin birinci yarımili üzrə (işlərin və şəxslərin sayı)
Digər inzibati xətalar
71
71
Hərbi xidmət əleyhinə olan inzibati xətalar
24
24
İdarəçilik qaydaları əleyhinə olan inzibati…
193
193
İctimai qayda, ictimai təhlükəsizlik və…
87
85
Gömrük qaydaları əleyhinə olan inzibati…
31
31
Ticarət qaydaları əleyhinə olan inzibati…
4
4
Yol hərəkəti qaydaları əleyhinə olan…
17
17
Mülkiyyət əleyhinə olan inzibati xətalar
24
24
Əhalinin sanitariya-gigiyena və…
0
Ətraf mühitin mühafizəsi, təbiətdən…
0
Narkotik vasitələrin və psixotrop…
38
38
Siyasi, sosial və əmək hüquqları əleyhinə…
0
Sağlamlıq əleyhinə olan inzibati xətalar
23
29
2023-cü il üzrə şəxslərin sayı
2023-cü il üzrə işlərin sayı


2024-cü ilin birinci yarımili üzrə (şəxslərin və işlərin sayı)
Digər inzibati xətalar
26
26
Hərbi xidmət əleyhinə olan inzibati xətalar
44
44
İdarəçilik qaydaları əleyhinə olan inzibati…
115
115
İctimai qayda, ictimai təhlükəsizlik və…
36
36
Gömrük qaydaları əleyhinə olan inzibati…
12
12
Ticarət qaydaları əleyhinə olan inzibati…
2
2
Yol hərəkəti qaydaları əleyhinə olan…
15
15
Mülkiyyət əleyhinə olan inzibati xətalar
7
7
Əhalinin sanitariya-gigiyena və…
1
1
Ətraf mühitin mühafizəsi, təbiətdən…
1
1
Narkotik vasitələrin və psixotrop…
65
65
Siyasi, sosial və əmək hüquqları əleyhinə…
2
2
Sağlamlıq əleyhinə olan inzibati xətalar
21
21
2024-cü il üzrə şəxslərin sayı
2024-cü il üzrə işlərin sayı

Göründüyü kimi 2023-cü ilin birinci yarısı ilə müqayisədə 2024-cü ilin birinci yarısında muxtar respublika məhkəmələri tərəfindən baxılan narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 71,05%, hərbi xidmət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 83,33% artmış, sağlamlıq əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 27,59%, mülkiyyət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 70,83%, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 11,76%, ticarət qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 50%, gömrük qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 61,29%, ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 58,62%, idarəçilik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 40,41%, digər inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 63,38%, azalmışdır. Ötən yarımildən fərqli olaraq 2024-cü ilin birinci yarısında muxtar respublika məhkəmələrinin icraatına əhalinin sanitariya-gigiyena və sanitariya-epidemioloji salamatlığı qaydaları əleyhinə, siyasi, sosial və əmək hüquqları əleyhinə və ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2023 və 2024-cü illərin birinci yarımilinə dair göstəriciləri aşağıdakı diaqramlarda təsvir edildiyi kimi olmuşdur:




2024-cü ilin birinci yarısında muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 24 apellyasiya şikayəti verilmişdir.

Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsinin 2, Naxçıvan Şəhər Məhkəməsinin 4, Babək Rayon Məhkəməsinin 4, Şərur Rayon Məhkəməsinin 5, Culfa Rayon Məhkəməsinin 1, Sədərək Rayon Məhkəməsinin 1 qərarından və Naxçıvan Şəhər Məhkəməsinin 1 qərardadından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərardad və qərarlar dəyişdirilmədən saxlanılmış, Şərur Rayon Məhkəməsinin 1 qərarından verilmiş apellyasiya şikayətinə baxılaraq qərar dəyişdirilmiş, Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsinin 1, Naxçıvan Şəhər Məhkəməsinin 1 və Şərur Rayon Məhkəməsinin 3 qərarından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərarlar ləğv edilmişdir.

Beləliklə, muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2024-cü ilin birinci yarısında inzibati xətalar haqqında işlər üzrə çıxarılan qərarlardan 1,21% ləğv edildiyindən və dəyişdirildiyindən qərarların sabitlik göstəricisi 98,79% təşkil etmişdir.

Müqayisə üçün qeyd edək ki, 2023-cü ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış qərarların sabitlik göstəricisi 95,56% təşkil etmişdir.

2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılan işlər üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 18 kassasiya şikayəti verilmiş, onlardan 10 kassasiya şikayətinə baxılaraq qərarlar dəyişdirilmədən saxlanılmış, 1 kassasiya şikayəti geri qaytarılmış, 7 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında qəbul edilən qərarların sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈



# İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ

## *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı*

Bülletenin hər buraxılışında insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyini əks etdirən qərarların icmalı dərc olunur. Bu sayımızda da oxucuların tanış olması məqsədilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasının müvafiq maddələrinin pozuntusunun təsdiq edildiyi bir neçə qərarının icmalını təqdim edirik:

**1. Brumaresku (Brumărescu) Rumıniyaya qarşı [BP] – ərizə № 28342/95**

28.10.1999 tarixli qərar [Böyük Palata]

**1 saylı Protokolun 1-ci maddəsi**

**1 saylı Protokolun 1-ci maddəsinin birinci bəndi**
**Mülkiyyətdən məhrumetmə**

Milliləşdirilmiş mülkiyyət üzərində mülkiyyət hüquqlarının bərpası barədə məhkəmə qərarının Ali Məhkəmə tərəfindən ləğv edilməsi: *pozuntu baş verib.*

**Maddə 6**

**Mülki proses**

**6-cı maddənin 1-ci bəndi**

**Məhkəməyə müraciət etmək hüququ**

Məcburi qüvvəyə malik yekun məhkəmə qərarının Ali Məhkəmə tərəfindən ləğv edilməsi: *pozuntu baş verib.*

*Faktlar* – Bu iş 1926-cı ildə doğulmuş və Buxarestdə yaşayan Rumıniya vətəndaşı Dan Brumaresku tərəfindən Avropa İnsan Hüquqları Komissiyasına təqdim edilmiş şikayət ərizəsi ilə əlaqədardır. 1950-ci ildə ərizəçinin valideynlərinin Buxarestdəki evi kompensasiya ödənilmədən milliləşdirildi. 9 dekabr 1993-cü ildə ərizəçi tərəfindən başlanmış məhkəmə prosesində Buxarest Birinci İnstansiya Məhkəməsi qərara aldı ki, milliləşdirmə qanunsuz olub. Bu məsələdə apellyasiya icraatı nəzərdə

tutulmadığına görə qərar qüvvəyə mindi və dəyişdirilə bilməzdi, çünki qərardan ümumi qaydada şikayət verilməsi mümkün deyildi. 1994-cü ilin mayında ərizəçinin ev üzərində mülkiyyət hüququ bərpa edildi və bundan sonra o, evdə məskunlaşaraq mənzilə görə kirayə haqqı ödəməyi dayandırdı və evin torpaq vergisini ödəməyə başladı. Naməlum tarixdə Rumıniyanın Baş prokuroru 9 dekabr 1993-cü il tarixli qərarın ləğv edilməsi üçün vəsatət verdi. 1 mart 1995-ci ildə Ali Məhkəmə 9 dekabr 1993-cü il tarixli qərarı ləğv etdi və belə əsas gətirdi ki, ev qanunvericilik aktı əsasında dövlət mülkiyyətinə keçmişdi və həmin aktın necə tətbiq edildiyinə məhkəmələr tərəfindən yenidən baxıla bilməzdi, belə ki, bu məsələ icra və ya qanunvericilik orqanlarının səlahiyyətinə aid idi. Bunun ardınca vergi orqanları ərizəçiyə məlumat verdilər ki, 2 aprel 1996-cı ildən etibarən ev yenidən dövlət mülkiyyəti kateqoriyasına keçirilib. Naməlum tarixdə ərizəçi 112/1995 saylı qanun əsasında ev üzərində mülkiyyət hüququnun bərpası üçün şikayət ərizəsi verdi. 24 mart 1998-ci ildə bu qanunun tətbiqinə görə cavabdeh olan şura ərizəçinin kirayəyə götürdüyü mənzil üzərində mülkiyyət hüququnun ona qaytarılmalı olduğunu qərara aldı və evin qalan hissəsinə görə ona kompensasiya təyin etdi. Ərizəçi bu qərardan şikayət etdi və 21 aprel 1999-cu ildə onun şikayəti Buxarest Birinci İnstansiya Məhkəməsi tərəfindən rədd edildi.

Ərizəçi şikayət etdi ki, onun Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi ilə təmin edilən məhkəməyə müraciət hüququ pozulub, belə ki, Ali Məhkəmə onun mülkiyyət hüququnun bərpası barədə iddia tələbinə aşağı məhkəmələrin baxmaq səlahiyyətinə malik olmadıqları barədə qərar çıxarıb. O həmçinin şikayət etdi ki, Ali Məhkəmənin qərarı onu 1 saylı Protokolun 1-ci maddəsinə zidd olaraq mülkiyyətindən məhrum edib.

*Hüquqi məsələlər* – Hökumətin ilkin etirazları:

a) *Ərizəçi "qurban" idimi?* – Məhkəmə Hökumətin bu arqumentini rədd etdi ki, şikayətin qəbuledilənliyinə dair 22 may 1997-ci il tarixli qərardan sonra baş vermiş yeni hallar o deməkdir ki, ərizəçi daha Konvensiyanın 34-cü maddəsində nəzərdə tutulmuş "qurban" deyil. O bir daha bildirdi ki, dövlət orqanları Konvensiyanın pozuntusunu birmənalı şəkildə və ya mahiyyət etibarı ilə etiraf etməyiblərsə və sonra onu kompensasiya etməyiblərsə, o halda ərizəçinin xeyrinə qəbul edilmiş qərar və ya tədbir prinsipcə onun qurban statusundan məhrum olması üçün yetərli deyil. Məhkəmə qeyd etdi ki, hazırda ərizəçi 1 mart 1995-ci ildə olduğu durumdadır, çünki Ali Məhkəmənin qərarının səbəb olduğu Konvensiyanın hər hansı pozuntusunu birmənalı şəkildə və ya mahiyyət etibarı ilə etiraf

edən və kompensasiya edən yekun qərar yoxdur. Buna görə də Məhkəmə hesab etdi ki, ərizəçi hələ də həmin məhkəmənin qərarının təsirinə məruz qalmaqdadır və özünün də iddia etdiyi kimi, bu qərardan irəli gələn Konvensiya pozuntularının qurbanı olaraq qalır.

b) *Daxili hüquqi müdafiə vasitələri tükəndirilmişdimi?* – Məhkəmə ərizəçinin daxili hüquqi müdafiə vasitələrini tükəndirmədiyi barədə Hökumətin arqumentini də eynilə rədd etdi, həmin arqumentə əsasən ərizəçi mülkiyyət hüququnun bərpası üçün yeni iddia qaldırmamışdı, halbuki onun sərəncamında bu imkan vardı. Məhkəmənin rəyi ondan ibarət oldu ki, mülkiyyət hüququnun bərpasına dair işi həll etmiş yekun məhkəmə qərarının ləğv edilməsinə görə məsuliyyət daşıyan Hökumət sonradan belə bir arqumentə istinad edə bilməz ki, ərizəçi mülkiyyət hüququnun bərpası üçün yeni iddia qaldırmadığına görə daxili hüquqi müdafiə vasitələrini tükəndirməyib, belə ki, bu iddia tələbinin nə ilə nəticələnəcəyi qeyri-müəyyən idi, həm də *"res judicata"* (bir dəfə həll olunmuş işə yenidən baxıla bilməz) prinsipi nəzərə alınmalıdır.

Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi: Məhkəmə bir daha bildirdi ki, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi ilə təmin edilən ədalətli məhkəmə araşdırması hüququ Konvensiyanın preambulasının işığında şərh edilməlidir, orada bəyan edilir ki, hüququn aliliyi iştirakçı dövlətlərin ümumi irsinin bir hissəsidir və onun da bir aspektini hüquqi müəyyənlik prinsipi təşkil edir. Məhkəmə qeyd etdi ki, araşdırılan dövrdə Rumıniyanın Baş prokuroru Mülki Prosessual Məcəllənin 330-cu maddəsinə əsasən istənilən vaxt yekun məhkəmə qərarının ləğv edilməsi üçün müraciət edə bilərdi. Bu səlahiyyətindən istifadə edərək onun təqdim etdiyi vəsatəti təmin etməklə Ali Məhkəmə dəyişdirilməsi yolverilməz olan, *"res judicata"* prinsipinin şamil olunduğu və üstəlik artıq icra edilmiş olan məhkəmə qərarı ilə yekunlaşmış bütün məhkəmə prosesini heçə endirmiş oldu. 330-cu maddənin müddəalarını bu yolla tətbiq etməklə Ali Məhkəmə hüquqi müəyyənlik prinsipini pozmuş oldu. İşin faktlarına əsaslansaq, bu addım ərizəçinin Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş ədalətli məhkəmə araşdırması hüququnu pozmuşdu. Bundan əlavə, Məhkəmə qeyd etdi ki, Ali Məhkəmənin qərarının məntiqi ondan ibarət idi ki, məhkəmələr mülkiyyət hüququnun bərpası üçün qaldırılan bu kimi işlərdə mülki mübahisələri daha həll etmək səlahiyyətinə malik deyillər. O hesab etdi ki, bu cür istisnaedici qərarın özü Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi ilə təmin edilən məhkəməyə müraciət hüququna ziddir və beləliklə, bu baxımdan da 6-cı maddənin 1-ci bəndinin pozuntusu baş verib.

***Nəticə***: pozuntu baş verib (yekdilliklə).

1 saylı Protokolun 1-ci maddəsi: Avropa Məhkəməsindəki icraatda tərəflər arasında bu məsələdə fikir ayrılığı yox idi ki, ərizəçinin mülkiyyət hüququnu təsdiq etmiş 9 dekabr 1993-cü il tarixli qərar 1 saylı Protokolun 1-ci maddəsinin məqsədləri üçün "mülkiyyət" təşkil edirdi, Ali Məhkəmənin qərarı isə ərizəçinin həmin maddə ilə təmin edilən mülkiyyət hüququna müdaxilə təşkil edirdi. Məhkəmə hesab etdi ki, bu müdaxilə 1 saylı Protokolun 1-ci maddəsinin birinci bəndinin ikinci cümləsinin tətbiq dairəsinə düşür. Ali Məhkəmənin qərarının nəticəsi ondan ibarət idi ki, ərizəçi birinci instansiya məhkəməsində onun xeyrinə çıxarılmış yekun qərarla ev üzərində əldə etdiyi mülkiyyət hüquqlarından məhrum edilmişdi. Bu maddədə yer alan ikinci normaya əsasən mülkiyyətin müsadirəsinə yalnız o halda haqq qazandırmaq olar ki, bu müsadirənin, digər məsələlərlə yanaşı, "cəmiyyətin maraqları naminə" və "qanunla nəzərdə tutulmuş şərtlərlə" həyata keçirildiyi sübuta yetirilmiş olsun. Bundan əlavə, mülkiyyətə hər hansı müdaxilə mütənasiblik tələbinə də cavab verməlidir. Məhkəmə qeyd etdi ki, Ali Məhkəmənin qərarı nəticəsində yaranmış vəziyyət heç nə ilə əsaslandırılmayıb. Konkret olaraq, mülkiyyətdən məhrumetmənin "cəmiyyətin maraqları naminə" həyata keçirildiyinə dair heç bir inandırıcı arqument irəli sürülməyib. Bundan başqa, qərar çıxarılan tarixdə ərizəçi mülkiyyətin real dəyərini əks etdirən kompensasiya ödənilmədən dörd ildən artıq müddət ərzində mülkiyyət hüququndan məhrum edilmiş və mülkiyyət hüququnun bərpasına yönələn səyləri uğursuz olmuşdu. Məhkəmə müəyyən etdi ki, belə olan halda hətta mülkiyyətin müsadirəsinin cəmiyyətin müəyyən maraqlarına xidmət etdiyini fərz etsək belə, zəruri balans gözlənilməmişdi, belə ki, ərizəçinin üzərinə həddən artıq ağır fərdi yük qoyulmuşdu və o hələ də bu yükün altındadır. Müvafiq olaraq, 1 saylı Protokolun 1-ci maddəsinin pozuntusu baş verib və bu pozuntu davam edir.

***Nəticə***: pozuntu baş verib (yekdilliklə).

Konvensiyanın 41-ci maddəsi: Məhkəmə hesab etdi ki, 41-ci maddənin tətbiqi məsələsi hələ həll edilmək üçün hazır deyil və buna görə də bu məsələyə baxılmasını təxirə saldı və bu zaman o, cavabdeh dövlətlə ərizəçi arasında razılaşma əldə edilməsinin mümkünlüyünü nəzərə aldı.

≈ ≈ ≈

**2. Bottatsi (Bottazzi) İtaliyaya qarşı [BP] – ərizə № 34884/97**

28.7.1999 tarixli qərar [Böyük Palata]

**Maddə 6**

**Mülki proses**

**6-cı maddənin 1-ci bəndi**

**Ağlabatan müddət**

İnzibati praktika

Mülki prosesin müddəti: *pozuntu baş verib.*

Bu icmal həmçinin Böyük Palatanın aşağıdakı işlər üzrə 28 iyul 1999-cu il tarixli qərarlarını əhatə edir: *A.P. İtaliyaya qarşı* (ərizə № 35265/97); *Di Mauro İtaliyaya qarşı* (ərizə № 34256/96); *A.L.M. İtaliyaya qarşı* (ərizə № 35284/97); və *Ferrari İtaliyaya qarşı* (ərizə № 33440/96).

*Faktlar*: Ərizəçilər hamısı İtaliya vətəndaşıdırlar. Cənab Emilio Bottatsi 1916-cı ildə anadan olub və Genuyada yaşayır. Cənab A.P. 1952-ci ildə anadan olub və Byautso di Kodroypoda (Udine) yaşayır. Cənab Sebastyano Di Mauro 1937-ci ildə anadan olub və Terraçinada yaşayır. Cənab A.L.M. 1939-cu ildə anadan olub və Milanda yaşayır. Xanım Marsella Ferrari 1911-ci ildə anadan olub və Romada yaşayır.

*Bottatsinin işi*: Bu iş ərizəçiyə müharibə iştirakçısı pensiyasının ödənişinin dayandırılması barədə qərara səhhətinin pisləşməsi ilə əlaqədar olaraq yenidən baxılması üçün ərizəçinin verdiyi vəsatətlə bağlı idi. İşin icraatı 4 aprel 1991-ci ildə başlanmış və 2 dekabr 1997-ci ildə başa çatmışdı, həmin tarixdə onun vəsatətinin rədd edilməsi barədə Audit Məhkəməsinin qərarı saxlanılmaq üçün məhkəmə katibliyinə verilmişdi.

*A.P.-nin işi*: Bu iş biznes müqaviləsi əsasında göstərilmiş xidmətlərə görə ərizəçiyə ödəniş etmək barədə M.L.D.-yə qarşı qəbul edilmiş məhkəmə qərarı ilə əlaqədar idi. M.L.D. 19 fevral 1990-cı ildə bu qərardan şikayət etmiş və 28 noyabr 1995-ci ildə iş üzrə yekun qərar çıxarılmışdı, həmin tarixdə ərizəçinin iddia tələblərinin qismən təmin edilməsi barədə Udine Rayon Məhkəməsinin qərarı saxlanılmaq üçün məhkəmə katibliyinə verilmişdi.

*Di Mauronun işi*: Bu iş ərizəçinin kirayəyə götürdüyü evin sahibinin kirayə müqaviləsinə xitam vermək məqsədi ilə qaldırdığı mülki iddia ilə əlaqədar idi. Həmin işin icraatı 5 mart 1984-cü ildə başlanmış və tərəflərin heç biri icraatın davam etdirilməsi üçün apellyasiya məhkəməsinə müraciət etmədiyinə görə 27 dekabr 1997-ci ildə başa çatmışdı.

*A.L.M.-in işi*: Bu iş 250.575.000 italyan lirəsinin ona ödənilməsi üçün ərizəçi tərəfindən bir şirkətə qarşı qaldırılmış məhkəmə işi ilə əlaqədar idi, o iddia edirdi ki, şirkətin ona bu qədər borcu var. İşin icraatı 11 sentyabr 1992-ci ildə başlamış və 14 mart 1996-cı ildə başa çatmışdı, həmin tarixdə ərizəçinin iddia tələbinin rədd edilməsi barədə Milan Rayon Məhkəməsinin qərarı saxlanılmaq üçün məhkəmə katibliyinə verilmişdi.

*Ferrarinin işi*: Bu iş ərizəçinin Roma tibb klinikasına qarşı qaldırdığı iddia ilə əlaqədar idi, iddia ərizəsində o tələb etmişdi ki, ailə başçısını itirməyə görə verilən pensiyanın ödənilməsinin altı ay gecikdirilməsi ilə əlaqədar olaraq həmin məbləğ inflyasiya əmsalı əsasında indeksləşdirilsin və bu məbləğin üzərinə qanunla müəyyən edilmiş faiz əlavə olunsun. İşin icraatı 31 yanvar 1990-cı ildə başlanmış və 6 avqust 1998-ci ildə başa çatmışdı, həmin tarixdə ərizəçinin iddia tələblərinin qismən təmin edilməsi barədə Roma Rayon Məhkəməsinin qərarı saxlanılmaq üçün məhkəmə katibliyinə verilmişdi.

Ərizəçilər şikayət etdilər ki, işlərinə İnsan hüquqları haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndinin tələb etdiyi "ağlabatan müddət" ərzində baxılmayıb. Bu beş ərizəçi qaldırdıqları müvafiq mülki işlərin icraatının həddən artıq uzun sürməsi ilə əlaqədar olaraq İnsan hüquqları haqında Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndi ilə təmin edilən hüququn, yəni ağlabatan müddətdə işlərinə ədalətli baxılması hüququnun pozulmasından şikayət etdilər.

*Hüquqi məsələlər*:

I. *Bottatsi, A.P., Di Mauro və Ferrarinin işləri*

Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi: Bu dörd işin hər birində Məhkəmə ilk növbədə qeyd etdi ki, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi iştirakçı dövlətlərin üzərinə öz məhkəmə sistemlərini bu bəndin tələblərinə cavab verən formada təşkil etmək öhdəliyini qoyur. Həmin bəndin məqsədi ədalət mühakiməsinin ləngimələrə yol verilmədən həyata keçirilməsinin vacibliyini bir daha təsdiq etməkdir, belə ki, ləngimələr ədalət mühakiməsinin səmərəliliyinə və ədalət mühakiməsinə olan inama xələl gətirə bilər. Bundan başqa, Məhkəmə qeyd etdi ki, Avropa Şurasının Nazirlər Komitəsi 11 iyul 1997-ci il tarixli DH (97) 336 saylı qətnaməsində ("İtaliyada mülki proseslərin müddəti: ümumi xarakterli əlavə tədbirlər") bildirib ki, "ədalət mühakiməsinin həyata keçirilməsinin həddən artıq ləngidilməsi xüsusən qanunun aliliyi prinsipinə hörmət edilməsinə mühüm təhlükə təşkil edir". Məhkəmə daha sonra diqqəti belə bir fakta cəlb etdi

ki, *Kapuano İtaliyaya qarşı* məhkəmə işi üzrə qərarın qəbul edildiyi 25 iyun 1987-ci il tarixindən bəri onun 65 iş üzrə çıxardığı qərarlarda müəyyən edilib ki, İtaliyanın müxtəlif regionlarının mülki məhkəmələrində işlərin icraatının müddətinin ağlabatan "müddət" həddini aşması səbəbindən 6-cı maddənin 1-ci bəndi pozulub. Eynilə, Konvensiyanın keçmiş 31 və 32-ci maddələrinə uyğun olaraq Komissiya tərəfindən qəbul edilmiş 1.400-dən artıq məruzə eyni səbəbdən Konvensiyanın 6-cı maddəsinin İtaliya tərəfindən pozulduğu barədə Nazirlər Komitəsinin qətnamələr qəbul etməsi ilə nəticələnib. Bu pozuntuların tez-tez müəyyən edilməsi göstərir ki, analoji pozuntular təkrar-təkrar baş verir və onların sayı o qədər çoxdur ki, onları ayrı-ayrı təsadüfi hallar hesab etmək olmaz. Belə pozuntular hələ də həllini tapmayan davamedici situasiyanı əks etdirir, elə bir situasiyanı ki, prosesdəki tərəflərin sərəncamında ona qarşı heç bir hüquqi müdafiə vasitəsi yoxdur. Müvafiq olaraq, pozuntuların üst-üstə yığılması Konvensiyaya zidd olan praktika təşkil edir. Məhkəmə hazırkı işin faktlarını tərəflərin təqdim etdikləri məlumatların və yuxarıda göstərilən praktikanın işığında araşdırdı. Bu məsələyə dair özünün presedent hüququnu nəzərə alaraq, Məhkəmə hesab etdi ki, bu işlərdə sözügedən məhkəmə proseslərinin müddətləri (*Bottatsinin işində* altı il səkkiz aya yaxın; *A.P.-nin işində* beş il doqquz aydan artıq; *Di Mauronun işində* təxminən on üç il doqquz ay; və *Ferrarinin işində* səkkiz il altı aydan artıq) həddən artıq uzun olub və "ağlabatan müddət" tələbinə cavab verməyib. Müvafiq olaraq, 6-cı maddənin 1-ci bəndi pozulub.

***Nəticə*:** pozuntu baş verib (yekdilliklə, *Di Mauronun işində* isə iki səsə qarşı on beş səslə).

Konvensiyanın 41-ci maddəsi: Məhkəmə ədalətli təzminat qismində aşağıdakı məbləğləri təyin etdi:

*Bottatsinin işi*: maddi ziyana görə 15.000.000 italyan lirəsi, məhkəmə xərclərinə və digər məsrəflərə görə 7.000.000 lirə;

*A.P.-nin işi*: maddi və mənəvi ziyana görə 30.000.000 lirə, məhkəmə xərclərinə və digər məsrəflərə görə 8.000.000 lirə;

*Di Mauronun işi*: mənəvi ziyana görə 5.000.000 lirə, məhkəmə xərclərinə və digər məsrəflərə görə 10.000.000 lirə;

*Ferrarinin işi*: mənəvi ziyana görə 15.000.000 lirə, məhkəmə xərclərinə və digər məsrəflərə görə 11.275.488 lirə.

*II. A.L.M.-in işi:* Məhkəmə qeyd etdi ki, işin Məhkəmənin icraatına verilməsi barədə Hökumətin 7 sentyabr 1998-ci il tarixli ərizəsi sentyabrın 8-də Katibliyə çatıb, halbuki Komissiyanın məruzəsi 13 may 1998-ci ildə Nazirlər Komitəsinə göndərilmişdi. Hökumət iddia etdi ki, o ərizəni təqdim etdiyi zaman keçmiş 32-ci maddədə nəzərdə tutulmuş üç aylıq müddət başa çatmamışdı. Onun bildirdiyinə görə, 7 oktyabr 1969-cu il tarixli qanunda (onun iddia etdiyinə görə həm də digər Avropa ölkələrinin qanunvericiliyində) yer alan, məhkəmələrdə məzuniyyətlər zamanı "ümumi və inzibati məhkəmələrdə" prosessual müddətlərin axımının dayandırılmasını nəzərdə tutan norma Avropa Məhkəməsindəki icraata şamil olunan "ümumi" prinsipdir. Ərizəçi Məhkəmədən xahiş etdi ki, Hökumətin ərizəsini vaxtından gec verildiyinə görə rədd etsin. Məhkəmə qeyd etdi ki, Konvensiyanın keçmiş 47-ci maddəsinə əsasən ərizə keçmiş 32-ci maddədə müəyyən edilmiş üç aylıq müddət ərzində verilməlidir. Nə Konvensiyanın, nə də Məhkəmə Reqlamentinin həmin ərizə təqdim edildiyi vaxtda qüvvədə olan müddəalarının heç birində bu tələbdən azad edilmə nəzərdə tutulmamışdı. Bundan başqa, hətta fərz etsək ki, "məhkəmələrdə məzuniyyətlər" zamanı prosessual müddətlərin axımının dayandırılması barədə qayda İtaliyadan başqa digər ölkələrin də qanunvericiliyində mövcud idi, Məhkəmə hesab edir ki, Hökumət Konvensiyanın keçmiş 32-ci maddəsindən irəli gələn, hamılıqla qəbul edilmiş olan belə bir hüquq prinsipinin mövcudluğunu sübuta yetirə bilməyib ki, məhkəmələrdə məzuniyyətlər zamanı prosessual müddətlərin axımı dayandırılır. Beləliklə, Hökumət ona verilmiş olan müddəti ötürüb. Bundan başqa, müddətin axımının dayandırılmasına əsas verən, yaxud müddətin axımının yenidən başlanmasına haqq qazandıran xüsusi hal işin materiallarında müəyyən edilməyib. Müvafiq olaraq, işin Məhkəmənin icraatına verilməsi barədə Hökumətin ərizəsi vaxtından gec təqdim edildiyinə görə qəbul oluna bilməz.

***Nəticə*:** Hökumətin ərizəsinə baxılması Məhkəmənin yurisdiksiyası xaricindədir – ərizənin verilmə müddəti ötdüyünə görə (yekdilliklə).

≈≈≈

**3. Stanev Bolqarıstana qarşı [Böyük Palata] (Stanev v. Bulgaria [GC]), ərizə № 36760/06**

17.01.2012-ci il tarixli qərar [Böyük Palata]

**Maddə 6**

*Mülki proses*

**6-cı maddənin 1-ci bəndi**

*Məhkəməyə müraciət imkanı*

Hüquq qabiliyyətinin bərpa edilməsini istəyən şəxsin məhkəməyə birbaşa müraciət imkanının olmaması: *pozuntu baş verib.*

**Maddə 3**

*Ləyaqəti alçaldan rəftar*

Psixi çatışmazlığı olan şəxslər üçün pansionatda yaşayış şəraiti: *pozuntu baş verib.*

**Maddə 5**

**5-ci maddənin 1-ci bəndi**

*Azadlıqdan məhrumetmə*

Qanunla nəzərdə tutulmuş qayda

Ərizəçinin psixi çatışmazlığı olan şəxslər üçün pansionata yerləşdirilməsi: *pozuntu baş verib.*

**5-ci maddənin 4-cü bəndi**

*Məhkəmə prosesinin keçirilməsi*

Psixi çatışmazlığı olan şəxslər üçün pansionata yerləşdirilmənin qanuniliyi məsələsindən şikayət etməkdən ötrü hüquqi müdafiə vasitələrinin olmaması: *pozuntu baş verib.*

**Maddə 13**

*Səmərəli hüquqi müdafiə vasitəsi*

Psixi çatışmazlığı olan şəxslər üçün pansionatda pis yaşayış şəraitinə görə kompensasiyaya nail olmaqdan ötrü hüquqi müdafiə vasitələrinin olmaması: *pozuntu baş verib.*

**Maddə 46**

**46-cı maddənin 2-ci bəndi**

*Məhkəmə qərarının icrası*

Ümumi xarakterli tədbirlər

Cavabdeh dövlətdən tələb edildi ki, hüquq qabiliyyətinin bərpa edilməsini istəyən şəxslərin məhkəməyə səmərəli şəkildə müraciət imkanını təmin etmək üçün ümumi tədbirlər görsün.

*Faktlar* – 2000-ci ildə ərizəçinin qohumlarından ikisinin ərizəsi əsasında məhkəmə onu qismən hüquq qabiliyyəti olmayan şəxs elan etdi və belə əsas

gətirdi ki, o, şizofreniyadan əziyyət çəkir. 2002-ci ildə ərizəçi öz iradəsi əleyhinə qismən qəyyumluğa verildi və ucqar dağlıq ərazidəki kəndin yaxınlığında yerləşən, psixi çatışmazlığı olan şəxslər üçün nəzərdə tutulan pansionata qəbul edildi. 2003-cü və 2004-cü illərdə buraya rəsmi səfərlərindən sonra işgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (*CPT*) bu qənaətə gəldi ki, pansionatda saxlanma şəraitini qeyri-insani və ləyaqəti alçaldan rəftara bərabər hesab etmək olar. 2004-cü və 2005-ci illərdə ərizəçi vəkilinin vasitəsilə prokurordan və merdən xahiş etdi ki, qəyyumluqdan azad edilməsi üçün məhkəmədə iş qaldırsınlar, amma vəsatətləri rədd edildi. Eynilə onun qəyyumu da məhkəmədə bu barədə iş qaldırmaqdan imtina edərək hesab etdi ki, pansionat onun yaşayışı üçün ən münasib yerdir, çünki onun müstəqil yaşamaq üçün vəsaiti yoxdur. 2006-cı ildə vəkilinin təşəbbüsü ilə ərizəçi müstəqil psixiatr tərəfindən müayinə olundu və psixiatr bu qənaətə gəldi ki, şizofreniya diaqnozu düzgün deyil, amma ərizəçi spirtli içkilərə meyllidir və ola bilsin ki, bu iki simptom səhv salınıb. Amma onun cəmiyyətə təkrar inteqrasiyası mümkündür və onun pansionatda qalması sağlamlığı üçün olduqca zərərlidir.

*Hüquqi məsələlər* – **5-ci maddənin 1-i bəndi**

a) 5-ci maddənin 1-i bəndinin tətbiqinin mümkünlüyü – Ərizəçinin pansionata yerləşdirilməsi milli hakimiyyət orqanlarının gördüyü tədbir idi, belə ki, müvafiq tədbir ərizəçinin pansionatda yerləşdirilməsi barədə ilkin vəsatətdən sonra və tədbirin həyata keçirilməsi prosesində dövlət orqanlarının və sosial təsisatların öz vəzifəli şəxsləri vasitəsilə atdığı müxtəlif addımların nəticəsi idi. Ərizəçi elə bir korpusda yerləşdirilmişdi ki, oranı tərk edə bilmirdi, binadan kənarda keçirdiyi vaxtlarda və gedə bildiyi yerlərdə isə həmişə nəzarətə və məhdudiyyətlərə məruz qalırdı. Binanı tərk etmək üçün bu cür icazə sistemi və ərizəçinin şəxsiyyət sənədlərinin müdiriyyətdə saxlanılması onun şəxsi azadlığını əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı. Ərizəçi müəyyən yerlərə səfər etmək imkanına malik olsa da, daimi nəzarət altında olurdu və icazə almadan binanı istədiyi vaxt sərbəst surətdə tərk edə bilməzdi. Hökumət sübut edə bilmədi ki, ərizəçinin sağlamlığı onun özü üçün birbaşa təhlükə yaradır və ya müdafiəsi üçün xüsusi məhdudiyyətlərin tətbiqi tələb olunur.

Ərizəçinin pansionatda qalma müddəti göstərilməmişdi və beləliklə qeyri-müəyyən idi, çünki bələdiyyənin qeydiyyat kitablarında onun daimi ünvanı kimi pansionat göstərilmişdi. Hazırda ərizəçi orada qalır və səkkiz ildən çoxdur ki, orada yaşayır. Buna görə də o, yəqin ki, ona tətbiq edilən

məhdudiyyətlərin mənfi nəticələrini tam hiss edib. Pansionata qoyularkən onun rəyi soruşulmayıb və o, buraya yerləşdirilməsinə heç vaxt birmənalı şəkildə razılıq verməyib. Daxili qanunvericiliyə əsasən ərizəçinin öz istəyi müəyyən dərəcədə əhəmiyyət daşıyırdı və o, öz vəziyyətini kifayət qədər yaxşı dərk edirdi. Ən azı 2004-cü ildən başlayaraq ərizəçi pansionatı tərk etmək istəyini həm psixiatrlara, həm də hüquq qabiliyyətinin bərpa olunması barədə verdiyi ərizələr vasitəsilə dövlət orqanlarına birmənalı şəkildə ifadə etmişdi.

Hökumətin dəlilləri Məhkəməni buna inandırmadı ki, ərizəçi pansionata yerləşdirilməyə razılıq verib və ya susmaq yolu ilə bunu qəbul edib. Məhkəmə qərara aldı ki, ərizəçinin pansionata yerləşdirilməsi barədə qərarın qəbulunda Bolqarıstan dövlət orqanlarının iştirakını, pansionatı icazəsiz tərk etməyə yol verməyən qaydaları, orada saxlanılmanın müddətini və ərizəçinin buna razılıq verməməsini nəzərə alsaq, araşdırılan vəziyyət azadlıqdan məhrumetməyə bərabərdir və 5-ci maddənin 1-ci bəndi bu işə tətbiq edilə bilər.

b) Şikayətin mahiyyəti - Ərizəçinin razılığını almadan onu psixi çatışmazlığı olan şəxslər üçün pansionata yerləşdirmək barədə qərar Bolqarıstan qanunvericiliyinə əsasən etibarsız idi. Bu nəticə özlüyündə Məhkəmənin bu qənaətə gəlməsi üçün yetərli idi ki, ərizəçinin bu cür azadlıqdan məhrum edilməsi 5-ci maddəyə ziddir. İstənilən halda, bu tədbir Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş qanuni tədbir deyildi, çünki həmin maddədə nəzərdə tutulan istisnaların heç biri, o cümlədən 5-ci maddənin 1-ci bəndinin "e" yarımbəndi ("ruhi xəstələrin" qanuni həbsə alınması) bu hala şamil oluna bilməzdi. Doğrudur, hazırkı işdə məhkəmə prosesinin gedişində ərizəçinin hüquq qabiliyyətinin olmaması barədə təqdim edilmiş tibbi ekspert rəyində onun əziyyət çəkdiyi xəstəliklər qeyd edilmişdi. Lakin dövlət orqanlarının istinad etdiyi ekspert-psixiatrın rəyindən və ərizəçinin pansionata yerləşdirilməsindən iki ildən artıq vaxt keçmişdi və bu müddətdə onun qəyyumu nə onun səhhətində hər hansı dəyişiklik olduğunu yoxlamış, nə də onunla görüşmüş və ya söhbət etmişdi. Bu müddət həddən artıq çox idi və 2000-ci ildə qəbul edilmiş tibbi rəy 2002-ci ildə pansionata yerləşdirildiyi zaman ərizəçinin psixi sağlamlıq durumunu əks etdirən etibarlı sənəd sayıla bilməzdi. Qeyd etmək lazımdır ki, ərizəçi pansionata yerləşdirilən zaman milli hakimiyyət orqanları psixiatr rəyinin verilməsi barədə göstəriş verməkdən ibarət hər hansı hüquqi öhdəlik daşımırdılar. Sonradan tibbi müayinənin aparılmaması bu qənaətə gəlmək üçün yetərlidir ki, ərizəçinin pansionata yerləşdirilməsi qanunsuz olub.

Bundan əlavə, ərizəçinin özünə və ya başqalarına qarşı təhlükə yaratdığı sübuta yetirilməyib.

Məhkəmə həmçinin ərizəçinin səhhətindəki problemlərin onun pansionata yerləşdirilməsini zəruri edib-etmədiyinin qiymətləndirilməsində yol verilən qüsurları qeyd etdi. O, psixiatr nəzarəti altında olsa da, bu nəzarət 5-ci maddənin 1-ci bəndinin "e" yarımbəndinin məqsədləri üçün onun pansionatda saxlanılmasının zəruri olub-olmadığını mütəmadi surətdə qiymətləndirmək məqsədi daşımırdı. Əslində daxili qanunvericilikdə bu cür qiymətləndirmənin aparılması üçün heç bir norma yox idi. Ərizəçinin pansionata yerləşdirilməsi barədə qərar "qanunla müəyyən olunmuş qaydada" qəbul edilməmişdi və ona 5-ci maddənin 1-ci bəndinin "e" yarımbəndi ilə və ya "a"-"f" yarımbəndlərinin hər hansı biri ilə haqq qazandırmaq olmazdı.

*Nəticə:* pozuntu baş verib (yekdilliklə).

**5-ci maddənin 4-cü bəndi:** Hökumət ərizəçinin pansionata yerləşdirilməsinin qanuniliyi məsələsi ilə və bu tədbirin tətbiqinin davam etdirilməsi ilə bağlı ərizəçinin şikayət etməsi üçün birbaşa imkan yaradan hər hansı daxili hüquqi müdafiə vasitəsini göstərmədi. Bolqarıstan məhkəmələri onun pansionata yerləşdirilməsi məsələsinə hər hansı vaxtda və ya hər hansı formada baxmamışdılar və daxili qanunvericilikdə psixi çatışmazlığı olan şəxslərin pansionatda saxlanılmasının zəruriliyi məsələsinə məhkəmə tərəfindən mütəmadi olaraq yenidən baxılması nəzərdə tutulmayıb. Bundan başqa, ərizəçinin pansionata yerləşdirilməsi Bolqarıstan qanunvericiliyində azadlıqdan məhrumetmə kimi qəbul olunmadığına görə bu cür azadlıqdan məhrumetmə tədbirinin qanuniliyi məsələsindən şikayət etmək üçün hər hansı daxili hüquqi müdafiə vasitələri nəzərdə tutmur. Ərizəçinin razılığının olmamasını əsas gətirməklə pansionata yerləşdirilməyə razılığın etibarlılığı məsələsindən yalnız qəyyumun təşəbbüsü ilə şikayət verilə bilərdi.

*Nəticə:* pozuntu baş verib (yekdilliklə).

**5-ci maddənin 5-ci bəndi:** O da sübuta yetirilmədi ki, Məhkəmə hazırkı iş üzrə qərar çıxarmazdan əvvəl ərizəçi qanunsuz olaraq azadlıqdan məhrum edilməsinə görə kompensasiya tələb etmək hüququna malik idi və ya qərar çıxarıldıqdan sonra bunu etmək imkanına malik idi.

*Nəticə:* pozuntu baş verib (yekdilliklə).

**Maddə 3.** 3-cü maddə istər cinayət prosesi kontekstində həbsə alınma, istərsə də müvafiq şəxsin həyatını və ya sağlamlığını qorumaq məqsədi ilə onu qapalı müəssisəyə yerləşdirmə zamanı dövlət orqanlarının himayəsində olan hər hansı şəxsə qarşı qeyri-insani və ləyaqəti alçaldan rəftarı qadağan edir. Pansionatda qida yetərincə verilmirdi və onun keyfiyyəti aşağı idi. Bina yetərincə qızdırılmırdı və qışda ərizəçi palto ilə yatmalı olurdu. O, həftədə bir dəfə qeyri-gigiyenik və yarıuçuq vanna otağında duş qəbul etməli olurdu. *CPT*-nin rəyinə əsasən, tualetlər bərbad vəziyyətdə idi və tualetə getmək təhlükəli idi. Nəhayət, paltarlar yuyulduqdan sonra pansionat onları eyni adamlara qaytarmırdı ki, bu da sakinlərdə, yəqin ki, alçalma hissi yaradırdı. Ərizəçi uzun müddət, təxminən yeddi il ərzində (2002-ci ildən 2009-cu ilədək, yəni onun yaşadığı bina təmir olunanadək) yuxarıda qeyd edilən şəraitə bütünlüklə məruz qalmışdı. *CPT* binaya baş çəkdikdən sonra bu qənaətə gəldi ki, həmin vaxt oradakı yaşayış şəraiti qeyri-insani və ləyaqəti alçaldan rəftara bərabər sayıla bilər. Bu rəydən xəbərdar olduğuna baxmayaraq, Bolqarıstan Hökuməti həmin pansionatı bağlamaq barədə götürdüyü öhdəliyi yerinə yetirmək üçün 2002-2009-cu illərdə heç bir tədbir görməmişdi. Hökumətin maliyyə ehtiyatlarının olmamasına istinad etməsi ərizəçinin yuxarıda təsvir edilən şəraitdə saxlanılmasına haqq qazandırmaq üçün münasib arqument deyildi.

*Nəticə:* pozuntu baş verib (yekdilliklə).

**3-cü maddə ilə birgə götürülməklə 13-cü maddənin pozulub-pozulmaması:** Ərizəçinin pansionatda saxlanılması daxili qanunvericiliyə əsasən azadlıqdan məhrumetmə sayılmırdı. Buna görə də o, "Ziyana görə dövlətin məsuliyyəti haqqında" 1988-ci il tarixli Qanuna əsasən oradakı pis yaşayış şəraitinə görə kompensasiya almaq hüququna malik deyildi. Üstəlik, həmin Qanunun pansionatlarda pis yaşayış şəraiti barədə iddialara tətbiq edildiyini göstərən heç bir məhkəmə presedenti aşkar edilmədi. Hətta fərz etsək ki, ərizəçi öz hüquq qabiliyyətini bərpa edə və pansionatı tərk edə bilərdi, bu cür ləyaqəti alçaldan şəraitdə saxlanıldığına görə ona heç bir kompensasiya təyin olunmayacaqdı.

*Nəticə:* pozuntu baş verib (yekdilliklə).

**6-cı maddənin 1-ci bəndi:** Ərizəçi hüquq qabiliyyətinin bərpası üçün özü müraciət etmək imkanına malik deyildi, o bunu ya qəyyumu vasitəsilə, ya da Mülki Prosessual Məcəllənin 277-ci maddəsində sadalanan şəxslərdən birinin vasitəsilə edə bilərdi. Daxili qanunvericilikdə hüquq qabiliyyətindən tam və qismən məhrum edilən şəxslər arasında fərq qoyulmurdu və şəxsin

qəyyumluğa verilməsi üçün əsas olmuş səbəblərin hələ də qüvvədə qalıb-qalmadığının avtomatik olaraq mütəmadi qaydada yoxlanılması nəzərdə tutulmurdu. Üstəlik, ərizəçinin işində sözügedən tədbir hər hansı müddətlə məhdudlaşdırılmamışdı. Məhkəmələrə müraciət hüququ mütləq hüquq olmasa da və şəxsin prosessual hüquqlarının məhdudlaşdırılmasına haqq qazandırmaq mümkün olsa da, hətta şəxs hüquq qabiliyyətindən qismən məhrum edildikdə belə, onun hüquq qabiliyyətinin olmadığı barədə rəyin yoxlanılması üçün məhkəməyə müraciət etmək hüququ müvafiq şəxsin ən mühüm hüquqlarından biridir. Buradan belə nəticə çıxır ki, müvafiq şəxslər bu məsələ ilə bağlı prinsipcə məhkəmələrə birbaşa müraciət etmək hüququna malikdirlər. Bununla belə, dövlət bu cür birbaşa müraciətin həyata keçirilməsi qaydasını müəyyənləşdirməkdə sərbəstdir. Eyni zamanda, milli qanunvericilikdə bu məsələ ilə bağlı məhkəmələrə müraciət hüququna müəyyən məhdudiyyətlərin qoyulması 6-cı maddənin 1-ci bəndinə zidd deyil, bu şərtlə ki, məhdudiyyətlərin yeganə məqsədi həddən artıq miqdarda və açıq-aydın əsassız şikayətlərlə məhkəmələrin yüklənməməsini təmin etmək olsun. Lakin o da aydındır ki, bu problemi birbaşa müraciət imkanını rədd etməklə deyil, daha az məhdudlaşdırıcı vasitələrlə, məsələn şikayətlərin verilməsinin mütəmadilik müddətini məhdudlaşdırmaqla və ya şikayətin qəbuledilən olub-olmadığını işin materialları əsasında öncədən müəyyənləşdirməyə imkan verən sistem tətbiq etməklə həll etmək olardı.

Bundan əlavə, hazırda Avropa səviyyəsində hüquq qabiliyyəti olmayan şəxslərə bu hüququn bərpası üçün məhkəməyə birbaşa müraciət etmək hüququ vermək tendensiyası mövcuddur. Psixi çatışmazlığı olan şəxslərin müdafiəsinə dair beynəlxalq sənədlərdə də onlara mümkün qədər çox hüquqi sərbəstliyin verilməsinin vacibliyi getdikcə daha çox vurğulanır. 6-cı maddənin 1-ci bəndi prinsipcə ərizəçinin işində olduğu kimi qismən hüquq qabiliyyəti olmayan elan edilmiş hər kəsə hüquq qabiliyyətinin bərpası üçün məhkəməyə birbaşa müraciət etmək hüququ verilməsini təmin edən müddəa kimi şərh olunmalıdır. Bu cür birbaşa müraciət Bolqarıstan qanunvericiliyinin müvafiq müddəalarında kifayət qədər aydın şəkildə təmin edilməyib.

*Nəticə:* pozuntu baş verib (yekdilliklə).

**Maddə 46:** Ərizəçinin hüquqlarının pozulmasının doğurduğu nəticələri düzəltmək üçün dövlət orqanları onun pansionatda qalmaq istəyib-istəmədiyini aydınlaşdırmalı idilər. Əgər ərizəçinin pansionata yerləşdirilməsinə özünün razılıq verdiyi müəyyən edilibsə, bu qərardakı heç

bir mülahizə onun sözügedən pansionatda və ya psixi çatışmazlığı olan şəxslər üçün nəzərdə tutulan digər müəssisələrdə saxlanılmaqda davam etməsinə yol verməyən mülahizə kimi qəbul edilməməlidir. Lakin ərizəçi pansionata yerləşdirilməsinə etiraz edibsə, dövlət orqanları bu qərarı nəzərə alaraq yubanmadan onun vəziyyətini yenidən araşdırmalı idilər. Qismən fəaliyyət qabiliyyətindən məhrum edilən və fəaliyyət qabiliyyətinin bərpa olunmasını istəyən şəxsin məhkəməyə birbaşa müraciət imkanına malik olmaması ilə bağlı 6-cı maddənin 1-ci bəndinin pozulduğu barədə yuxarıda gəldiyi nəticəni nəzərə alaraq, Məhkəmə tövsiyə etdi ki, cavabdeh dövlət məhkəməyə real surətdə birbaşa müraciət imkanının təmin olunmasından ötrü zəruri olan ümumi tədbirləri görsün.

**Maddə 41:** Mənəvi ziyana görə 15.000 avro təyin edildi.

*Mənbə Avropa Məhkəməsinin Hudoc məlumat bazasının rəsmi internet səhifəsinin (http://hudoc.echr.coe.int/) materialları əsasında hazırlanmışdır.*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

***Qabil Məmmədov***
*Naxçıvan Muxtar Respublikası*
*Kommersiya Məhkəməsinin hakimi*

## Cinayət nəticəsində vurulmuş zərərin ödənilməsi "sosial ədalətin bərpası" prinsipi müstəvisində

Sosial azadlıq, ədalət, bərabərlik və humanizm ideyaları lap qədimdən hüququn fundamental prinsipləri kimi çıxış edir. Lakin bu o demək deyildir ki, hüququn prinsipləri onun digər tərkib elementləri ilə əbədi vəhdətdə olub, onun ayrılmaz xassələrini ifadə edirlər. Təbii hüquq nəzəriyyəsi məhz belə mövqedən çıxış edərək hüququn yuxarıda sadalanan ideyalardan ayrılıqda mövcud ola bilməsini obyektiv olaraq qeyri-mümkün hesab edir. Təsadüfi deyildir ki, adı çəkilən hüquq nəzəriyyəsi "Qanunun ədalətli olması"nı hüquq prezumpsiya kimi deyil, hüquqi aksioma kimi qəbul edir.

Təbii hüquq nəzəriyyəsinin bu müddəaları nə qədər cəlbedici görünsə də, əslində idealda, təsəvvür olunan hüquq üçün xarakterik bir şey olub, real hüquq üçün ayrılmaz bir xassə kimi çıxış edə bilməz. Çünki dövlət və hüququn bu məlum olan tarixi belə mütləq qanunauyğunluğun mövcudluğu barədə heç nə demir. Ancaq buna baxmayaraq, təbii hüquq nəzəriyyəsinin göstərilən müddəaları mühüm əhəmiyyət kəsb edir. Belə ki, həqiqətən də azadlıq və ədalət, bərabərlik və humanizm ideyalarından ayrılıqda hüquq öz mahiyyətini əldə edə və reallaşdıra bilmir.

Bu ideyalar insanın ruhi-mənəvi tələbatlarına cavab olaraq yaranmış və onun cəmiyyətdə şəxsiyyət kimi formalaşa bilməsi cəmiyyətin bu dəyərlərə hansı səviyyədə sahib çıxa bilməsindən bilavasitə asılıdır.

Cəmiyyətin bu dəyərlərin daşıyıcısına çevrilməsində pozitiv qanunvericilik əsas rol oynayır. Vətəndaş cəmiyyəti və hüquqi dövlətdə əksər məsələlərin hüquq vasitəsi ilə nizama salınması həmin institutların mövcudluğunu birbaşa hüquqdan asılı vəziyyətə salır. Yəni hüququn əsas ifadə vasitəsi kimi qanunlar hüquqi olmazsa, nə vətəndaş cəmiyyəti, nə də hüquqi dövlət yarana bilməz. Qanunların hüquqi olması isə onların hüququn

fundamental ideyaları ilə vəhdət halına gəlməsindən asılıdır ki, bu da qanunverici tərəfindən həyata keçirilir. Elə bu səbəbdəndir ki, hüququn əsas ideyalarını özündə ehtiva edən prinsipial müddəalar hər bir normativ-hüquqi aktın birinci fəslində öz əksini tapır. Buradan belə qənaətə gəlmək olur ki, hüququn ideyalarını əks etdirən prinsiplər birinci növbədə qanunvericiliyə ünvanlanır. Yəni ki, hələ qanun qəbul edilməmişdən əvvəl, hüququn prinsipləri qanunvericinin norma yaratmaq fəaliyyətini tənzim etməyə başlayır. Əgər qanunverici normativ-hüquqi aktın məqsəd və vəzifələrini müəyyənləşdirərkən, sıravi normaları qəbul edərkən prinsipləri rəhbər tutmazsa, onda qəbul ediləcək qanunun ədalətli olması obyektiv olaraq qeyri-mümkün olur. Bu qanunauyğunluğun nəzərə alınması qəbul ediləcək normativ-hüquqi aktların səmərəsinə dərindən təsir göstərərək, onların realizəsini əhəmiyyətli dərəcədə asanlaşdırır. Lakin təəssüf hissi ilə qeyd etmək istərdik ki, haqqında bəhs etdiyimiz mühüm qanunauyğunluq qanunlar qəbul edilərkən heç də həmişə dəqiqliklə nəzərə alınmır.

Konkret faktlara müraciət etmək yerinə düşərdi.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra "AR CM") 8.1-ci maddəsində deyilir: "Cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır". Həmin Məcəllənin 41.2-ci maddəsində isə qeyd olunur: "Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədilə tətbiq edilir".

Göründüyü kimi, AR CM-in ədalət prinsipini və cəzanın məqsədlərini əks etdirən maddələri bir-biri ilə üzvü əlaqədə olub, vəhdət yaradır. Qanunvericinin cəzanın məqsədləri sırasında "sosial ədalətin bərpasını" birinci olaraq vurğulaması təsadüfi olmayıb, onun prinsipial əhəmiyyət kəsb etməsindən irəli gəlir. Lakin qanunun məqsəd və vəzifələrini, prinsiplərini ehtiva edən başlanğıc normaların vəhdət təşkil etməsi onların realizəsi üçün kifayət etmir. Lazımdır ki, maddi və prosessual qanunların normaları ilə hüququn prinsipləri arasında ziddiyyət olmasın. Əks halda qanunun sıravi normaları onun prinsiplərinin realizəsinə mane ola bilir.

Məlum olduğu kimi, AR CM-in normalarının realizəsində Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (bundan sonra "AR CPM") normaları mühüm rol oynayır. Prosessual normaların iştirakı olmadan cinayət qanununun maddələri müstəqil şəkildə realizə oluna bilmir. Ona

görə də, CM-in prinsip və normalarının realizəsi ilə bağlı istənilən məsələ prosessual qanunun uyğun maddələri ilə əlaqəli şəkildə araşdırılmalıdır. Belə ki, cinayət törədilərkən zərərçəkmiş şəxsə fiziki, maddi və mənəvi zərər vurula bilər. Deməli, sosial ədalətin bərpası cinayətkara onun törətdiyi əməlin ictimai təhlükəlilik dərəcəsinə və xarakterinə uyğun cəzanın təyin olunması ilə yanaşı, həm də vurulmuş ziyanın adekvat olaraq ödənilməsini ehtiva etməlidir. İlk olaraq qeyd edək ki, cinayət nəticəsində zərərçəkmiş şəxslərə dəymiş zərərin ödənilməsi ayrı-ayrı ölkələrdə fərqli cür tənzimlənir. Məsələn, ABŞ-da federal və ştat qanunvericiliyinə əsasən məhkəmələr zərərçəkənlərə zərərin əvəzini ödəməyə məcbur edə bilərlər. Bu kompensasiyaya tibbi xərcləri, psixoloji yardım və əmlak itkisi daxildir. Bundan başqa, ABŞ-da "Victim Compensation Program" adlı xüsusi kompensasiya proqramı mövcuddur ki, bu proqramlar dövlət tərəfindən maliyyələşdirilir və cinayət nəticəsində zərərçəkənlərə maddi dəstəyi ehtiva edir. Analoji proqram və hüquqi aktlar digər dövlətlərdə də mövcuddur. Buna Böyük Britaniyada "Criminal İnjuries Compensation Authority", Almaniyada "Victim Compensation Act", İsveçdə "Crime Victim Compensation and Support Authority" aktını misal göstərmək olar. Qeyd olunan hüquqi aktlar bu ölkələrdə cinayətin qurbanı olmuş zərərçəkənlərin hüquqlarının təmin edilməsi və sosial ədalətin bərpası məqsədini güdür. Ölkəmizə gəldikdə qeyd edək ki, AR CPM-nin XX fəsli zərərçəkmiş şəxsə kompensasiyanın verilməsi əsasları və qaydalarını özündə ehtiva etsə də, fıkrimizcə, qanunun bu institutu ədalət prinsipi ilə heç də tam şəkildə uzlaşmır.

AR CPM-in 189-cu maddəsinə görə, cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə zərərçəkmiş şəxs kompensasiya almaq hüququna o zaman malik olur ki, ona qarşı bu əməlin törədilməsi məhkəmənin hökmü və ya cinayət prosesini həyata keçirən orqanın yekun qərarı ilə müəyyən edilmiş olsun.

Zərərçəkmiş şəxsə verilən kompensasiyanın məbləği törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq aşağıdakı kimi müəyyən edilmişdir:

1) xüsusilə ağır cinayətin törədilməsi yolu ilə vurulmuş ziyana görə - üç yüz otuz manat;

2) ağır cinayətin törədilməsi nəticəsində vurulmuş ziyana görə - yüz altmış beş manat;

3) az ağır cinayətin törədilməsinə görə vurulmuş ziyana görə - əlli beş manat;

4) böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsinə görə - on bir manat.

Göstərilən kompensasiya məbləğləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına zərərçəkmiş şəxsə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə kompensasiya ödənilməsi məsələsi zərərçəkmiş şəxsin ərizəsi əsasında məhkəmə tərəfindən həll edilir.

AR CPM-in 191.2-ci maddəsinə görə: "Zərərçəkmiş şəxsə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya verilməsi haqqında qərarı ittiham hökmündə əks etdirən məhkəmə, həmçinin, kompensasiya qismində ayrılan pul məbləğinin məhkum edilmiş şəxsdən tutulub dövlət büdcəsinə qaytarılmasını hökmdə göstərir".

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, bu məsələdə kifayət qədər ziddiyyətli vəziyyət mövcuddur. Bu da ondan irəli gəlir ki, qanunverici haqqında bəhs etdiyimiz institutu formalaşdırarkən cinayət prosesinin prinsiplərini, birinci növbədə, ədalət prinsipini rəhbər tutmamışdır. Yaxud rəhbər tutsa da, onun məzmununu yetərincə nəzərə almamışdır. Əks halda belə bir ziddiyyətli şərait yaranmazdı. Təəccüb doğuran hal odur ki, qanunverici AR CPM-in 189-cu maddəsində "... vurulmuş ziyana görə zərərçəkmiş..." ifadəsi ilə nəyin nəzərdə tutulduğu birmənalı şəkildə başa düşülən deyil. Əgər bu maddəni AR CPM-in 181.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh etsək, onda belə güman etmək olar ki, qanunverici cinayət nəticəsində vurulmuş mənəvi zərərin kompensasiyasını nəzərdə tutmuşdur. Ancaq göstərilən maddələrin məzmunu birmənalı şəkildə belə qənaətə gəlməyə imkan vermir. Çünki AR CPM-in 181 -ci maddəsinə ("Mülki iddia vermək hüququ olan şəxslər") görə, "əmlakına vurulmuş ziyana" görə fiziki və hüquqi şəxs cinayət mühakimə icraatı zamanı aşağıdakı hallarda mülki iddia verməyə haqlıdır:

- ziyan bilavasitə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulduqda;
- ziyan cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi ilə əlaqədar vurulduqda.

Gördüyü kimi, qanunverici *"vurulmuş ziyan"* dedikdə, şəxsin əmlak vəziyyətində cinayətin törədilməsi ilə bağlı neqativ dəyişiklikləri nəzərdə tutur. İstinad etdiyimiz 189-cu maddədə isə Cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə zərərçəkmiş şəxsə əvəzin ödənilməsindən bəhs edilir. Belə çıxır ki, şəxsin çəkdiyi zərər onun əmlakına vurulmuş maddi ziyanla əlaqəli olmalıdır. Əgər qanunverici, bizim

güman etdiyimiz kimi, 189-cu maddədə mənəvi zərəri nəzərdə tutmuşsa, onda həmin zərərin yalnız vurulmuş maddi ziyanla əlaqələndirilməsi ağlabatan deyildir. Birincisi, mənəvi zərərin yalnız maddi ziyanla əlaqələndirilməsi məntiqə uyğun deyil. İkincisi, şəxsiyyətin həyat və azadlıqları, cinsiyyət azadlığı və toxunulmazlığı əleyhinə yönəlmiş cinayətlərdə şəxsin əmlakına heç bir ziyan vurulmur. Belə olan surətdə, qanunvericinin məntiqi ilə yanaşsaq, bu halda zərərçəkmiş şəxsə mənəvi zərər vurulmur və ona kompensasiya ödənilməməlidir.

Burada bir məqama da diqqəti cəlb etmək yerinə düşərdi. İstər qanunvericilikdə, istərsə də cinayət hüququ və cinayət prosesi nəzəriyyəsində bir çox hallarda anlayışlar və terminlər dəqiqliklə öz mənasına uyğun şəkildə və yerində istifadə olunmur. Məsələn, hörmətli professor M.Ə.Cəfərquliyevin "Azərbaycan Respublikasının cinayət prosesi" dərsliyində *"maddi ziyan"* anlayışı ilə yanaşı *"mənəvi ziyan"* anlayışı da işlədilir. Müəllif yazır: *"cinayət mühakimə icraatı zamanı dövlət əmlakının mühafizəsi, habelə mülki iddia vermək hüququ olan fiziki şəxsin öz qanuni mənafelərini şəxsən müdafiə etmək imkanı olmadıqda onların hüquqlarının müdafiəsi üçün mülki iddia verir və onu müdafiə edir. Lakin mənəvi ziyanın ödənilməsinə dair iddianı prokuror yalnız zərərçəkmiş şəxsin xahişi ilə verə bilər".* Şübhəsiz ki, anlayış və terminlərlə bu cür ehtiyatsız davranış yolverilməzdir. Cinayət hüquq nəzəriyyəsində ziyan dedikdə, cinayət nəticəsində yaranmış ictimai təhlükəli nəticələr başa düşülür. Həmin nəticələr cinayətin törədildiyi müxtəlif sahələrdə (mülkiyyət, həyat və sağlamlıq, azadlıqlar əleyhinə və s.) baş verən dəyişikliklər şəklində təzahür edir. Bu dəyişikliklər mülkiyyətə və maddi maraqlara, mənafelərə vurulan ziyan, sağlamlığa və mənəviyyata yetirilən fiziki və mənəvi zərər şəklində təzahür edə bilər. Cinayət qanunvericiliyində də qanunverici ictimai təhlükəli nəticələrdən bəhs edərkən mülkiyyətə qəsd edən tərkiblərdə *"ziyan"* həyat və sağlamlıq, mənəviyyat əleyhinə yönəlmiş cinayətlərdə isə *"zərər"* anlayışından istifadə edir (məsələn, sağlamlığa qəsdən ağır (m. 126), az ağır (m. 127) zərər vurma). Aparılan təhlildən belə qənaətə gəlmək olur ki, *"ziyan"* anlayışı daha geniş olub özündə cinayət nəticəsində yaranmış ictimai zərərli nəticələri ehtiva edir. Deməli, mənəvi zərər *"maddi ziyan"* anlayışı ilə əlaqəli olub, onu konkretləşdirir. Ancaq nəzərə almaq lazımdır ki, maddi ziyandan fərqli olaraq, *"mənəvi zərər"* bilavasitə obyektiv təzahürə malik deyildir. Bu daha çox subyektiv qiymətləndirmənin nəticəsi kimi çıxış edir. Ona görə AR CPM-in 181.6-cı maddəsi mənəvi zərərin ödənilməsinə dair iddianı prokurorun öz təşəbbüsü

ilə deyil, yalnız zərərçəkmiş şəxsin xahişi ilə verə bilməsini nəzərdə tutur. Təsadüfi deyildir ki, cinayət qanunvericiliyində də əsasən mənəvi zərər vura bilən tərkiblərdə (məsələn, təhqir, böhtan və s.) ictimai təhlükəli nəticələri zəruri əlamət kimi tərkibə daxil etmir. Çünki bu halda vurulmuş mənəvi zərərin, məsələn, şərəf və ləyaqətin alçaldılmasını, dərinliyini, miqyasını sübut etmək qeyri-mümkündür. Hesab edirik ki, AR CPM-in haqqında bəhs etdiyimiz institutu (189, 190, 191-ci maddələri) qeyd olunanlar və aşağıda göstərilən təkliflərimiz nəzərə alınmaqla yenidən işlənərsə, daha təkmil olardı.

Birincisi, bu institut təkcə mənəvi zərərə görə deyil, həm də maddi ziyana görə kompensasiyanı ehtiva etməlidir (maddi ziyanla bağlı mülki iddia verilməsi hüququnun və onun realizəsinin 179-188-ci maddələrdə nəzərdə tutulması belə qənaətə gəlməyə əsas verir). İkincisi, kompensasiyanın məbləği yalnız vurulmuş maddi ziyanla bağlı dəqiq rəqəmlərlə ifadə edilməlidir. Üçüncüsü, həmin rəqəmlər ağlabatan olmalıdır. Məsələn, tutaq ki, cinayətlərin kateqoriyasına uyğun olaraq: a) xüsusilə ağır cinayətlərə görə 1.000 manatdan az olmamaq şərti ilə; b) ağır cinayətlərə görə 700 manatdan az olmamaq şərti ilə; c) az ağır cinayətlərə görə 500 manatdan az olmamaq şərti ilə; ç) böyük ictimai təhlükə törətməyən cinayətlərə görə isə 250 manatdan az olmamaq şərti ilə dövlət büdcəsinin hesabına ödənməlidir. Dördüncüsü, mənəvi zərərlə bağlı ödəniləcək kompensasiyanın məbləği zərərçəkmiş şəxs tərəfindən müəyyənləşdirilməli və yekun qərarı məhkəmə obyektiv və subyektiv halları nəzərə almaqla qəbul etməlidir və s. Vurulmuş maddi ziyanla bağlı kompensasiyanın ödənilməsi AR CPM-in "Cinayət mühakimə icraatında mülki iddia"nı nəzərdə tutan XIX fəsli ilə heç bir ziddiyyət təşkil etmir. Ən azından ona görə ki, AR CPM-in 181.2.4-cü maddəsinə görə mülki iddia verilmiş şəxs mənəvi ziyanın ödənilməsini də tələb edə bilər. Yəni mənəvi zərərlə bağlı paralelizmi qanunverici özü nəzərdə tutmuşdur. Göstərilən maddə yenə də belə güman etməyə əsas verə bilər ki, qanunverici AR CPM-in 189-191-ci maddələrində həm maddi ziyana, həm də mənəvi zərərə görə kompensasiyanın ödənilməsini nəzərdə tutmuşdur.

Belə olan təqdirdə AR CPM-in 190-cı maddəsində müəyyən edilmiş məbləğlər, azlıq təşkil edir. Maddi ziyana görə kompensasiyanın ödənilməsinin dəqiq rəqəmlərlə göstərilməsi ona görə zəruridir ki, bir çox hallarda cinayətkarın mülki iddiada ona qarşı irəli sürülmüş tələbləri ödəməsi obyektiv olaraq onun imkanı xaricində olur. Bəzi cinayətlərin törədilməsi zamanı isə cinayətkar hazırlıq mərhələsində gələcəkdə ona qarşı

irəli sürülə biləcək mülki iddianın icrasız qalması üçün bütün zəruri tədbirləri görürlər. Belə hallar vəzifə və mülkiyyət əleyhinə törədilən cinayətlərlə bağlı (əsasən də rüşvətxorluq və dələduzluq) geniş yayılmışdır. Son dövrün məhkəmə təcrübəsi də onu göstərir ki, ağırlaşdırıcı hallarda törədilən dələduzluq cinayətləri ilə bağlı verilmiş mülki iddialar üzrə çıxarılmış hökm və qərarlar icra olunmamış vəziyyətdə qalır. Çünki dələduzlar cinayəti etməmişdən əvvəl onların adına qeydiyyatda olan bütün növdən olan əmlakları mülkiyyətlərindən çıxarırlar. Dələduzluq yolu ilə əldə olunmuş əmlak, pul və ya mülkiyyət isə ittiham hökmü çıxarılana qədər israf edilmiş olur. Faktiki olaraq zərərçəkmiş şəxsin iddiası mülkiyyəti olmayan şəxsə ünvanlanır və ödənilməmiş qalır. AR CM-in *"Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməməyə"* görə məsuliyyət nəzərdə tutan 306-cı maddəsi isə göstərilən əməlin qərəzli olaraq törədilməsini nəzərdə tutur. Yəni subyekt bilərəkdən ya məhkəmə aktını yerinə yetirmə vəzifəsindən yayınır, yaxud həmin aktın yerinə yetirilməməsi üçün maneçiliklər yaradır. Təbii ki, bu hərəkətlər məhkəmənin hökmü və ya qərarı çıxarıldıqdan və qanuni qüvvəyə mindikdən sonra edilməlidir. Ona görə də dələduzun uzaqgörənliklə etmiş olduğu hazırlıq hərəkətləri cinayət qanunu baxımından cinayətə hazırlıq kimi tövsif edilə bilməz. Ona görə də belə hallarda təqsirləndirilən şəxs yalnız AR CM-in 178-ci maddəsinin uyğun bəndləri ilə cinayət məsuliyyətinə cəlb oluna bilər. Yəni faktiki olaraq cinayət törətmiş şəxs cinayət məsuliyyətinə cəlb olunsa da həmin cinayət nəticəsində zərərçəkmişə vurulmuş maddi ziyan ödənilməmiş qalır. Mahiyyət etibarı ilə bu, cinayət nəticəsində pozulmuş sosial ədalətin bərpa olunmadan qalması deməkdir. Təsadüfi deyildir ki, cəzanın ideyasını intiqam, yəni cinayətlə vurulmuş zərərin əvəzinin çıxılması, ödənilməsi təşkil edir. Göstərilən halda cinayətkarın azadlıqdan məhrumetmə növündə cəzaya məruz qalması onun tərəfindən pozulmuş ədalətin tam bərpası anlamını verə bilməz. Cinayətdən zərərçəkmiş şəxsi, birinci növbədə, ona münasibətdə yaranmış ictimai zərərli nəticələrin aradan qaldırılması maraqlandırır. Təbii ki, seçim qarşısında qalarsa, zərərçəkmiş şəxs dələduzluq etmiş cinayətkarın azadlıqdan məhrum edilməsinə deyil, əksinə azadlıqda qalıb ona vurmuş olduğu ziyanı ödəməsinə üstünlük verər. Fikrimizcə, cəzaçəkmə müəssisələrinin islah əmək düşərgələrinə çevrilmə vaxtı çoxdan gəlib çatmışdır. Cəzaçəkmə müəssisəsində uyğun əmək fəaliyyəti ilə məşğul olması həm cinayətkarların sürətlə islah olunmasına öz müsbət təsirini göstərər, həm də cinayət nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi ilə bağlı problemləri aradan qaldırmaq mümkün olardı. Ancaq

yaxşı olardı ki, cinayətkarın hesabına onun vurmuş olduğu zərəri ödəmək mümkün olmadıqda, həmin maddi ziyan dövlət büdcəsindən ödənilsin, sonra isə cəzanın realizəsi prosesində məhkum olunmuş şəxs işləyərək dövlətin borcunu qaytarsın. Məsələnin bu cür həlli zərərçəkmişin mənafelərinin qısa müddətə təmin edilməsi baxımından daha məqsədəmüvafiqdir. Bundan başqa, dələduzluq və digər maddi ziyan vurulması ilə müşayiət olunan cinayətlərlə bağlı zərərin ödənilmədiyi hallar üçün cəzanın sərtləşdirilməsi mexanizmi də qanunda nəzərdə tutulmalıdır. Əks halda mövcud vəziyyət bu qəbildən olan cinayətlərin sayını daha da artıra bilər.

Həmçinin bu xarakterli mülki iddianın verilməsinə görə tələb olunan rüsuma münasibətdə hesab edirik ki, **cinayət mühakimə icraatında mülki iddianın verilməsinə görə rüsum ödənilməməlidir. Təsadüfi deyil ki,** Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsində deyilir.

“Hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranışına hüququ vardır.” (birinci hissə)

“Cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.” (ikinci hissə)

“Hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanunazidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.” (üçüncü hissə)

“Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.” (dördüncü hissə)

Göründüyü kimi zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır”. Zərərin ödənilməsini tələb etmək hüququ vardır deyiləndə rüsumsuz tələb hüququ nəzərdə tutulur.

Şəxs cinayətdən hansı formada (fiziki, maddi, mənəvi) zərər çəkməsindən asılı olmayaraq cinayətin qurbanı sayılır. “Cinayətdən müdafiə” deyiləndə yalnız cinayətkarın cəzalandırılması deyil, həm də qurbanın pozulmuş mülki, əmək və digər hüquqlarının ilk növbədə cinayətkarın hesabına bərpası nəzərdə tutulur.

Ədalət mühakiməsinə çatımlılıq və ədalətli davranış, restitusiya, kompensasiya və sosial yardımın bərpasında cinayət qurbanına münasibətdə

dövlətin öhdəlikləri müəyyən edilir. Bu öhdəliklərin vahid məqsədi cinayət qurbanının maksimum müdafiəsini təmin etməkdən ibarətdir. Qurban kompensasiyanı hüquqpozucudan və ya digər mənbələrdən tam həcmdə ala bilmədikdə bir sıra cinayətlərə görə dövlət ona maliyyə kompensasiyası verilməsi üçün tədbirlər görməlidir. Fikirimizcə, cinayətkara qarşı iddia verən qurbandan dövlət büdcəsinə pul (rüsum) tələb edilməsi müəyyən edilmiş öhdəliklərə uyğun gəlmir.

Bundan başqa, mülki tələb üzrə iddianın təmin edilməsi barədə məhkəmə qərarı müxtəlif səbəblərdən (cinayətkarın maddi vəziyyətinə, uzun müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edilməsinə və digər) icra edilməyə bilər. Dövlət orqanının fəaliyyətinin maliyyələşdirilməsi üçün cinayət qurbanından rüsum tələb edilməsi ağır vəziyyətdə olan şəxsin vəziyyətini daha da ağırlaşdırır. Zənnimizcə mülki qaydada mübahisələrlə cinayət nəticəsində yaran mülki tələblərə yanaşma fərqli olmalıdır. Cinayət təqibinin başlanması rüsumsuz olduğundan bu səbəbdən iddia verilməsinə görə də rüsum tələbi məntiqsizdir. Çünki hər iki halda cinayət nəticəsində pozulmuş hüquqların müdafiəsinin bərpası tələb olunur.

Nəzərinizə çatdıraq ki, Azərbaycan Respublikasının "Dövlət rüsumu haqqında" Qanununda da hüquqların pozulması ilə əlaqədar iddia verilərkən rüsumdan azad olunmalar nəzərdə tutulub. Qanuna görə cinayətdən zərərçəkənin dövlət rüsumundan azad olunmamasını ədalətli hesab etmək olmaz. Qeyd olunmalıdır ki, hətta tələbdən asılı olaraq rüsum ödəmək belə qurbanın vəziyyətini ağırlaşdırır.

Bundan başqa, iddia tələbinə əsasən rüsum ödənilməli olsa, həmin iddia üzrə qəbul olunmuş məhkəmə aktlarından verilmiş apellyasiya və kassasiya şikayətlərinə görə də rüsum tutulması tələb olunur. Belə olan halda cinayət qurbanı narazı qaldığı məhkəmə aktlarını mübahisələndirmək üçün yenidən rüsum ödəməli olacaq, nəticədə isə onun vəziyyəti daha da ağırlaşacaq.

Beləliklə, rüsum dövlət orqanlarının göstərdiyi xidmətə görə ödənilən haqdır, bütün hallarda rüsum ödənilir, lakin zərərçəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edərkən ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququna rüsumun tətbiq edilməsi ədalət prinsipi ilə uzlaşmır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbayan Respublikasının Konstitusiyası, Bakı 2023.
2. Azərbayan Respublikasının Cinayət Prosessual Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2023.
3. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin Kommentariyası, Bakı, Digesta nəşriyyatı, 2016.
4. Mirağa Cəfərquliyev. Azərbaycan Respublikasının Cinayət Prosesi. Dərslik. "Qanun" Nəşriyyatı. Bakı: 2008.
5. Azərbayan Respublikasının Cinayət Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2023.



# AZAD TRİBUNA

***Yunis Xəlilov***
***Naxçıvan Muxtar Respublikası***
***Ali Məhkəməsinin əməkdaşı***

## Ədalət mühakiməsinin həyata keçirilməsi müstəvisində süni intellektin tətbiqi: dünya təcrübəsində qarşılaşılan mövcud problemlər və gələcək perspektivlər

Yüksək sürətlə inkişaf edən digitalizasiya prosesi son illərdə həyatımıza ağılasığmaz yeniliklər gətirmişdir: rəqəmsal təhsil, rəqəmsal pul, rəqəmsal səhiyyə, rəqəmsal vətəndaşlıq və s. Planetimizdə tamamilə rəqəmsal cəmiyyətin meydana gəldiyini söyləməyin hələ tez olmasına baxmayaraq, hər halda bu prosesin hiss olunmadan baş verən çeviklik göstəricisi spesifik qaydaları olacaq belə bir cəmiyyətin gələcəkdə yaranacağını labüd edir. Bunun üçün indidən yubanmadan müəyyən profilaktik işlər görməyin zəruriliyini anlayan dünya dövlətlərindən bəziləri “Süni intellektə dair Milli Strategiyaları”nı artıq müəyyən müddət olar ki, qəbul ediblər. Məsələn, 2018-ci ildə Hindistanda sözügedən strategiya qəbul olunub. 2019-cu ilin oktyabrın 10-da Rusiya Federasiyasının Prezidenti 490 nömrəli qərarı ilə “2030-cu ilə qədər olan dövr üçün Süni intellektin inkişafına dair Milli Strategiya”nı təsdiq edib. Türkiyədə də dövlət başçısının Rəqəmsal Transformasiya İdarəsi və Sənaye və Texnologiyalar Nazirliyi ilə birgə və bütün aidiyyəti tərəflərin fəal iştirakı ilə hazırlanmış “2021-2025-ci illər üçün Milli Süni İntellekt Strategiyası” Prezidentin 2021/18 nömrəli sərəncamı ilə təsdiq edilərək qüvvəyə minib[1].

“Süni intellektə dair Milli Strategiyalar” Kanada, Çin, Danimarka, Finlandiya, İtaliya, Yaponiya, Meksika, Sinqapur, Cənubi Koreya, İsveç, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdə də qəbul edilmişdir. Ölkəmizə gəldikdə, qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda keçirilmiş II Qlobal Media Forumunda çıxış

---

[1] https://cbddo.gov.tr/uyzs

edərkən deyib: "Biz yeni reallıqlarla qarşı-qarşıyayıq. Süni intellektin inkişafı, informasiyanın sosial şəbəkələrdə yayılması zamanı onun imkanlarının tətbiqi ola bilər ki, gələcəkdə, biz bunu artıq bu gündə müşahidə edirik, nizamlamayan nəticələrə gətirib çıxarsın"... "Bəlkə də süni intellektlə bağlı qanunvericilik, tənzimləyici və ya konvensiya bazasının işlənib hazırlanması barədə düşünməyin vaxtı çatıb"[2]. Bu sözlər onu deməyə əsas verir ki, yaxın gələcəkdə sözügedən proses mütləq ölkəmizdə də geniş vüsət alacaqdır.

Düşünürük ki, ölkəmizdə xüsusilə hüquqşünaslıq ixtisasları olan universitetlərimizdə "süni intellekt hüququ", "internet hüququ" adlı hüquq sahələri tədris olunmalıdır. Bu, zərurətdən qaynaqlanır. Xarici ölkələrin universitetlərində bu fənlər artıq neçə illərdir ki, tədris edilir. Hətta bəzi ölkələrin (məsələn, Türkiyənin) universitetlərində süni intellekt hüququna dair praktiki məşğələlərin keçirildiyi hüquq texnologiyaları laboratoriyaları ("Legal Tech Labs") fəaliyyət göstərir. Bu laboratoriyalar hüququn innovativ texnologiyalarla inteqrasiyasına töhfə verməyi qarşılarına məqsəd qoyublar. Həmin laboratoriyalar hüquq təhsili, hüquqi tədqiqat və hüquqi xidmət sahələrində texnoloji yeniliklərdən istifadəni təşviq etməyi hədəf olaraq müəyyən ediblər. Bu cür lobarotoriyalara ABŞ-da "Harvard Law School's Berkman Klein Center for Internet & Society"ni və "CodeX - Stanford Law School's Center for Legal Informatics"ni, Kanadada "University of Toronto's Legal Innovation Zone"ni, Almaniyada "Leibniz University Hannover's Legal Tech Lab"ı, Böyuk Britaniyada "University College London (UCL) Laws' Centre for Ethics and Law in Emerging Technologies"i və "Legal Innovation Lab Wales at Swansea University"ni misal göstərmək olar. "Hüquq texnologiyaları laboratoriyaları" dünyanın bir sıra başqa ölkələrində (Türkiyə, Rusiya və s.) də fəaliyyət göstərən universitetlərdə yaradılıbdır.

Bu laboratoriyalarda tələbələr və hüquq mütəxəssisləri hüquqi innovasiyalar, data analitikası, süni intellektin hüquqda tətbiqi, rəqəmsal hüquqi xidmətlər və digər texnologiya əsaslı hüquqi həll yolları üzərində çalışır. Bu cür laboratoriyalar, həmçinin hüquq sahəsində süni intellektin və digər texnologiyaların etik və hüquqi təsirlərinin dəyərləndirilməsi üçün vacib platforma yaradır.

Azərbaycana gəldikdə, ölkəmizdə hüquq texnologiyaları ("Legal Tech") laboratoriyaları hələ geniş şəkildə tətbiq edilməsə də, son illərdə bu sahədə

[2] https://azedu.az/news/81256/

müəyyən müsbət addımlar atılır. Azərbaycanda hüquq texnologiyaları sahəsində inkişaf etmək üçün müəyyən potensial mövcuddur, xüsusilə də süni intellektin hüquqi analizlərdə istifadəsi, hüquqi sənədlərin avtomatlaşdırılması və rəqəmsal hüquqi xidmətlərin yaradılması sahəsində bunu demək olar.

Hazırda dünyada çox sürətlə gedən rəqəmsallaşma prosesi və süni intellektin demək olar ki, hər sahəyə inteqrasiya etməsi prosesi ədalət mühakiməsindən də yan keçməmişdir. Maraqlıdır ki, 2017-ci ildə bir jurnalist ABŞ-ın Ali Məhkəməsinin baş hakimi Con Qlover Robertsdən "süni intellekt dəstəkli ağıllı maşınların məhkəmə qərarlarının hazırlanmasında köməklik göstərəcəyi bir günü nə vaxtsa görəcəyikmi?" sualını verdikdə, baş hakimin "o gün artıq çoxdan reallaşmağa başlamışdır"[3] - deməsi süni intellektin məhkəmə sistemində tətbiqinin hansı mərhələdə olduğunu ortaya qoyur. Təsadüfi deyil ki, informasiya texnologiya vasitələri ilə uzaqdan məhkəmələrə giriş etmək imkanını təmin edən elektron sistemlər hazırda bir sıra ölkələrdə tətbiq olunur. Bu ölkələrə ABŞ, Kanada, Avstraliya, İngiltərə, Sinqapur, Malayziya və digər ölkələri nümunə göstərmək olar.

Bəzi müəlliflər haqlı olaraq düşünür ki, ədalət mühakiməsinin həyata keçirilməsində elektronlaşmanın sonrakı etapı məhkəmə proseslərinin bütün mərhələlərinin onlayn tətbiq edilməsi və məhkəmə qərarlarının da süni intellekt tərəfindən qəbul edilməsi olacaqdır[4].

Sürətli bir şəkildə dayanmadan inkişaf edən süni intellekt texnologiyası hazırda **məhkəmələrdəki iş yükünün azaldılması**, **işlərə baxılarkən süründürməçilik hallarının aradan qaldırılması**, **məhkəmə xərclərinə qənaət edilməsi** kimi problemlərin effektiv həlli üçün ən rasional alternativ kimi qəbul edilir. Lakin buna baxmayaraq, süni intellektin məhkəmə sistemində tətbiqinin mühakimə icraatının aşkarlığı, onun bilavasitəliyi, obyektivliyi, qərəzsizliyi prinsiplərinin reallıqda təcəssüm etməsinə təsiri, eyni zamanda süni intellektin təyin etdiyi cəzanın təqsirləndirilən şəxsin cəzasının fərdiləşdirilməsində (xüsusilə onun peşmanlıq hissi keçirməsi, cəzanın ona və ailəsinə təsiri amili), həmçinin toplanmış sübutların qiymətləndirilməsində effektli olub-olmaması məsələləri nəzəriyyədə

---

[3] **Schlaefli Samuel:** "Der Roboter dein Richter und Tröster" https://www.cetoday.ch/news/2021-07-18/der-roboter-dein-richter-und-troester

[4] **Mcintyre, Joe/ Olijnyk, Anna/Pender, Kieran.** Civil courts and COVİD-19: Challenges and oppurtunities in Australia, Alternative Law Journal, 2020, Vol. 45 (3), pg., 197

birmənalı qəbul edilmir və sözügedən problemlərin həllinə dair mübahisəli məqamların mövcudluğunu danmaq olmaz. Bundan başqa, süni intellektin məhkəmə sistemində tətbiqi zamanı ən qüsurlu məqamlardan biri qərəzli alqoritmlərdən istifadə ilə bağlıdır. Belə ki, özü-özünü inkişaf etdirən son nəsil süni intellekt proqramları məlum məsələdir ki, hər bir halda insan tərəfindən verilmiş məlumatlar əsasında öyrənir və özünü "yetişdirir". Əgər bu məlumatlar qərəzli olarsa, süni intellektin də çox güman ki, qərəzli qərarlar qəbul etməsi riski vardır. Digər bir tərəfdən qeyd etməliyik ki, süni intellektdə psixoloji faktorlar, xüsusilə də insan hissləri olmadığından onda insan ünsiyyəti və vicdani qənaət çatışmazlığı vardır[5]. Halbuki, hakimlik fəaliyyəti yalnız qanunları tətbiq etməkdən ibarət deyil, bu fəaliyyət həmçinin insani, başqa sözlə, humanist dəyərləri də əks etdirməlidir. Təəssüf ki, bu incə detal süni intellekt dəstəkli "robot hakimlər"də yoxdur.

Bu sahədəki bütün çətinliklərin olmasını qəbul etsək də, düşünürük ki, hər bir yenilikdə olduğu kimi süni intellektin də meydana çıxardığı problemlər zamanla öz müsbət həllini tapacaq və onun ədalət mühakiməsində tətbiq edilməsi məhkəmə sistemində böyük uğurların qazanılmasını şərtləndirəcəkdir.

Tarixinə nəzər saldıqda, görərik ki, süni intellekt tərəfindən həyata keçirilən məhkəmə prosesləri dünyada ilk dəfə 2017-ci ildə Çinin Hangzhou şəhərində tətbiq olunmağa başlanmışdır[6]. Daha sonra Çinin Pekin və Guangzhou şəhərlərində də süni intellektdən məhkəmədə ədalət mühakiməsinin həyata keçirilməsində istifadə edilmişdir.

Qeyd edək ki, Pekin İnternet Mərkəzinin 27 iyun 2019-cu il tarixdə istifadəyə verdiyi onlayn məhkəmə mərkəzində xidmət edən süni intellekt olan hakim real həyatda olan həqiqi bir hakimin xarici görünüşü, səsi və davranışı model kimi götürülərək hazırlanmışdır.

Çində fəaliyyət göstərən üç süni intellekt internet məhkəməsinin yurisdiksiyasına aşağıdakılar daxildir:

- onlayn mal göndərmə və xidmətlərin göstərilməsi ilə bağlı mübahisələr
- müəlliflik hüququ ilə bağlı mübahisələr
- e-ticarətlə gerçəkləşdirilmiş alqı-satqı müqaviləsi üzrə məhsulun keyfiyyəti ilə əlaqədar yaranmış mübahisələr və s.

---

[5] **Sumer Seda Yağmur.** Ceza Yargılamasının Geleceği: Robot hakim". Dokuz Eylül Universitesi Hukuk Fakültesi Dergisi. C 23, S. 2, 2021, s. 1580

[6] **Yasin Aydoğdu.** Hukuk Devletinin Digital Çağdaki Görünümü (Riskler, Önlemler ve Bir Öneri Olarak Robot Yargıçlar). Ankara, Seçkin Hukuk, 2023, s. 144

Çində süni intellekt məhkəməsi günün 24 saatı və həftənin 7 günü fəaliyyət göstərir. Məhkəmə proseslərinin ortalama müddəti 28 dəqiqəyə qədərdir və iddianın verilməsindən məhkəmənin yekun qərarının çıxarılmasına qədər olan təxmini müddət isə 38 günü əhatə edir[7].

Qeyd edək ki, süni intellekt məhkəməsi tərəfindən baxılan işlərdə sübut növü kimi əsasən blokçeyn ("blokchain") məlumatlarından istifadə olunur. "Bloklar zinciri" anlamını verən blokçeyn rəqəmsal məlumatların xalqa açıq olan verilənlər bazasında saxlanılması sistemidir. Təsadüfi deyil ki, Çin Ali Məhkəməsi blokçeyn texnologiyası ilə təsdiqini tapan dəlillərin hüquqi mübahisələrin həllində qəbul edilən olması qənaətinə gəlmişdir.

Məhkəmə prosesi dəlillərin təqdim olunması, eləcə də izahatların dinlənilməsi də daxil olmaqla onlayn şəkildə həyata keçirilir. Ədalət mühakiməsinin üsullarına qanuni şəkildə riayət etmək üçün onlayn video çəkiliş sistemi vasitəsilə "üz-üzə və birbaşa ünsiyyət" prinsipi tətbiq edilir.

Süni intellekt məhkəməsində ədalət mühakiməsini süni məhkəmə kürsüsündə əyləşən və qara rəngli mantiya geyinmiş bir süni intellekt hakimi həyata keçiririr. Hakim tərəflərlə (iddiaçı və cavabdeh) görüntülü söhbət yolu ilə əlaqəyə girir. Göründüyü kimi süni intellekt məhkəməsində hakim virtual bir şəxs, tərəflər isə real insanlardır.

Məhkəmə prosesi "robot hakim"in iddiaçı tərəfindən təqdim edilən blokçeyn dəlillərinə cavabdehin hər hansı bir etirazı olub-olmadığı sualını verərək başlayır və sonda mövcud sübutlara qiymət verərək yekun qərarını verir.

Çinin rəsmi "Xinhua" Xəbər Agentliyi 2019-cu ilin mart-oktyabr aylarında baş tutmuş 31 milyondan çox məhkəmə prosesində mübahisələrin süni intellekt dəstəkli ağıllı internet məhkəmələri tərəfindən həll edildiyini bəyan etmişdir. Həmin il Çinin Ali Məhkəməsi tərəfindən yayımlanan bir icmal raportuna görə 73200 vəkillə birlikdə bir milyondan çox vətəndaş ağıllı məhkəmə sistemində qeydiyyatdan keçmişdir.

2019-cu ilin dekabr ayında Çinin Ali Məhkəməsi tərəfindən yayımlanan "Çin məhkəmələri və internet ədalət mühakiməsi" adlı hesabatda süni intellekt dəstəkli və informasiya texnologiyaları ilə bağlı olan vasitələrin məlumatlarının dəlil kimi qəbul edilməsini yolverilən hesab edən innovativ və perspektivli bir görüş irəli sürmüşdür. Belə ki, qərarda "... "Big data", "bulud hesablama", "blokçeyn", süni intellekt məhkəmə proseslərində səs tanıma texnologiyası, rəqəmsal sübut təqdimatı, sənədlərin avtomatik

[7] **Paul Santosh.** Will Artificial intelligence replace Judging? 25 may 2020, https://www.barandbench.com/columns/is-artificial-intelligence-replacing-judging

təsdiqlənməsi, eyni zamanlı elektron qovluq yaratma, süni intellekt tərəfindən dəstəklənən işlərin idarə olunması kimi modulların tətbiq olunmasının qanunauyğun sayılan dəlillər sırasına daxil edildiyi" bildirilmişdir.

Çində süni intellektdən məhkumluq, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə, şərti məhkumetmə, qətimkan tədbirləri kimi cinayət və cinayət-prosessual qanunvericiliyin institutlarının tətbiqi zamanı da istifadə olunur.

Ölkədə, həmçinin təqsirləndirilən şəxsin yenidən cinayət törətməyə meyilli olub-olmamasını ölçməyə çalışan süni intellekt proqram təminatlı "Alqoritmik risk dəyərləndirmə sistemi"ndən ("Algorithmic risk assessment systems") də faydalanılır.

Hazırda bu sistem ibtidai istintaq zamanı tətbiq olunan başqa ölkələrdə də (məsələn, ABŞ) hakimlərin qərar verməsinə böyük təsir göstərir. ABŞ-da məhkumların təkrar cinayət törətmə riskini hesablayan "Compas" adlı süni intellekt dəstəkli proqramdan istifadə olunur.

Nəzəriyyədə "Alqoritmik risk dəyərləndirmə sistemi"ni tənqid edərək onun bəzən yanlışlıqlara yol verməyinə və irqçi davranışlar nümayiş etdirməyinə görə ədalət mühakiməsinin həyata keçirilməsində ciddi xətalara yol verdiyini iddia edənlər də vardır.

Hazırda dünyada ədalət mühakiməsinin həyata keçirilməsində süni intellektdən istifadə olunması prosesinin sürətləndiyini deyə bilərik. Məsələn, İngiltərədə fəaliyyət göstərən "Traffic Penalty Tribunal" adlı onlayn sürücülük və yol hərəkəti üzrə cəza məhkəmələri fəaliyyət göstərir. Bu məhkəmələr sürücülərin sürücülük və yol hərəkəti üzrə cərimələri ilə bağlı mübahisələrini onlayn şəkildə həll etməyə imkan yaradır.

Estoniya, Litva və Hollandiya təcrübəsində də artıq ədalət mühakiməsinin həyata keçirilməsi zamanı süni intellektdən istifadə edilir. Estoniyada məhkəmələrdə məbləği 7000 avroya qədər olan kiçik iddialarla bağlı işlərdə süni intellektdən qərar qəbul etmə prosesində istifadə edilir. Litva məhkəmə sistemində süni intellekt oxşar xarakterli işlərin avtomatik olaraq qruplaşdırılması və kateqoriyalara ayrılması məqsədilə istifadə edilir. Bu isə hakimlərə müəyyən növ işləri daha asanlıqla tapmağa və məhkəmə qərarlarını müqayisə etməyə imkan yaradır. Hollandiyada 2010-2017-ci illərdə ədalət mühakiməsinin həyata keçirilməsində, xüsusilə boşanma işləri və vasitəçilik fəaliyyətində "e-Court" sistemi tətbiq olunmuşdur. Avropa ölkələrinin məhkəmə sistemində rəqəmsal dəlil toplanması və onların təsnif edilməsinə kömək edən "e-Doscovery" adlı, habelə ədalət mühakiməsinin

sonunda veriləcək qərarları təxmin etməyə çalışan “Scotus” adlı süni intellekt proqramlarının tətbiqi geniş vüsət almışdır.

Göründüyü kimi ədalət mühakiməsində süni intellektin tətbiqinə nəzər saldıqda bu sahədə hakimə yardım edən proqramlardan tutmuş qərar layihələri hazırlayan və ya qərarları proqnozlaşdıran proqramlara və hətta birbaşa qərar qəbul edən robot hakimlərə qədər geniş spektrə malik sistemlərin mövcud olduğunu görürük[8].

***Ümumiləşdirsək, ayrı-ayrı ölkələrin məhkəmə sistemində istifadə olunan süni intellekt dəstəkli proqramları aşağıdakı kimi qruplaşdıra bilərik:***

*1. Hakimə kömək edən süni intellekt dəstəkli proqramlar –*

Bu cür proqramlara ilk olaraq “Sənədlərin təhlili”ni edən proqramları aid etmək olar ki, onlar hakimlərin işini asanlaşdırmaq üçün müəyyən məzmunlu sənədlərin və mətnlərin axtarışına yardım edə bilirlər. Bu proqramlar oxunması uzun zaman tələb edən iri həcmli sənədlərlə qısa zamanda tanış olmaq və onları təhlil etmək üçün geniş istifadə olunur. Məsələn, süni intellekt dəstəkli “elektron kəşf sistemləri” ilə milyonlarla sənədi tez və ucuz qiymətə araşdırmaq mümkündür.

Hakimlərə kömək edən və məhkəmə orqanlarının işini asanlaşdıra bilən ikinci növ süni intellekt dəstəkli proqramlara “Sənədlərin yaradılması” ilə bağlı olanları aid etmək olar. Bu cür proqramlar ədalət mühakiməsinin həyata keçirilməsində standartlaşdırılmış sənədlərin hazırlanması “işini görür”.

Bu proqramlardan həmçinin tərəflərin məhkəmə iclasında şifahi verdikləri ifadələrini təbii dildə işləmə (“NLP”) və səs təhlili yolu ilə protokola köçürülməsi, məhkəmə prosesi protokollarının hazırlanması, proses iştirakçılarının üz tanıma texnologiyası sayəsində and içməsi və ya etiraf xarakterli ifadə verməsi, hətta proses iştirakçılarının bədən dili, jest və mimika analizi ilə doğru danışıb-danışmadığının təxmin edilməsi kimi məsələləri nəzərdən keçirmək üçün də istifadə edilir. Yeri gəlmişkən, onu da qeyd edək ki, bu proqramlardan notarius fəaliyyətində (məsələn, vəsiyyətnamələr hazırlanır) və özəl şirkətlərin işlərində (məsələn, müqavilələr tərtib olunur) də faydalanılır.

*2. Məhkəmə qərarlarını proqnozlaşdıran və məhkəmə qərarlarının layihələrini hazırlayan süni intellekt dəstəkli proqramlar –*

---

[8] **Bilgin Hikmet.** “Yapay Zekânın Mahkeme Kararlarında Kullanımına Uluslararası Bir Bakış ve Robot Hâkimler Hakkında Düşünceler”, İnÜHFD, 13(2), 2022, s. 405

Bu proqramlar presedent hüququ əsasında maşın öyrənmə texnologiyasından istifadə etməklə hakimin iş üzrə hansı hüquqi əsaslandırma əsasında qərar verəcəyini təxmin etməyə çalışırlar. Bu süni intellekt dəstəkli proqramlar öz nəticələrini induktiv şəkildə keçmişdə qəbul edilmiş məhkəmə qərarları ilə müqayisəli təhlil etməklə qəbul edirlər.

*3. Birbaşa məhkəmə qərarları qəbul edən süni intellekt dəstəkli proqramlar ("Robot hakim")* -

Bu barədə yuxarıda Çin təcrübəsi haqda bəhs etdiyimizdən təkrarlıq olmasın deyə, əlavə məlumat vermirik. Təkcə, onu qeyd edirik ki, fikrimizcə, "robot hakim"in məhkəmə sistemində müstəqil şəkildə fəaliyyət göstərə bilməsi yaxın gələcəkdə cəmiyyət həyatımızda gerçəkləşməyəcəkdir. Lakin hesab edirik ki, bu, hələlik utopik bir layihə kimi görünsə də, "robot hakim"lərin müstəqil fəaliyyət göstərməsi uzaq gələcəkdə reallaşa bilər və ona görə də bu fikrə tamamilə qarşı çıxmağın düz olmadığı qənaətindəyik.

Bu gün süni intellektdən beynəlxalq məhkəmələrin təcrübəsində də faydalanılır. Nəzər salsaq, görərik ki, 2016-cı ildə ingilis alimləri tərəfindən hazırlanan süni intellekt dəstəkli "robot hakim" Avropa Məhkəməsində baxılmış işlər üzrə gəldiyi nəticələrdən 100-dən 79-nu doğru təxmin etmişdir. Qeyd edək ki, Londondakı UCL Universiteti ilə Sheffield Universitetindəki kompüter mühəndislərinin təkmilləşdirdiyi alqoritm cinayət işlərini həm hüquqi, həm də əxlaqi kriteriyalar üzrə araşdıra bilir. Alqoritmi təkmilləşdirən mühəndislər qrupu tərəfindən süni intellektin qoşulduğu kompütere yüklənən Avropa Məhkəməsində əvvəllər baxılmış olan 584 işə fikirlər yürüdərək həll etməyə çalışan robot hakim demək olar ki, hər 5 qərardan 4-nün nəticəsini doğru olaraq təxmin etmişdir.

Bu prosesin sürətlə irəliləməsinin labüd olduğunu anlayan mütəxəssislər artıq süni intellektin ədalət mühakiməsi sistemləri və onlara aid məsələlərdə istifadəsinin qaydaları haqqında düşünməyə başlayıbdır. Belə ki, süni intellektin artan əhəmiyyətini, eləcə də ədalət mühakiməsinin keyfiyyətini artırmaq üçün ondan istifadənin gözlənilən üstünlüklərini nəzərə alaraq Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən 2018-ci ildə "Süni intellektin ədalət mühakiməsi sistemləri və onlara aid münasibətlərdə istifadəsinə dair Avropa Etik Xartiyası" qəbul edilmişdir. Süni intellektin məhkəmə sistemində tətbiqinin həm perspektivləri, həm də riskləri olduğunu hesab edən Avropa Komissiyasının (CEPEJ) mövqeyinə görə ədalət mühakiməsinin həyata keçirilməsində süni intellektdən istifadə olunması məhkəmələrin fəaliyyətində səmərəliliyin və

keyfiyyətin yüksəldilməsinə töhfə verə bilər. Lakin bu, hər bir halda, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası və "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Avropa Konvensiyasında təsbit olunan insan hüquq və azadlıqlarına təminat verilməklə həyata keçirilməlidir. Bu baxımdan süni intellektlə bağlı Avropa Etik Xartiyasında sözügedən məsələnin tənzimlənməsi ilə bağlı aşağıdakı beş prinsip müəyyən edilmişdir:[9]

**I prinsip: Fundamental hüquqlara hörmət prinsipi** – Bu prinsip süni intellektə əsaslanan və fundamental hüquqlara uyğun gələn alət və xidmətlərin işlənib hazırlanmasının və tətbiqinin təmin edilməsini nəzərdə tutur. Bu prinsip məhkəməyə çıxış hüququ, vəkildən istifadə hüququ, eləcə də çəkişmə, tərəflərin bərabərliyi, hakimlərin qərəzsizliyi və müstəqillliyi prinsiplərinin təmin olunmasına istiqamətlənmişdir.

**II prinsip: Ayrı-seçkiliyin yolverilməzliyi prinsipi** – Bu prinsip ayrı-ayrı şəxslər və ya şəxslər qrupları arasında hər hansı formada olan ayrı-seçkiliyin yaranmasının və bunun genişlənməsinin qarşısını almağa yönəlmişdir.

**III prinsip: Keyfiyyət və təhlükəsizlik** – Bu prinsip məhkəmə qərarlarının və məlumatlarının işlənməsi zamanı sertifikatlaşdırılmış mənbələrə istinadı və təhlükəsiz texnoloji mühitdə hazırlanmış modellərin tətbiqini nəzərdə tutur. Bu prinsipə əsasən maşın təlimi modellərinin layihələndirici mütəxəssisləri ədalət mühakiməsi sisteminin aidiyyəti prosessual "fiqurları" (hakim, dövlət ittihamçısı, vəkil və s.) ilə, habelə hüquq və sosial elmlər sahəsində tədqiqatçı alimlərin və müəllimlərin (iqtisadçı, sosioloq və s.) geniş təcrübəsini toplamaq imkanına malik olmalıdırlar.

**IV prinsip: Şəffaflıq, qərəzsizlik və dürüstlük** – Bu prinsip məlumatın işlənməsi metodlarının əlçatan və anlaşıqlı olmasını əks etdirir. Yəni hüquqi nəticələrdən və şəxslərə təsirdən asılı olaraq müəyyən emal metodlarının əqli mülkiyyətin mühafizəsi ilə şəffaflığın təmin edilməsi tələbi (işlənib hazırlanma prosesinə çıxış imkanı), neytrallıq (qərəzsizlik), loyallıq və dürüstlük (prioritet - ədalət mühakiməsinin maraqları) arasında balans tapılmalıdır.

---

[9] Süni intellekt və robot texnikası insan hüquqları konkestində ("elmi məqalələr toplusu"). Bakı, "Elm v təhsil", 2020. **Ramin Qurbanov.** "Məhkəmə sistemlərində süni intellektin tətbiqinin etik prinsipləri haqqında" Avropa Xartiyası, səh. 34-38

**V prinsip: İstifadəçi tərəfindən nəzarət prinsipi –** Bu prinsip göstərişlərə əsaslanan yanaşmadan kənarlaşmaq və istifadəçiyə öz seçiminə görə məsul olan məlumatlandırılmış şəxs rolunda çıxış etməyə imkan verməyi ehtiva edir. Bu prinsipə görə istifadəçilərin muxtariyyəti gücləndirilməli və yalnız süni intellektə əsaslanan alətlərin və xidmətlərin istifadəsi ilə məhdudlaşdırılmalıdır. Ədalət mühakiməsi sisteminin mütəxəssisləri istisnasız olaraq hər zaman məhkəmə qərarlarına və nəticənin əldə olunması üçün istifadə edilən məlumatları yenidən nəzərdən keçirmək imkanına malik olmalıdırlar.

Azərbaycan Respublikasında ədalət mühakiməsi zamanı süni intellektin tətbiqi məsələsinə də toxunmaq məqsədəmüvafiq olardı. Qeyd edək ki, ölkəmizdə ədalət mühakiməsi zamanı süni intellekt hələlik tam tətbiq olunmasa da, sevindirici haldır ki, bu prosesə keçid başlamışdır. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmizdə hökumətin və məhkəmə sisteminin rəqəmsal transformasiyaya və məhkəmə proseslərinin avtomatlaşdırılmasına yönələn bir sıra mütərəqqi addımlar atılmış və bu gün də atılmaqdadır. Bu çərçivədə gələcəkdə süni intellektin ölkəmizdə tətbiqi üçün zəmin yaratmaq məqsədilə davamlı olaraq müxtəlif texnoloji və rəqəmsal sistemlərin yaradılması istiqamətində işlər aparılmaqdadır. Təsadüfi deyil ki, artıq ölkəmizdə tətbiq olunan "Elektron məhkəmə" informasiya sistemi məhkəmə işlərinin idarə edilməsini xeyli asanlaşdırır və müəyyən prosesləri avtomatlaşdırmağa kömək edir. *Bu sistemin ehtiva etdiyi imkanlar isə aşağıdakılardır:*

**1.** Məhkəmə işlərinin elektron qeydiyyatı və və izlənilməsi – Proses iştirakçıları öz işlərini elektron formada qeydiyyata ala bilir və məhkəmə prosesinin gedişini rahatlıqla izləyə bilir;

**2.** Dəlillərin elektron qeydiyyatının aparılması – Proses iştirakçıları məhkəməyə təqdim etməli oduqları sənədləri və digər dəlilləri elektron şəkildə yükləyə bilir;

**3.** Video konfrans vasitəsilə iclasların keçirilməsi – Məhkəmə prosesləri zamanı video konfrans texnologiyasından istifadə edilir ki, bu da müəyyən hallarda məhkəmə işlərinin məsafədən idarə edilməsi imkan verir.

Qeyd edək ki, ötən il Şuşa şəhərində "Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi"nə həsr olunmuş "Ədalət mühakiməsi və informasiya texnologiyaları: müasir çağırışlar" mövzusunda keçirilmiş beynəlxalq konfrans zamanı jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimov süni intellektin ədalət mühakiməsinin həyata keçirilməsində tətbiqi məsələsinə toxunaraq

demişdir: “Dövlətlər robototexnika, maşın öyrənməsi, süni intellekt, “Big Data” kimi sürətli dəyişən texnoloji yeniliklərin yaratdığı imkanlarla yanaşı, onların gətirdiyi müasir çağırışlarla da üzləşirlər. Bu nadir çağırışlara cavab vermək üçün dövlət strukturlarının müasir tələblərə uyğun qurulması, peşəkarlığın artırılması və innovativ texnologiyaların geniş tətbiqi və dövlət xidmətlərində çevikliyin artırılması zamanın tələbinə çevrilib”[10].

Beləliklə, sonda o nəticəyə gələ bilərik ki, yaxın gələcəkdə ölkəmizin məhkəmə sisteminin daha da təkmilləşdiririlməsi və ədalət mühakiməsinin keyfiyyətinin artırılması sahəsində səmərəli layihələrin gerçəkləşdirilməsi qaçılmazdır. Bütün bunlar isə son nəticədə ölkəmizdə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı süni intellektdən istifadə olunmasının mümkünlüyünü deməyə əsas verir.

**İstifadə olunmuş ədəbiyyatın və internet resurslarının siyahısı:**

**1. Bilgin Hikmet.** “Yapay Zekânın Mahkeme Kararlarında Kullanımına Uluslararası Bir Bakış ve Robot Hâkimler Hakkında Düşünceler”, İnÜHFD, 13(2), 2022, s.405-419.

**2. Mcintyre, Joe/ Olijnyk, Anna/Pender, Kieran.** Civil courts and COVİD-19: Challenges and oppurtunities in Australia, Alternative Law Journal, 2020, Vol. 45 (3)

**3. Paul Santosh.** Will Artificial intelligence replace Judging? 25 may 2020, https://www.barandbench.com/columns/is-artificial-intelligence-replacing-judging

**4. Sumer Seda Yağmur.** Ceza Yargılamasının Geleceği: Robot hakim”. Dokuz Eylül Universitesi Hukuk Fakültesi Dergisi. C 23, S. 2, 2021.

**5. Schlaefli Samuel.** “Der Roboter dein Richter und Tröster”. https://www.cetoday.ch/news/2021-07-18/der-roboter-dein-richter-und-troester

**6.** Süni intellekt və robot texnikası insan hüquqları konkestində (“elmi məqalələr toplusu”). Bakı, “Elm v təhsil”, 2020

[10] https://azerbaijan-news.az/az/posts/detail/ali-mehkemenin-sedri-azerbaycanda-reqemsallasma-sahesinin-inkisafina-boyuk-onem-verilir-1717487296

**7. Yasin Aydoğdu.** Hukuk Devletinin Digital Çağdaki Görünümü (Riskler, Önlemler ve Bir Öneri Olarak Robot Yargıçlar). Ankara, Seçkin Hukuk, 2023

**8.** https://azerbaijan-news.az/az/posts/detail/ali-mehkemenin-sedri-azerbaycanda-reqemsallasma-sahesinin-inkisafina-boyuk-onem-verilir-1717487296

**9.** https://azedu.az/news/81256/

10. https://cbddo.gov.tr/uyzs



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

## 2024-cü ilin iyul-dekabr aylarında keçirilən tədbirlərin xülasəsi

İyul ayının 5-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi "Femida Könüllüləri" Təşkilatının "Legal Meet up" platforması çərçivəsində Naxçıvanda fəaliyyət göstərən könüllülərlə görüşüb. Görüşdə sədr təcrübələrini bölüşüb, Femida könüllülərini maraqlandıran sualları cavablandırıb.

Sədr bildirib ki, gənc hüquqşünasların gələcək fəaliyyətlərinə töhfələri baxımından Femida könüllülərinin fəaliyyəti təqdirəlayiqdir. Tələbələrin və gənclər təşkilatlarının təşəbbüslərini yüksək qiymətləndirən sədr könüllülərin məhkəmələrdə təcrübə keçmələri üçün hər cür şəraitin yaradıldığını qeyd edib.



Təşkilatın Naxçıvan Nümayəndəliyinin səlahiyyətli rəhbəri Yusif Mirzəzadə təşkilatın cari fəaliyyəti barədə məlumat verərək görüş üçün könüllülər adından Səadət Bəktaşiyə minnətdarlığını bildirib.

Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi ilə yanaşı, Məhkəmənin kollegiya sədrləri, əməkdaşlar da iştirak ediblər.

Qeyd edək ki, gənc peşəkar hüquqşünasların yetişdirilməsinə dəstək, məhkəmələrdə ictimai nəzarətin gücləndirilməsi, məhkəmə xidmətlərində vətəndaş məmnuniyyətinin təmin edilməsi, habelə ölkədə aparılan təhsil və gənclər siyasətinə töhfə vermək məqsədilə həyata keçirilən "Femida Könüllüləri" layihəsinin Naxçıvanda tətbiqinə cari ilin aprel ayında başlanıb, gənclər hazırda mərhələli şəkildə Naxçıvan Muxtar Respublikasında yerləşən məhkəmələrdə könüllülük fəaliyyətinə cəlb olunurlar.

## *Ali Məhkəmənin mətbuat xidmətindən*

İyul ayının 22-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin videokonfrans formatında geniş tərkibdə iclası keçirilib.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən birinci instansiya məhkəmələrinin sədr və hakimlərinin iştirakı ilə cari ilin birinci yarımilinin yekunları müzakirə olunub.

İclası giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi açaraq bildirib ki, ölkəmizdə insan hüquqlarının təmin olunması və müasir standartlara cavab verən məhkəmə-hüquq islahatlarının aparılması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bütün bu islahatlar ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, işlərə daha operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Sədr bildirib ki, muxtar respublikada ötən il müşahidə olunduğu kimi cari ilin ilk yarısında da məhkəmələrə müraciətlərin sayında diqqətəlayiq artım müşahidə olunur ki, bu da vətəndaşların məhkəmələrə inamının və mübahisələri hüquq müstəvisində həll etmək istəklərinin göstəricisidir. Fərqli predmetlərə dair daxil olan mübahisələrin bir qismini muxtar respublikada keçmiş təcrübədə rast gəlinməmiş iddialar təşkil edir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin gündəliyinə salınmış məsələlərə baxılıb, muxtar respublikanın ixtisaslaşdırılmış və rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş işlər üzrə məhkəmə aktlarından verilmiş apellyasiya şikayətlərinin nəticələri ətraflı təhlil edilib, geniş fikir mübadiləsi aparılıb.




Daha sonra cari ilin ilk yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aparatı tərəfindən keçirilmiş tədbirlər barədə iştirakçılara məlumatlar verilərək bildirib ki, il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən hüquqi maarifləndirmə sahəsində diqqətəlayiq işlər həyata keçirilib və keçirilməkdədir. İlk altı ay ərzində ölkəmiz üçün əlamətdar günlər qeyd olunub, Məhkəmə tərəfindən xeyriyyə tədbirləri həyata keçirilib, Ali Məhkəmə tərəfindən muxtar respublika məhkəmələrinin sədr

və hakimlərinin iştirakı ilə keçirilmiş müxtəlif səpkili seminarlarda təcrübədə hakimlərin qarşılaşdığı problemlər, onların həlli üsulları müzakirə edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasa yekun vuraraq qeyd edib ki, məhkəmələrin qarşısındakı əsas vəzifələr məhkəmə hakimiyyətinin müstəqilliyinə və ədalət mühakiməsinin səmərəliliyinə, məhkəmələrin fəaliyyətinin şəffaflığına yönəlmiş fəaliyyətin davamlılığını təmin etməkdir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi də bu istiqamətdə fəaliyyətini davam etdirəcəkdir.

≈≈≈

İyul ayının 24-də Mərkəzi Seçki Komissiyası tərəfindən Ali Məhkəmə və Apellyasiya Məhkəmələri ilə birgə layihə çərçivəsində növbədənkənar parlament seçkilərində seçki mübahisələrinin məhkəmə qaydasında həllinə həsr olunan regional seminar-müşavirələrə start verilib. Həmin tədbirlərin tərkib hissəsi olaraq Naxçıvan "ASAN xidmət" mərkəzində sözügedən mövzu ilə bağlı seminar-müşavirə keçirilib.

Tədbirdə ilk öncə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Mərkəzi Seçki Komissiyasının üzvü Bəxşeyiş Əsgərov tədbirin əhəmiyyətindən danışaraq bildirib ki, bu cür tədbirlər seçki vaxtı namizədlərin narazılıqlarının sayının azalmasında, şikayətlər qarşısında ədalətli qərar verməklə həllində xüsusi önəm daşıyır. Seçkilərdə qeydiyyata alınmış 26 siyasi partiyadan 25-nin iştirak etdiyini vurğulayan komissiya üzvü vətəndaşların seçki hüquqlarının realizə olunmasında qanunvericiliyin tələblərinə dəqiqliklə riayət etmələrinin vacibliyini diqqətə çatdırıb və bununla əlaqədar zəruri tövsiyələr verib. O, dairə seçki komissiyalarında MSK-ya, MSK-dan da məhkəməyə ünvanlanan şikayətlərin məhz bu tədbirlər vasitəsilə elə birinci mərhələdə həll olunacağına ümidvar olduğunu bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Səxavət Novruzov çıxış edərək qeyd edib ki, şikayətlərə Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin tələblərinə əsasən baxılır. İş üzrə məhkəmə qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 3 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər. Şikayətə 3 gün müddətində, səsvermə gününə 30 gündən az müddət qalırsa iki gün müddətində (lakin səsvermə günündən gec olmayaraq), səsvermə günü və həmin gündən sonra daxil olmuş ərizələrə isə dərhal baxılmalıdır.

Sonra Ali Məhkəmənin hakimi Müşfiq Həsənovun “Seçkilərdə seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər”, Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadənin “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin seçki komissiyalarında araşdırılması prinsipləri və xüsusiyyətləri” mövzularında çıxışları dinlənilib.

Seminar-müşavirəyə seçki mübahisələrinin məhkəmə qaydasında həlli ilə bağlı fikir mübadiləsi və müzakirələrdən sonra yekun vurulub.

≈≈≈



“Ətraf mühitin gücləndirilməsi: Maarifləndirmə və hüquq mühafizə tədbirlərinin rolu” ECOLEAD layihəsi çərçivəsində “Ekoloji su hüquqpozmalarının iqlim dəyişikliyinə təkan verməsi” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib önünə gül dəstələri düzüblər.

Tədbirdə Ulu Öndərin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər rəsmi şəxslərin iştirakı ilə keçirilmiş

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iştirak edib.

2024-cü il sentyabrın 6-da Bakıda Azərbaycan Hakimlər İttifaqı və Azərbaycan Respublikası Ali Məhkəməsinin birgə təşkilatçılığı ilə “Law and climate” adlı beynəlxalq konfrans keçirilib.



Azərbaycan Hakimlər İttifaqının sədri Ramiz Rzayev, COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, Beynəlxalq Hakimlər İttifaqının prezidenti Duro Sessa, Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyeva, Türkiyənin Konstitusiya Məhkəməsinin sədr müavini Basri Bağcı, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, hakimlər, vəkillər, hüquqşünas alimlər və beynəlxalq ekspertlərin iştirakı ilə keçirilmiş tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iştirak edib.

Tədbirin məqsədi hüquq ictimaiyyətinin diqqətinin iqlim dəyişikliyi ilə bağlı dünyada gedən proseslərə cəlb edilməsi, bu sahədə mövcud beynəlxalq və milli hüquqi tənzimləmə alətləri barədə məlumatlılığın artırılmasıdır.

≈≈≈

2024-cü ilin sentyabrın 10-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.



İclasda çıxış edən Şuranın sədri İnam Kərimov ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində görülmüş işlər barədə məlumat verib.

Bildirilib ki, məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilir, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənir.

İclasda məhkəmə hakimiyyətinin nüfuzunun artırılması istiqamətində qarşıda duran vəzifələr də diqqətə çatdırılıb.

Daha sonra təqaüdə yola salınan hakimlər uzun illər məhkəmə sistemində öz fəaliyyəti ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfə verdiyinə görə fəxri fərmanla təltif ediliblər.

İclasda həmçinin intizam icraatı üzrə işlərə və kadr məsələlərinə baxılaraq müvafiq qərarlar qəbul edilib.

≈≈≈

Sentyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin konstitusiya icraatı qaydasında iclası keçirilib.

İclasda 2024-cü il sentyabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş seçkilərin nəticələrinə dair Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə konstitusiya icraatı qaydasında məhkəmə işinə baxılıb.

İclasın sonunda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 1 sentyabr 2024-cü il tarixdə keçirilmiş növbədənkənar seçkilərin nəticələrinə dair yekun qərarı elan edib.



Qərara əsasən, 2024-cü il sentyabrın-1-də keçirilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin nəticələrinə dair Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 10 sentyabr tarixli protokolu və ona əlavə edilmiş sənədlər “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 87.2, 87.11, 90.2, 90.3 və 91.2-ci maddələrinin

tələblərinə uyğun hesab edilib, seçki dairələri üzrə seçkilərin nəticələri bütövlükdə təsdiq olunub.

≈≈≈



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd edilir.

Anım Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivi Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət edib, ölkəmizin bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə gül dəstələri qoyub, şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər.

Anım Günü ilə əlaqədar Vətənin bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz xatirəsi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində bir dəqiqəlik sükutla yad edilib.

≈≈≈



2024-cü ilin oktyabrın 2-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.

Bildirilib ki, yeni nəsil hakim korpusunun çevik komplektləşdirilməsi məqsədilə hakimliyə namizədlərin seçim prosesləri şəffaf və təkmilləşdirilmiş mərhələlər üzrə davam etməkdədir.

İclasda Hakimlərin Seçki Komitəsinin müraciətinə baxılıb. Müsabiqəni uğurla başa vurmuş hakimliyə namizədlərlə fərdi söhbətlər aparılıb, onlara tövsiyələr verilib və yekunda birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunmaları üçün təkliflərin hazırlanması qərara alınıb.

Daha sonra cari məsələlərə, o cümlədən məhkəmə fəaliyyətinin ayrı-ayrı istiqamətləri ilə bağlı hüquqi akt layihələrinə dair fikir mübadiləsi aparılıb.

≈≈≈

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin olunmuş Zamiq Əliyev 2024-cü ilin oktyabrın 10-da kollektivə təqdim olunub.



Təqdimat zamanı çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi ölkənin hakim korpusunun daim yenilənməsi, təcrübəli hakimlərlə yanaşı, gənc kadrların fəaliyyətinə geniş şərait yaradılması, ədalət mühakiməsinə çatımlılığın yüksələn xətlə inkişaf etdirilməsi üçün görülən tədbirlər barədə məlumat verərək yeni təyin olunan hakimi məhkəmənin kollektivi və öz adından təbrik edib.

Sonra Zamiq Əliyev çıxış edərək ona göstərilən yüksək etimad üçün minnətdarlığını bildirərək bu etimadı layiqincə doğrultmağa çalışacağını bildirib.

≈≈≈

Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Bank və Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı ilə ölkəmizin kommersiya məhkəmələrinin hakimləri üçün "Maliyyə və bankçılıq" mövzusunda keçirilən təlimlərdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının sədri Səxavət Bəylərli iştirak edib.

Təlimin açılış mərasimində çıxış edən Ali Məhkəmənin Kommersiya kollegiyasının sədri Kəmalə Abiyeva bildirib ki, ölkə başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanın icrası qaydasında kommersiya məhkəmələri yaradılarkən əsas məqsəd sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin



hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasının təmin edilməsindən ibarət olub. Qeyd edilib ki, kommersiya məhkəmələrində ixtisaslaşmanın dərinləşməsi kommersiya mübahisələrinin daha sürətli həllinə təsir göstərən mühüm amildir.

Bildirilib ki, məhkəmələrdə bilavasitə bankların iştirak etdiyi, eləcə də iki sahibkarlıq subyektləri arasında banklar vasitəsilə qurulan münasibətlərdən yaranan mübahisələrə daha çox rast gəlinir. Kommersiya mübahisələrində ixtisaslı yanaşma onu tələb edir ki, mübahisəli münasibətə təkcə hüquqi deyil, həm də iqtisadi aspektlərdən yanaşılsın. Təlimin müvafiq kateqoriya mübahisələrə belə yanaşmanın təmin edilməsinə öz töhfəsini verəcəyi vurğulanıb.

Azərbaycan Hakimlər İttifaqının sədr müavini Ələddin Cəfərov çıxışında imzalanan Anlaşma Memorandumunun əhəmiyyətinə toxunaraq qeyd edib ki, təlimlər zamanı hakimlərə müvafiq qanunvericilik, Azərbaycanın iqtisadi və maliyyə sistemi, bank məhsulları və xidmətləri, valyuta rejimi, ödəniş sistemləri, banklarda və bank olmayan kredit təşkilatlarında kreditlərin verilməsi, lizinq əməliyyatları, mübahisələrin həlli yolları və digər əhəmiyyətli mövzular təqdim ediləcək.

Azərbaycan Banklar Assosiasiyasının İcraçı direktoru Yunus Abdulov isə təmsil etdiyi təşkilatın fəaliyyəti, məqsədi barədə təlim iştirakçılarına ətraflı məlumat verib. Qeyd edilib ki, ABA ilə Azərbaycan Hakimlər İttifaqı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumun məqsədlərindən biri də ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatında olan bank mübahisələrinin həllində peşəkar fəaliyyətin artırılmasına töhfə vermək, mülki və kommersiya mübahisələri üzrə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmə təcrübəsində qarşıya çıxan məsələlərin müzakirəsindən ibarətdir. Əməkdaşlıq çərçivəsində bu təlimin də hakimlərin ixtisaslaşmasına müsbət təsir göstərəcəyinə əminlik ifadə olunub.

≈≈≈

## *Ali Məhkəmənin mətbuat xidmətindən*



Oktyabr ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində “açıq qapı” günü təşkil olunub. Vətəndaşlar onları narahat edən hüquqi məsələlərlə bağlı gün ərzində hüquqi məsləhət almaq imkanı əldə ediblər.

Bununla birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Naxçıvan Dövlət Universitetinin tələbələri üçün də öz qapılarını açıb. Qonaqlar Ali Məhkəmənin inzibati binası, hakim və işçilərin iş otaqları ilə tanış olub, məhkəmə iclas zallarını, məhkəmənin kitabxanasını ziyarət edib, ayrı-ayrı şöbələrin iş sistemi ilə bağlı məlumatlandırılıblar.

Məhkəmə ilə tanışlıq çərçivəsində Mülki kollegiyanın sədri Əli Allahverdiyev tələbələrə məhkəmələrin dövlət quruluşunda yeri və rolu, məhkəmənin iş rejimi ilə bağlı məlumatlar verib, onların suallarını cavablandırıb.

Həmçinin, qonaqlara Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, vətəndaşların müraciət imkanlarının genişləndirilməsi, elektron sistemlərin tətbiqi və digər yeniliklər barədə məlumat verilib.

Sonda qonaqlar xoş təəssüratlarını bölüşüb, xatirə fotoşəkli çəkilib.

≈ ≈ ≈




Oktyabrın 26-da Naxçıvan şəhərindəki “Saat Meydanı” İstirahət Mərkəzində “GreenFest” festivalı keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi “İqlim dəyişikliyinin qarşısının alınmasında beynəlxalq münasibətlərin rolu” mövzusunda panel müzakirəsində çıxış edib.

2024-cü ilin oktyabrın 30-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.

İclasda çıxış edən Şuranın sədri İnam Kərimov son dövrlərdə məhkəmə sahəsində görülmüş işlər barədə məlumat verərək bildirib ki, bu gün ölkəmizdə məhkəmə işinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində əməli tədbirlər həyata keçirilir və bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənir.

Eyni zamanda aparılan kadr islahatları, Ali Məhkəmə və Apellyasiya instansiyası məhkəmələrinə yeni hakimlərin təyin edilməsi və peşəkar hakim korpusununun formalaşdırılmasının ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına mühüm töhfə verəcəyi diqqətə çatdırılıb.

İclasda həmçinin intizam icraatı üzrə işlərə, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və kadr məsələlərinə baxılaraq müvafiq qərarlar qəbul edilib.

Daha sonra təqaüdə yola salınan hakimlər uzun illər məhkəmə sistemində öz fəaliyyəti ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfə verdiyinə görə fəxri fərmanla təltif ediliblər.

≈ ≈ ≈

Noyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivi vətənin bütövlüyü uğrunda canından keçmiş Firuz Qureşli, Qəşəm Səfərov və Tural Məmmədovun ailələri ilə görüşüb, şəhidlərin əziz xatirəsini yad ediblər. Görüşlər zamanı bildirilib ki, Vətən müharibəsi və Antiterror əməliyyatında Müzəffər Ordumuz Ali Baş komandan İlham Əliyevin başçılığı ilə Qarabağı və digər ərazilərimizi işğaldan azad etməklə 30 illik yurd həsrətinə son qoydu. Azərbaycan Ordusunun əsgər və zabitləri, hərbçiləri döyüş meydanında əsl qəhrəmanlıq göstərərək Şanlı tariximizi möhtəşəm Qələbə ilə şərəfləndirdi.



Şəhidlərimizin ailələri qazanılan qələbədə övladlarının da payı olduğu üçün fəxr etdiklərini bildiriblər. Sonra şəhidlərimizin keçdikləri döyüş yolundan, xatirələrindən söhbət açılıb. Hər bir şəhidimizin hələ yeniyetmə yaşlardan milli təəssübkeşliyə, vətənpərvərliyə, mübarizliyə, mərdliyə malik olduqları vurğulanıb. Kollektiv üzvləri şəhidlərə Allahdan rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, şəhid Firuz Qureşli Füzuli rayonu, şəhid Qəşəm Səfərov Xocavənd rayonu istiqamətdə gedən döyüşlərdə, şəhid Tural Məmmədov antiterror əməliyyatları zamanı Ağdam rayonu Gülablı kəndi istiqamətində gedən döyüşlərdə şəhid olmuşlar.

≈≈≈

Zəfər Günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan şəhərində yerləşən məhkəmələrin kollektivləri Zəfər Abidəsini ziyarət ediblər.



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi və hakim heyətinin iştirak etdiyi tədbirdə Abidənin önünə gül dəstələri qoyulub, Vətənin bütövlüyü uğrunda canlarında keçmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 3 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il 8 noyabr tarixinin Azərbaycanda "Zəfər Günü" kimi qeyd edilməsi qərara alınıb. Bu gün bütün torpaqlarımızda üçrəngli bayrağımız əbədi dalğalanır. Bu hünər savaşında şirin canlarından keçən şəhidlərimizin əziz xatirəsi daim yaşadılır.

≈≈≈

## *Ali Məhkəmənin mətbuat xidmətindən*

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi “Naxçıvan Muxtar Respublikasının 100 illiyi: Türkdilli dövlətlərin mediasiya islahatlarında birgə rolu” mövzusunda tədbirdə iştirak edən Mediasiya Şurasının nümayəndə heyəti ilə görüşüb.




Səadət Bəktaşi ölkədə aparılan məhkəmə-hüquq islahatları barədə məlumat verib və bildirib ki, ədalət mühakiməsinin tez, əhatəli və səmərəli şəkildə təmin olunması üçün məhkəmə yükünün azaldılmasında mediator institunun inkişafı və mübahisələrin alternativ həllinin təşviq olunması xüsusilə vacibdir.

Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov xoş və səmimi qəbula görə Səadət Bəktaşi və Ali Məhkəmənin əməkdaşlarına öz təşəkkürlərini bildirib.

Türk Dünyası Arabulucular Birliği İdarə Heyətinin sədri Yakup Erikel türkdilli dövlətlərin mediasiya sahəsində birgə gördüyü işlər və yaxın tarixdə keçiriləcək 1-ci Beynəlxalq Mediatorlar Qurultayı barədə məlumat verib.

Sonda xatirə hədiyyəsi təqdim olunub.

Görüşdə həmçinin Türk Dünyası Mediatorlar Birliyinin baş katibi Yusuf Gözel, Türk Dünyası Mediatorlar Birliyi Təlim və Tədris Komissiyasının üzvü Mehmet Ali Baranlı, Türk Dünyası Mediatorlar Birliyi İcra Komissiyasının üzvü İrfan Medet Akpınar, Mediasiya Şurası İdarə Heyəti sədrinin müşaviri Əli Fərzəliyev, mediasiya təşkilatı rəhbərləri və mediatorlar iştirak ediblər.

≈≈≈

## *Ali Məhkəmənin mətbuat xidmətindən*



Noyabr ayının 23-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan şəhərində yerləşən birinci instansiya məhkəmələrinin kollektivlərinin birgə iştirakı ilə ağac əkmə aksiyası keçirilib.

“Yaşıl dünya naminə həmrəylik ili” və Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illik yubileyi münasibətilə həyata keçirilən aksiya çərçivəsində Uzunoba gölü ətrafında öncədən ayrılmış əraziyə müxtəlif növ ağac fidanları əkilib, onlara ilkin aqrotexniki qulluq göstərilib. Aksiyanın keçirilməsində məqsəd ağac əkməklə ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək, yaşıllıqların qorunmasına töhfə verməkdir.

≈≈≈

Noyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin videokonfrans formatında geniş tərkibdə iclası keçirilib. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən birinci instansiya məhkəmələrinin sədr və hakimləri iştirak ediblər.

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi Məhkəmənin cari fəaliyyəti, işlərə operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından görülən işlər barədə məlumat verib.




Sonra muxtar respublikada fəaliyyət göstərən rayon (şəhər) məhkəmələrinin 2023-cü il üzrə fəaliyyətlərinin yekunları müzakirə olunub, yekun hesabatlar dinlənilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasa yekun vuraraq qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikasının

## *Ali Məhkəmənin mətbuat xidmətindən*

Ali Məhkəməsi öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun həyata keçirməklə ölkədə aparılan mütərəqqi hüquq islahatlarının uğurla davam etdirilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinə və ədalət mühakiməsinin səmərəliliyinə, vətəndaş məmnuniyyətinin təmini və onların hüquqlarının bərpasına, eyni zamanda ədalət mühakiməsinə əlçatanlığın təmini və məhkəmələrin fəaliyyətinin şəffaflığına yönəlmiş fəaliyyətini davam etdirəcəkdir.

≈≈≈



Dekabr ayının 2-4-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universiteti arasında birgə əməkdaşlıq haqqında anlaşma memorandumuna uyğun olaraq Ali Məhkəmə tərəfindən Universitetin hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri üçün hüquq günləri təşkil olunub. Üç gün davam edən layihənin ilk günü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Zamiq Əliyev "Ailə mübahisələrinin həllinin spesifik xüsusiyyətləri" barədə tələbələrə təlim keçib, təlimdə tələbələr ailə qanunvericiliyinin ümumi xarakteristikası, ailə mübahisələri üzrə işlərə tətbiq olunmalı olan qanunvericilik aktlarının dairəsi, həmin qəbildən işlərə baxılması zamanı formalaşmış vahid məhkəmə təcrübəsi barədə məlumatlandırılıb, onları maraqlandıran suallar hakim tərəfindən cavablandırılıb, mövzu ətrafında tələbələrin iştirakı ilə qarşılıqlı müzakirə aparılıb.



Növbəti gün tələbələrin təqdim olunmuş kazusla işləmələri təmin olunub. Onlar komandalar şəklində ailə mübahisəsi ilə bağlı kazus üzərində işləyib onunla bağlı sualları ətraflı cavablandırıblar.

Layihənin sonuncu günü tələbələr tərəfindən işlənmiş kazusun müzakirəsi baş tutub. Naxçıvan

Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Zamiq Əliyev tərəfindən tələbələrin iştirakı ilə kazusa təqdim olunmuş cavablar üzərində ətraflı təhlil aparılıb, onlara lazımi izahlar verilib.

Sonda layihə iştirakçılarına sertifikatlar təqdim olunub.

Qeyd edək ki, layihənin məqsədi hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin konkret hüquq sahəsi üzrə biliklərinin təkmilləşdirilməsi, onlarda nəzəri biliklərin təcrübədə istifadəsi vərdişləri yaratmaqla yanaşı, tələbələrin tənqidi düşüncə, hüquqi mühakimə kimi təməl bacarıqlarının inkişafına təkan verməkdir.

≈≈≈

Dekabrın 12-də vəfatının ildönümündə ümummilli lider Heydər Əliyevin xatirəsi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan şəhərində yerləşən birinci instansiya məhkəmələrinin kollektivləri tərəfindən yad edilib, Ulu Öndərin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.



≈≈≈

Dekabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məhəməsinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə və Ümummilli lider Heydər Əliyevin 101 illiyinə həsr olunmuş muxtar respublikada fəaliyyət göstərən məhkəmələrin komandaları arasında Nə? Harada? Nə zaman? intellektual oyunu keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan edilən tədbirdə daha sonra Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Açılış nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhəməsinin hakimi Mehman Allahverdiyev tədbir iştirakçılarını salamlayıb, intellektual oyunun məqsədləri barədə məlumat verib, komandalara uğurlar arzulayıb.

İntellektual oyunda əsasən ölkəmizin dövlətçilik tarixi, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Naxçıvan Muxtar Respublikasının muxtariyyət yolu, eləcə də ümumi dünyagörüşü ilə bağlı suallar cavablandırılıb.

Yarışın yekun nəticəsinə əsasən *"Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin komandası"* birinci, *"Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin hakim köməkçiləri"* komandası ikinci, *"Babək Rayon Məhkəməsinin komandası"* üçüncü yerdə qərarlaşmışlar.

Sonda I yeri tutmuş komanda diplom və kubokla, II və III yeri tutmuş komandalar diplomla, I, II, III yeri tutmuş komanda iştirakçıları Fəxri Fərmanla təltif olunublar.

≈≈≈

Dekabrın 28-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.

İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov son dövrlərdə məhkəmə sahəsində görülmüş işlər barədə məlumat verib. Bildirilib ki, ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində islahatlar davam etdirilir. Məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilir, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənir.



“Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanununun ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına mühüm töhfə verəcəyi diqqətə çatdırılıb.

İclasda həmçinin intizam icraatı üzrə işlərə, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və kadr məsələlərinə baxılaraq müvafiq qərarlar qəbul edilib.

Eyni zamanda iclasda Məhkəmə-Hüquq Şurası Aparatının, Hakimlərin Qiymətləndirilməsi Komitəsinin və Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurasının əsasnamələri, hakimlərin vəsiqələri ilə bağlı qanun layihələri müzakirə olunub, birinci instansiya məhkəmələrinin aparatlarının strukturu təsdiq edilib.

Daha sonra təqaüdə yola salınan hakimlər uzun illər məhkəmə sistemində öz fəaliyyəti ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfə verdiyinə görə fəxri fərmanla təltif ediliblər.

Sonra Şuranın üzvü, Ali Məhkəmənin Mülki kollegiyasının sədri Sənan Hacıyev tərəfindən Hakimlərin qiymətləndirilməsi qaydaları və metodogiyaları barədə Şura üzvlərinə geniş məlumat təqdim olunub.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

## “Azərbaycanın dövlət və hüquq tarixində Naxçıvan” mövzusunda elmi-praktiki konfrans keçirilib



Dekabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş “Azərbaycanın dövlət və hüquq tarixində Naxçıvan” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, ulu öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Sonra Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olunub.

“Naxçıvan Palas”da davam edən tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Naxçıvan Azərbaycanın hüquqi dövlətçilik tarixində mühüm yerə malikdir. Lakin bu bir həqiqətdir ki, Naxçıvanın Azərbaycanın dövlət və hüquq tarixindəki yeri Ümummilli Liderimiz Heydər Əliyevin siyasi fəaliyyəti ilə birbaşa bağlıdır. Ulu Öndərin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvanda

Azərbaycanın dövlətçilik və hüquq tarixinə qızıl hərflərlə yazılan tarixi qərarlar qəbul edilib. Müstəqil Azərbaycana rəhbərliyi dövründə də Ulu Öndər Naxçıvanda hüquq institutlarının inkişafı sahəsində kompleks tədbirlər həyata keçirib, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası təsdiq edilib.

Səlahiyyətli nümayəndə bildirib ki, ötən 30 ilə yaxın bir dövrdə Naxçıvan Muxtar Respublikasında hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin təşkili üçün dövlət tərəfindən əlverişli şərait yaradılmasına baxmayaraq, ədalət mühakiməsinin səmərəliliyi qənaətbəxş olmayıb. Lakin Ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq 2023-cü ilin yanvar ayından etibarən Naxçıvan Muxtar Respublikasında məhkəmələrin fəaliyyətinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, Ali Məhkəmədə kadr islahatları aparılıb. Artıq muxtar respublikada vaxtilə hüquqları pozulmuş vətəndaşların müraciətlərinə məhkəmələr tərəfindən ədalətli formada baxılır. 2023-cü il və 2024-cü ilin 11 ayında vaxtilə hüquqları pozulmuş sakinlər tərəfindən kompensasiya tələbi ilə Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin icraatına 1308 iş daxil olub, onlardan 683 iş üzrə iddia tələbi cavabdeh orqanlar tərəfindən təmin edildiyindən, 258 iş iddiaçılar tərəfindən iddia ərizələri geri götürüldüyündən icraatına xitam verilib, 66 iş mülkiyyət sənədləri olmadığından mümkün sayılmayıb, 301 iş isə hazırda icraatdadır. Ötən 2 ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən qəbul edilmiş 106 hüquqi akta əsasən vaxtilə qanunvericilik normalarına zidd olaraq təsdiq edilmiş 94 hüquqi akt ləğv edilib, 135 hüquqi aktda isə dəyişikliklər aparılıb.




Fuad Nəcəfli Ölkə Prezidentinin rəhbərliyi ilə dövlətçiliyimizin möhkəmləndirilməsi və hüquq islahatlarının əhatə dairəsinin genişləndirilməsi istiqamətində görülən işlərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bundan sonra da ardıcıl şəkildə yerinə yetiriləcəyini əminliklə diqqətə çatdırıb, bu yolda hər kəsə uğurlar arzulayıb.

## *Ali Məhkəmənin mətbuat xidmətindən*



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxışında qeyd edib ki, Naxçıvanın muxtariyyəti dövründə muxtar respublikanın məhkəmə-hüquq sistemi uzun tarixi inkişaf yolu keçib, bu tarix Naxçıvan Muxtar Respublikasının, bütövlükdə Azərbaycanın tarixi ilə sıx bağlı olub, ölkənin və muxtar respublikanın müxtəlif zaman kəsiyində yaşadığı dövrü özündə əks etdirib.

Səadət Bəktaşi bildirib ki, Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkədə siyasi, iqtisadi, mədəni islahatlarla yanaşı, genişmiqyaslı hüquq islahatlarının da aparılmasına start verildi. 1991 -ci ildə SSRİ-nin süqutu, Azərbaycanın dövlət müstəqilliyi əldə etməsi məhkəmə quruluşunun, ədalət mühakiməsi qaydalarının daha geniş və köklü şəkildə dəyişdirilməsini tələb edən islahatların aparılmasını zəruri edirdi. Bu islahatların bünövrəsində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dayanır.

Ali Məhkəmənin sədri vurğulayıb ki, ölkədə aparılan islahatlar Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən mərhələlərlə davam etdirilib. Bir tərəfdən qanunvericiliyə gətirilən yeniliklər, digər tərəfdən isə məhkəmələrin maddi təminat məsələlərinə göstərilən diqqət, o cümlədən hakimlərin, məhkəmə əməkdaşlarının iş şəraitinin müasir meyarlar səviyyəsinə çatdırılması muxtar respublikada fəaliyyət göstərən məhkəmələr tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrin keyfiyyətlə yerinə yetirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiə olunmasına xidmət edir.

Konfransda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək muxtar respublikanın son 100 ildə keçdiyi yolun tarixi və siyasi detalları barədə mühüm məqamları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının Baş Prokuroru Sənan Paşayev muxtar respublikanın hüquq-mühafizə orqanlarının inkişaf tarixi barədə məlumat verib.



Konfransda həmçinin Naxçıvan Dövlət Universitetinin filologiya üzrə fəlsəfə doktoru Şəhla Şirəliyevanın və Naxçıvan Şəhər Məhkəməsinin sədri Gülnar Səfərəliyevanın çıxışları dinlənilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı, Naxçıvan Yazıçılar Birliyinin üzvü Məftunə Hüseynbəyli "Naxçıvan" poemasından bir parça səsləndirib.

≈≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

# HAKİM STUDİYASI

## “Hakim studiyası” televiziya verilişinin icmalı




2024-cü ilin fevral ayından etibarən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yeni televiziya layihəsi start götürmüşdür. Naxçıvan Dövlət Televiziyasının efirində Məhkəmənin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisinin təqdimatı ilə yayımlanan “Hakim Studiyası” televiziya verilişi əhali arasında hüquqi maarifləndirmə işinin aparılması, cəmiyyətin hüquqa çatımlılığına mümkün töhfənin verilməsi, hüquq ictimaiyyətinin qarşılıqlı fikir mübadiləsi apara biləcəyi və məlumatlanacağı platformanın yaradılması, ictimaiyyətin məhkəmə təcrübəsi barədə məlumatlandırılması, gənc və gələcək hüquqşünasların yararlana biləcəyi video formatlı hüquqi material bazasının zənginləşdirilməsi məqsədilə hazırlanmışdır. Muxtar respublikada fəaliyyət göstərən məhkəmələrin hakimlərinin və aidiyyəti dövlət orqanlarının nümayəndələrinin dəvət olunduğu verilişin hər sayında hüququn müxtəlif sahələri barədə nəzəri məlumatlarla yanaşı qanunvericiliyin tələbləri və formalaşmış məhkəmə təcrübəsi barədə tamaşaçılara ətraflı məlumatlar verilir.



“Hakim Studiyası” verilişinin iyul sayı seçki prosesində yaranan hüquq pozmalara məhkəmələrdə baxılması qaydalarına həsr olunmuşdur. İyul ayının 26-da efirə təqdim olunan sayda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyevin iştirakı ilə seçki

prosesində yaranan hüquq pozmalara münasibətdə məhkəmələrin funksiyası, şikayət vermək hüququna malik olan şəxslər, şikayət müddətləri, bu qəbildən olan şikayətlərin obyektləri, məhkəmələr tərəfindən seçkilərlə bağlı mübahisələrə baxılması zamanı əsas diqqət edilməli prosessual qaydalar, mübahisələrə məhkəmələrdə baxılması müddətləri, sübutlar və sübut etmə vasitələri, bu qəbildən olan mübahisələr üzrə məhkəmə qərarından yuxarı instansiyalara şikayət imkanı, seçki hüquqlarının pozulması zamanı inzibati xəta və cinayət hesab olunan əməllərin dairəsi və bu əməllər üçün nəzərdə tutulmuş tədbirlər barədə tamaşaçılara ətraflı məlumatlar və izahlar verilmişdir.



28 avqust 2024 – cü il tarixdə "Hakim Studiyası" verilişinin növbəti sayı təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri Polad Həsənov və Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimi Arzuyar Kərimovun iştirakları ilə cinayət təqibi zamanı şübhəli və təqsirləndirilən şəxslərin əsas hüquqları müzakirə olunmuşdur. Verilişdə şübhəli şəxs, təqsirləndirilən şəxs və məhkum məfhumlarının, bu ifadələrin yerli yerində istifadəsinin əhəmiyyəti, şəxsin tutulduğu andan yaranan ilkin hüquqları, təqsirsizlik prezumpsiyası, şübhəli şəxsin tutulması zamanı onun mənzilinə daxilolmanın hüquqi proseduru, istintaq müddətində şəxsin tutulması ilə bağlı müddətlər şəxsin müdafiə hüququ və hüquqi yardım almaq hüququ, təqsirləndirilən şəxsin müdafiəçidən imtinasının hüquqi nəticələri, fiziki məhdudiyyəti olan, yaxud da, dili bilməyən şəxs şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb olunan şəxslərin hüquqları, qətimkan tədbirləri və s. müzakirə olunmuşdur.

## *Hakim studiyası*



Sentyabr ayının 26-da "Hakim Studiyası" verilişinin növbəti sayı efirə təqdim olunmuşdur. Verilişin qonaqları qismində Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin hakimləri Elnur Hüseynov və Tural Əliyev dəvət olunmuşlar. Pensiya hüququna həsr olunmuş növbəti sayda qonaqlar pensiya və müavinət anlayışları, bu məfhumların bir-birindən fərqi, pensiya hüququnun yaranma əsasları və şərtləri, şəxsin pensiya almaq üçün birdən artıq əsası olduqda pensiya təyinatının həyata keçirilməsi qaydası, işlədiyi müəssisənin və ya səlahiyyətli dövlət orqanının vəzifəli şəxslərinin səhlənkarlığı ucbatından pensiya hüquqlarından məhrum olmuş şəxsin sahib olduğu hüquqi müdafiə mexanizmləri, pensiyalarla bağlı mübahisələrə məhkəmələrdə baxılması qaydası, məhkəmələrin tərəflərə yardım funksiyası ilə bağlı mühüm məqamlar tamaşaçıların diqqətinə çatdırılmışdır.



"Hakim Studiyası" verilişinin növbəti sayı ekoloji hüquqpozmalara həsr olunmuşdur. 01 noyabr 2024-cü ildə təqdim olunan buraxılışda Sədərək Rayon Məhkəməsinin sədri Hüseyn Zülfüqarov və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xidmət rəisi Azər Məmmədovun iştirakları ilə ekosistemin və təbiətin qorunmasını təmin edən daxili və beynəlxalq hüquqi sənədlər, ekoloji hüquqpozmalar üzrə məsuliyyətin növləri, ekologiyaya qarşı törədilmiş cinayətlərin dairəsi, ekoloji hüquqpozmalar üzrə inzibati xəta hesab olunan əməllər, ekologiyaya vurulmuş zərərin kompensasiyasının həyata keçirilməsi qaydası, ətraf mühitin qorunmasının əhəmiyyəti, yaşıl enerjiyə keçid, iqlim dəyişikliyinin

qarşısını almaq üçün dövlət səviyyəsində görülən tədbirlər müzakirə olunmuşdur.



19 noyabr 2024 – cü il tarixdə "Hakim Studiyası" verilişinin növbəti sayı təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin hakimi Qabil Məmmədov və Şərur Rayon Məhkəməsinin sədri Mehdi Əliyevin iştirakı ilə mənəvi zərər və onun kompensasiyası ilə bağlı mübahisələr müzakirə edilmişdir. Verilişdə mənəvi zərərin anlayışı və real zərərdən fərqi, mənəvi zərərin ödənilməsi iddiası üçün əsas hesab olunan hallar, hüquqi şəxsin, şirkətin işgüzar nüfuzuna dəyən zərərə münasibətdə iddianın növü, mənəvi zərərin müəyyən olunmasında təqsirin müəyyən edilməsinin hüquqi qaydası, mənəvi zərərə səbəb olan faktın sübutunun həyata keçirilməsi qaydası, xüsusi ittiham qaydasında məhkəməyə müraciət olunması yaxud mənəvi zərərlə müşayiət olunan cinayət əməli ilə bağlı şəxsin məsuliyyətə cəlb olunması halında mülki qaydada zərərin təzmini üçün mülki iddia qaldırmaq imkanını, mənəvi zərərin ödənilməsinə dair iddialara baxan məhkəmələrin kompensasiya təyin edərkən əsas tutduğu hallar müzakirə olunmuşdur.

≈≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

4700000000
053-2022

Yığılmağa verilmiş: 28.12.2024.
Çapa imzalanmış: 10.01.2025.
Formatı 70x100 1/8 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 6,5 ç.v.
Sifariş № 323. Tiraj 100 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.